

**A**zərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Xüsusən, aparıcı qüvvə, hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Onun yüksək təfəkkürə, yüksək biliyə, yüksək ixtisasa malik olan insanlarıdır.

**Heydər Əliyev**



# REDAKSİYADAN:

Tələbə qəbulu müsabiqəsinin rekordçuları. Bilik yarışının öncülləri. Gəncliyimizin intellektual elitası. Yüksək ballılar.

Son illər ictimai leksikonumuzda fəal şəkildə işlənməkdə olan bu deyimlər təhsil sahəsində, tələbə qəbulu işində gerçəkləşmiş mütərəqqi bir meylin, müsbət bir təcrübənin ifadəsidir. Bu, ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış gənclərimizin təcrübəsidir. Belə yüksək nəticə əldə etmiş abituriyentlərin bu ilki sayı 385 nəfərdir. Yüksək ballılar ölkəmizin ən müxtəlif bölgələrində yerləşən məktəblərin məzunlarıdır. Onların 102 nəfəri 1-ci qrupun, 171 nəfəri 2-ci qrupun, 40 nəfəri 3-cü qrupun, 71 nəfəri 4-cü qrupun, 1 nəfəri isə 5-ci qrupun abituriyentləridir. Bunlardan əlavə, yüksək ballılardan 1 nəfəri Polis Akademiyasına, 3 nəfəri Ali hərbi məktəbə, 1 nəfəri isə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına qəbul olub.

Bu nəticələr belə bir faktı əyani surətdə təsdiq edir ki, mövcud tələbə seçimi sistemi üçün yeganə meyar bilikdir və bu sistem gənclərimizdə ali məktəbə öz bilik və bacarığı ilə qəbul olmağa möhkəm inam yaradıb. Bu da onların arasında oxumağa, öz bilik səviyyəsini artırmağa dərin maraq doğurub. Gənclərimizin qəbul imtahanlarında əldə etdiyi nəticələrin ildən ilə yüksəlməsinin ən mühüm amili də məhz budur.

Bəs, bu yüksək göstəricili abituriyentlər kimlərdir? Hansı məktəblərin məzunlarıdır? Hansı ixtisaslara qəbul olublar? Nə qədər bal toplayıblar? Hansı ailədə böyüyüblər, valideynləri kimdir, məşğuliyyətləri (ixtisası, iş yeri və vəzifəsi) nədən ibarətdir? Müvəffəqiyyətlərinin əsas səbəbləri, qəbula hazırlıq metodikalarının önəmli cəhətləri nədən ibarətdir? Peşə seçimləri hansı amillərlə bağlıdır və qəbul olduqları ixtisasa yiyələnməklə cəmiyyətdə nə kimi mövqe tutmaq istəyirlər?

Gəlin razılaşaq ki, bu və bu qəbildən olan suallar, onların cavablarının söykəndiyi təcrübə, dəlil və faktlar hamı üçün maraqlıdır. Ancaq bu təcrübə gələcək abituriyentlər üçün xüsusilə maraqlı və əhəmiyyətlidir: onların öyrənməsi, ibrət və nümunə götürməsi üçün zəngin bir mənbədir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası bunu nəzərə alaraq gəncliyimizin intellektual elitasını təmsil edənlərin təcrübəsinin öyrənilməsi və yayılmasına xüsusi diqqət yetirir və bu istiqamətdə silsilə tədbirlər həyata keçirir. Belə tədbirlərdən biri də əvvəlki illərdə olduğu kimi, bu il də "Abituriyent" jurnalının ayrıca bir sayının bütünlüklə onlara həsr edilməsidir. Burada hər bir yüksək ballı gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi məktəb, ailə tərkibi və valideynlərinin məşğuliyyəti haqqında məlumatlar verilir. Buyurun, oxuyun, tanış olun!

# "TƏLƏBƏ ADIN MÜBARƏK" tele görüşü









Əziz oxucular! Ali məktəblərə yüksək balla qəbul olmuş abituriyentlərin təcrübəsinin öyrənilməsi, təbliği, onların ictimaiyyətə tanıdılması və mükafatlandırılması son illərin dəyərli ənənələrindəndir. Yüksək nəticəli gənclərlə dövlət başçısının görüşləri keçirilir, onlara dövlət qayğısını gücləndirmək, təhsilə həvəslərini daha da artırmaq məqsədilə Prezident təqaüdü verilir. TQDK-da, ali məktəblərdə, mətbuat səhifələrində, televiziya ekranlarında, internetdə onlara həsr olunmuş tədbirlər təşkil edilir.

Bu silsilədən ən maraqlı və yaddaqalan tədbirlərdən biri yeni dərs ilinin başlanması ərəfəsində keçirilən "Tələbə adın mübarək" adlı sözlü, nəğməli, musiqili görüş oldu. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə Azərbaycan Dövlət Televiziyasıın birlikdə keçirdiyi bu tədbirdə ən yüksək ballı gənclər, qabaqcıl təhsil şöbələri və müəssisələrinin nümayəndələri, TQDK, Təhsil nazirliyi və ali məktəblərin rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

TQDK-nın sədri M. Abbaszadə görüş iştirakçılarına müraciət edərək dedi:

*Hörmətli qonaqlar, əziz dostlar!*

*İcazə verin, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının kollektivi adından bu il tələbə adı qazanmış gənclərimizin hamısını səmimi qəlbdən təbrik edim. Və məmnuniyyətlə bildirim ki, əvvəlki illərdə olduğu kimi, bu il də imtahanlarda iştirak edən məzunların bir hissəsi ali məktələrə ən yüksək nəticələrlə - 600-dən yuxarı balla qəbul olub. Bu il intellektual yarış qaliblərinin sayı 385 nəfərdir. Bu tədbirə dəvət olunanlar isə hər ixtisas qrupundan ən yüksək bal toplayan ilk 8 nəfərdir.*

*Biz Azərbaycanın bayrağını qaldıran olimpiya çempionlarının adını həmişə qürurla çəkirik. Ola bilsin ki, və əlbəttə, biz çox arzu edərdik ki, bu 385 nəfərin arasında gələcəkdə Nobel mükafatları alanlar olsun. Və Azərbaycanın adını bütün dünyada məşhurlarşdırsın.*

*Hər il keçirilən bilik yarışı gənclərin həyat yolunu, taleyini müəyyən edən çox ciddi bir imtahandır. Özü də bu imtahanı yalnız gənclər deyil, məktəblər və müəllimlər də verir. Çünki məzunların nəticələri həmin müəllimlərin və məktəblərin on illik zəhmətinin nəticəsidir. İstedadlı gənclərimiz isə, obrazlı desək, onların bəsləyib ərsəyə gətirdiyi bağ-*

*bağatın ən gözəl meyvələridir. Bu da çox əlamətdardır ki, son illər istedadlı gənclərimizin təhsilinə, inkişafına dövlət səviyyəsində xüsusi qayğı göstərilir. Ölkə başçısının hər il ənənəvi olaraq yüksək nəticə əldə edən gənclərlə görüşlər keçirməsi, onlar üçün Prezident təqaüdü təsis etməsi bu diqqət və qayğının əməli təzahürüdür.*

*TQDK da belə gənclərə həmişə xüsusi diqqətlə yanaşır, onların qəbula hazırlıq metodikasının öyrənilməsi və yayılması yönündə əməli işlər görür. Ancaq bilirsiniz ki, qəbul kampaniyası artıq arxada qalıb. İndi estafet ali məktəblərə keçib. Qəbul olan bütün gənclərimizin, o cümlədən yüksək ballıların bundan sonrakı təhsili, fəaliyyəti ali təhsil müəssisələrində davam edəcək. Ona görə ali məktəblərimiz bugünkü gəncliyimizin qızıl fondunu təşkil edən bu tələbələrin təhsili və inkişafı ilə yaxından maraqlanmalı, onların potensial imkanlarının reallaşmasına hər cür şərait yaratmalıdırlar.*



*Qeyd etmək lazımdır ki, dünyada ölkələr təkcə təbii sərvətlərinə görə deyil, həm də insanlarının bilik və bacarıqlarına görə qiymətləndirilir. Odur ki, indi bütün ölkələr biliklərə əsaslanan cəmiyyət qurmaq istiqamətində inkişaf edir və bilirlər ki, belə bir cəmiyyət qurmaq üçün əsas vasitə təbii sərvətlər deyil, məhz əhalinin bilik və bacarığıdır. Yaponiyanı nümunə gətirmək istəyirəm. Bu ölkə məhz əhalisinin intellektual potensialı sayəsində çiçəklənmiş, yüksək inkişaf səviyyəsinə çatmışdır. Mən istərdim ki, bizim doğma Azərbaycan da dünyada təkcə təbii sərvətləri ilə deyil, həm də insan sərvətləri ilə tanınan ölkə olsun. Və Siz - intellektual yarışın builki qalibləri də gələcəkdə bu istiqamətdə daha çox işlər görməlisiniz.*

*Gələcək nəsil intellektual cəhətdən daha hazırlıqlı olmalıdır və olacaq da. Mən buna inanıram. Texniki ixtisasların cəmləşdiyi I ixtisas qrupunun nəticələrinə baxanda və görəndə ki, burada 102 nəfər gənc 600-dən yuxarı nəticə göstərib, mən qürur hissi keçirdim. Bu, onu deməyə əsas verir ki, Azərbaycanın gözəl gələcəyi var və Azərbaycanın gələcək nəsli bizim nəsildən daha bilikli və savadlı olacaqdır. Bu gənclər yaxın gələcəkdə ölkəmizin intellektual potensialını daha da zənginləşdirəcək, elm, texnika, iqtisadiyyat və mədəniyyətimizə dəyərli töhfələr verəcək və xalqımıza ləyaqətlə, yüksək peşəkarlıqla xidmət edəcəklər.*

*Biz gəncliyimizin bu qabaqcıl dəstəsinin bilik, bacarıq və istedadına güvənərək inamla deyə bilərik ki, Vətənimizin, dövlətimizin və millətimizin gələcəyi etibarlı əllərdə olacaq.*

Sonra TQDK-nın sədri görüşdə iştirak edən yüksək ballı tələbələri tamaşaçılara təqdim etdi, onların topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi məktəb haqqında məlumat verdi, onların hər birinə Dövlət Komissiyası adından xatirə hədiyyələri təqdim etdi.

Görüşdə çıxış edən müəllimlər, orta və ali məktəb rəhbərləri, millət vəkilləri gənclərimizi ali məktəbə yüksək nəticələrlə qəbul olmaları münasibətilə təbrik etdilər, onlara öz arzu və tövsiyələrini bildirdilər. Gənclər özləri də görüşdə cərəyan edən sorğu və söhbətlərə fəal qoşularaq öz rəy, mülahizə və istəklərini ifadə etdilər.

Tədbir bütövlükdə Dövlət Televiziyası tərəfindən lentə alındı və nümayiş etdirildi.

***Əziz oxucular!***

Ali məktəblərə yüksək balla qəbul olmuş gənclərlə ənənəvi anket sorğusu keçirmişik. Onlardan belə yüksək nəticə əldə etmələrinin səbəblərini, imtahanlara nə qədər müddətə hazırlaşdıqlarını və bu zaman hazırlığın hansı formalarından istifadə etdiklərini soruşmuş, bütövlükdə test üsulu ilə qəbul imtahanları haqqında rəylərini bilmək istəmişik. Onların qəbula hazırlığında "Abituriyent" jurnalının rolu və onun səhifələrində daha hansı materialların nəşrinin məqsədəuyğunluğu barədə fikirlərini öyrənmişik. Burada isə apardığımız anket sorğusunun aşağıdakı 2 sualına onların verdiyi cavabları təqdim edirik.

*1) Nə üçün məhz bu ixtisası seçmisiniz və bu ixtisasa yiyələnməklə gələcək həyatda öz yerinizi necə təsəvvür edirsiniz?*

*2) Gələcək abituriyentlərə qəbula hazırlaşmaqla bağlı məsləhət və tövsiyələriniz?*

# I QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### QƏHRƏMANOV İLMAR BALAXAN OĞLU

695.000 balla Bakı Dövlət Universitetinin fizika ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 289 saylı orta məktəb- "Zəngi" liseyinin məzunudur.
Atası təqaüdçüdür.
Anası Bakı Ali Birləşmiş Komandanlıq məktəbində baş tibb bacısıdır.

*1. Fizika çox çətin, ancaq eyni zamanda maraqlı bir elm sahəsi olduğu üçün məndə bu fənnə hələ uşaqlıqdan rəğbət yaranıb. Sözsüz ki, elmlə ciddi məşğul olmaq istəyən hər bir şəxsin arzusu özünü dahilərlə bərabər görməkdir.*
*2. İmtahana bir il qalmış yox, məktəbə ayaq basan gündən hazırlaşmaq lazımdır.*



### VƏKİLOVA NƏRMİN BAHADUR QIZI

691.071 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 153 saylı orta məktəbin məzunudur.
Atası təqaüdçüdür.
Anası Mərkəzi Hərbi Hospitalda funksionalistdir.

*1. Yeni kompüter texnologiyaları dünyasında proqramistlərə böyük ehtiyac vardır. Gələcəkdə ingilis dili üzrə biliyimi mükəmməlləşdirmək, ispan və italyan dillərinə yiyələnmək istəyirəm.*
*2. İxtisas seçməzdən əvvəl yaxşı-yaxşı fikirləşmək, seçdikdən sonra isə çoxlu çalışmaq lazımdır.*



### KƏRİMOV AZƏR NAZİM OĞLU

688.393 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin məzunudur.
Atası Bakı Dövlət Universitetinin riyazi analiz kafedrasının müdiridir.
Anası Bakı şəhəri 287 saylı "Zəkalar" liseyində müəllimdir.

*1. Uşaqlıqdan riyazi bacarığım olduğundan və valideynlərim məndə bu fənnə qarşı maraq oyatdıqlarından bu ixtisası seçmişəm. Gələcək həyatımı universitetlə bağlayacağam.*
*2. Abituriyentlərə seçdikləri ixtisas qrupuna aid fənləri daha dəqiq öyrənməyi və bununla kifayətlənməyərək digər fənləri də yaxşı oxumağı tövsiyə edirəm.*



### QOCAYEV ƏLİ KƏMALƏDDİN OĞLU

675.536 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 282 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri 282 saylı orta məktəbdə müəllimdir.
Anası Bakı şəhəri 282 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisası kompüter texnologiyalarının müasir həyatda böyük rolu olduğuna görə seçmişəm.*
*2. İmtahanda yüksək nəticə göstərmək üçün gərək ən azı 2-3 il hazırlaşasan.*



## SALMANOVA AYNURƏ DİLQAM QIZI

673.571 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 275 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 279 saylı orta məktəbdə müəllimdir.

*1. Mənə elə gəlir ki, inkişaf etməkdə olan Azərbaycanda gələcəkdə proqramistlərə böyük ehtiyac olacaq. Həm öz arzumla, həm də müəllimlərimin məsləhəti ilə bu ixtisası seçmişəm. Bu ixtisasa qəbul olmağımdan çox razıyam. Belə hesab edirəm ki, gələcəkdə öz sənətimin sahibi ola biləcəm.*
*2. Məktəb dərslərini daha yaxşı oxuyub hazırlaşsınlar, çünki uğurlu nəticə əldə etmək üçün vaxtında oxumaq lazımdır.*



## MƏMMƏDOVA AYTƏN ASİM QIZI

671.071 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Şəki şəhəri 10 saylı orta məktəbin məzunudur.
Atası Şəki şəhəri uşaq incəsənət məktəbində müəllimdir.
Anası işləmir.

*1. Riyaziyyatdan çox xoşum gəlir. Gələcəkdə universiteti bitirdikdən sonra elmi mövzu götürüb işləmək istərdim.*
*2. Qəbula yalnız 11-ci sinifdə yox, məktəbdə oxuduqları bütün vaxt ərzində hazırlaşsınlar.*



## CAVADOV ARİZ VAHİD OĞLU

670.536 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Kompüterlə həddindən artıq maraqlanıram və proqramist olmaq istəyirəm. İnformatika gələcəyin ixtisasıdır.. Magistraturanı xarici dövlətdə davam etdirmək istəyirəm.*
*2. İmtahana ciddi və sistemli şəkildə hazırlaşmaq, çoxlu test sualları həll etmək və sınaq imtahanlarında iştirak etmək lazmdır.*



## ƏLİYEV ELNUR NURƏDDİN OĞLU

667.946 balla “Qafqaz” Universitetinin avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bildiyimiz kimi, XXI əsr kompüter əsridir. Bunsuz tərəqqi ola bilməz. Bu ixtisası seçməklə mən öz Vətənimin inkişafına bacardığım qədər kömək etməyə çalışacağam.*
*2. Hələ məktəbdə oxuyarkən seçəcəkləri ixtisası dəqiqləşdirsinlər və o ixtisasla bağlı fənləri daha mükəmməl öyrənsinlər. TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında iştirak etsinlər, öz səhvləri əsasında zəif bildikləri sahəni müəyyənləşdirib onu dərindən öyrənsinlər.*



## ƏTAYİ RƏŞAD ƏDALƏT OĞLU

667.411 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.
Atası Milli Elmlər Akademiyasında aparıcı elmi işçidir.
Anası ETTM-də kadrlar şöbəsinin müdiridir.

*1. Dəqiq və texniki fənləri daha yaxşı bildiyim üçün bu ixtisas qrupunu seçmişəm.*
*2. Test bankındakı sualları həll etməklə kifayətlənməyib, müvafiq fənləri daha dərindən öyrənsinlər.*



## RUFULLAYEVA AYGÜN RASİM QIZI

664.411 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 153 saylı orta məktəbin məzunudur.
Atası Bakı Baş Gömrük İdarəsində baş inspektordur.
Anası Bakı Xoreoqrafiya Məktəbində müəllimdir

*1. Texniki fənləri xoşladığım üçün bu qrupu seçmişəm. İxtisas seçimində valideynlərimin də rəyini nəzərə almışam. Gələcəkdə xalqımız üçün faydalı bir şəxsiyyət olmaq istəyirəm.*
*2. Vaxtdan səmərəli istifadə etmək, iş rejimini düzgün qurmaq, psixoloji gərginliyi aradan qaldırmaq.*



### BAYRAMOVA AYGÜN CƏLİL QIZI

664.375 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Qazax rayonu Daş Salahlı kənd 1 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Qazax rayonu Daş Salahlı kənd 1 saylı orta məktəbində müəllimdir.

*1. Riyaziyyat fənnini çox sevirəm. Gələcəkdə təhsilimi davam etdirmək, qəbul olduğum BDU-da müəllim olmaq istəyirəm. Burada elmi işlə məşğul olmaq arzusundayam.*
*2. İlk növbədə onlara məktəb dərslərinə gündəlik hazırlaşmağı, bir neçə fənni deyil, bütün fənləri hərtərəfli öyrənməyi, ixtisas seçimini aşağı siniflərdə oxuyarkən etməyi məsləhət görürəm. Qəbula planlı şəkildə hazırlaşsınlar. Hazırlıq zamanı fəal şəkildə istirahət etsinlər və idmanla məşğul olsunlar.*



### BABAŞOV VÜSAL ƏLİ OĞLU

664.286 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Bakı şəhəri Binəqədi rayonu 116 saylı rabitə şöbəsinin müdiridir.
Anası işləmir.

*1. Bu ixtisas üzrə Azərbaycana güclü kadrlar lazımdır. Gələcəkdə özümü güclü neft peşəkarlarından biri kimi təsəvvür edirəm.*
*2. İmtahana bir neçə il əvvəl hazırlaşmağa başlasınlar və proqramı tam, əhatəli şəkildə qavrasınlar.*



### ƏHMƏDOVA AYTƏN RAMİZ QIZI

663.929 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu Avropa liseyinin məzunudur.
Atası Bakı Dövlət Universitetində dosentdir.
Anası AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda proqramçıdır.

*1. Seçdiyim ixtisasın çox gərəkli və perspektivli olduğunu zənn edirəm.*
*2. Elmləri dərindən, yaradıcı surətdə mənimsəsinlər, əzbərçiliyə yol verməsinlər.*



### SÜLEYMANLI ƏLİ TAHİR OĞLU

662.500 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.
Atası Azərdəniz Neft İnşaat Trestinin ixtisaslaşdırılımış tikinti quraşdırma təmir idarəsində iş icraçısıdır.
Anası Naxçıvan şəhəri 11 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtiasası riyaziyyata böyük marağım olduğuna görə seçmişəm. Ancaq gələcək həyatda nə kimi mövqe tutacağımı indidən demək çətindir.*
*2. Qəbula hazırlaşarkən səbirli olun və sistemli hazırlaşın. TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında iştirak edin.*



### ABBASOV SAMİR VƏLİ OĞLU

660.000 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Ucar rayonu 1 saylı orta məktəbin məzunudur.
Atası Ucar şəhəri 1 saylı orta məktəbdə müəllimdir.
Anası Ucar şəhəri 1 saylı orta məktəbdə müəllimdir.

*1. Riyaziyyat qədim, fundamental və eyni zamanda tətbiqi elm sahəsi olduğuna görə bu ixtisası seçmişəm. Məqsədim elm adamı olmaqdır.*
*2. Proqam materiallarını mükəmməl mənimsəsinlər.*



### ƏTAYİ TƏBRİZ ƏDALƏT OĞLU

657.768 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.
Atası Milli Elmlər Akademiyasında aparıcı elmi işçidir.
Anası ETTM-də kadrlar şöbəsinin müdiridir.

*1. Gələcək texnika dövrüdür. Ona görə də bu sahəni seçmişəm.*
*2. Çoxlu oxumaq.*

I Q R U P

ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



## DOSTUYEV FAMİL ZAKİR OĞLU

657.679 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.
Atası Şəki rayonu Şirinbulaq kənd məktəbində müəllimdir.
Anası evdar qadındır.

*1. Uşaqlıqdan bu ixtisasdan xoşum gəlir və güman edirəm ki, bu sahənin yaxşı mütəxəssislərdən olacağam.*
*2. İmtahana hazırlaşan zaman çox diqqətli olsunlar. Onlar üçün yaradılmış bütün imkanlardan maksimum istifadə etsinlər.*



## ƏLİHÜSEYNLİ NİCAT AFİQ OĞLU

655.358 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 20 saylı orta məktəb-liseyin məzunudur.
Atası "MEDİA HOLDİNQ" şirkətində mühəndisdir.
Anası Asəf Zeynallı adına musiqi məktəbində müəllimdir.

*1. Mən riyaziyyatı kiçik yaşlarımdan xoşlayıram. Bu, çox perspektivli sənətdir. Azərbaycanın layiqli vətəndaşı olmaq istəyirəm. Qarabağı Azərbaycanın tərkib hissəsi kimi görməyi arzulayıram.*
*2. Küçədə avaralanmaqdansa evdə oturub 3-4 misal eləsələr, özlərinə ziyan etməzlər. Oxusalar işıqlı dünyaya, oxumasalar qaranlıq dünyaya addımlayacaqlar. Birinci halda onların gələcəyi var, ikinci halda isə yoxdur. Çox təəssüf ki, bunu çox az gənc başa düşür.*



## HƏSƏNOV FİRAD RƏŞİD OĞLU

655.250 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Sumqayıt şəhəri təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.
Atası Zəngilan rayonu 15 saylı orta məktəbdə müəllimdir.
Anası Zəngilan rayonu 15 saylı orta məktəbdə müəllimdir.

*1. Respublikamızın iqtisadiyyatı hazırda sürətlə inkişaf edir. Buna görə iqtisadçı olmaq mənim ən böyük arzumdur. Bu ixtisasa yiyələnməkdə əsas məqsədim budur ki, iqtisadiyyatımızın inkişafında mənim də rolum olsun.*
*2. Təkcə imtahan verəcəkləri fənləri yox, tədris olunan bütün fənləri yaxşı oxusunlar. Çünki elə an olur ki, əlavə öyrəndiyin biliklərin sənə daha çox xeyri olur. Abituriyentlər ixtisas seçərkən də yaxşı düşünsünlər. Bəzən hər hansı bir ixtisası təsadüfi və ya hər hansı qeyri normal mülahizələrlə seçənlər qəbuldan sonra həmin ixtisas üzrə oxumaq istəmirlər.*



## HƏMZƏYEV ELGİZ ÇİNGİZ OĞLU

655.018 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
İsmayıllı rayonu Qoşakənd orta məktəbinin məzunudur.
Atası İsmayıllı rayonu Qoşakənd bələdiyyə sədrinin müavinidir.
Anası işləmir.

*1. Riyaziyyat dəqiq və maraqlı elm olduğuna görə bu sahəni seçmişəm. Gələcəkdə elmi işlə məşğul olmaq fikrindəyəm.*
*2. Onlara hərtərəfli hazırlaşmağı və öz imkanlarını düzgün qiymətləndirməyi tövsiyə edərdim. İxtisası vaxtında və düzgün seçmək çox vacibdir.*



## ƏHMƏDOV ANAR AZAD OĞLU

655.000 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 46 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Müəllimləri Təkmilləşdirmə İnstitutunda metodist müəllimdir.
Anası Bakı şəhəri 14 saylı uşaq poliklinikasında həkimdir.

*1. Bu ixtisasa mənim çoxdan marağım var. Kompüterdə işləmək mənim xüsusilə xoşuma gəlir. İstəyirəm gələcəkdə yeni əməliyyat sistemi yaradım.*
*2. İmtahana həvəslə hazırlaşsınlar, lakin istirahət etməyi də unutmasınlar. Bəziləri 11 il məktəbdə oxumurlar, sonra isə müəllimlə fərdi hazırlaşıb ali məktəbə qəbul olumaq istəyirlər. Bu isə heç də asan iş deyil. Odur ki, ali məktəbdə oxumaq istəyən şəxs gərək məqsədini əvvəlcədən müəyyənləşdirib əməli işə başlasın.*



## MUSAYEV RÖVŞƏN ADİL OĞLU

651.911 balla Azərbaycan Dövlət Neft Akademiyasının tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin məzunudur.
Atası Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzində kompüter işləri üzrə mütəxəssisdir.
Anası Bakı şəhəri 63 saylı orta məktəbdə müəllmdir.

*1. Görünür, atamın bu ixtisasla ciddi məşğul olması məni də bu peşəni seçməyə həvəsləndirib. Mən gələcəkdə elmi işlə məşğul olmaq istəyirəm.*
*2. İlk növbədə məktəbdə bütün fənləri yaxşı oxumalıdırlar.*



## QURBANOVA SEVİNC RAMİZ QIZI

648.286 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 107 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri 107 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavinidir.
Anası sanitar epidemioloji stansiyada laborantdır.

*1. Mən riyaziyyat fənnini çox sevirəm və onunla əlaqədar olan ixtisasa yiyələnməyi arzulayıram. Mən gələcəkdə çox savadlı kadr olmaq, öz sahəmdə uğurlar qazanmaq, əməllərimlə xalqa xeyir gətirmək və Azərbaycanın layiqli bir vətəndaşı olmaq istəyirəm.*
*2. Dərslərinə həmişə ciddi hazırlaşsınlar və müəllimlərin tapşırıqlarına əməl etsinlər. Ən əsası isə biliklərini daha da möhkəmləndirmək və dərinləşdirmək üçün dərs materiallarını tez-tez təkrar etsinlər. Yaxşı deyiblər: "Təkrar biliyin anasıdır". Gələcəyin bütün abituriyentlərinə uğurlar arzulayıram.*



## SÜLEYMANOV TURAL TELMAN OĞLU

647.858 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Azərbaycan Milli Elmlər Akademiyasında aparıcı elmi işçidir.
Anası Bakı şəhəri 16 saylı musiqi məktəbində müəllimdir.

*1. Bu ixtisas birinci qrupun ən yaxşı ixtisaslarındandır və zənnimcə, onun böyük perspektivi vardır. Həyatda layiqli yer tutmaq üçün hər kəs ciddi çalışmalıdır. Mən də çalışıb yaxşı bir ixtisas sahibi olacağam.*
*2. Abituriyentlərə özləri üçün bir sistemli çalışma proqramı tərtib etməyi məsləhət görərdim. Bununla da onlar qəbula hərtərəfli hazırlıqlarını təmin etmiş olarlar.*



## HƏSƏNOV RÜFƏT YAŞAR OĞLU

646.358 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 221 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Ali Hərbi məktəbdə yeməkpaylayan işləyir.

*1. Bu ixtisası ən perspektivli sahə hesab edirəm və gələcəkdə yaxşı proqramçı olmaq istəyirəm.*
*2. Oxusunlar, heç kəsə yox, yalnız öz biliklərinə güvənsinlər.*



## DƏRVİŞOV RAMİN ŞADƏT OĞLU

645.375 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 258 saylı orta məktəbin məzunudur.
Atası "Yeni gün" istehsalat firmasında baş memardır.
Anası Bakı Dövlət Rabitə və Nəqliyyat kollecində mühəndisdir.

*1. Əvvəla, bu ixtisasa mənim böyük marağım var. İkincisi, yaşadığımız əsr texniki tərəqqi, kompüter əsridir. Mən gələcəkdə hər hansı yerli və ya xarici şirkətdə proqramist olmaq istərdim. Yəqin ki, Allahın köməkliyi və öz biliyimlə mən buna nail olacağam.*
*2. Orta məktəb illərini elm öyrənməyə sərf edin. Boş, mənasız həyat keçirməkdən əl çəkib yalnız elmlə, oxumaqla məşğul olun. Çünki insanı, bütövlükdə, xalqı, milləti irəli aparan məhz elmdir.*



## HÜSEYNOVA LƏMAN SƏRDAR QIZI

644.536 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Tərtər rayonu Xoruzlu kənd orta məktəbinin məzunudur.
Atası Bərdə rayonu 1 saylı orta məktəbdə müəllimdir.
Anası Bərdə rayonu 2 saylı orta məktəbdə müəllimdir.

*1. Mən riyaziyyatı uşaqlıqdan çox sevirəm.*
*2. Öz ürəyinizin səsinə qulaq asın. Mənim valideynlərim istəyirdilər ki, mən həkim olum, mənsə öz şəxsi qərarımı dəyişmədim. Səbirli olun, zəhmətdən qorxmayın.*



## PAŞAYEV VÜQAR BEYBALA OĞLU

643.875 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Şəki şəhəri 10 saylı orta məktəbin məzunudur.
Atası Şəki şəhəri vərəm əleyhinə dispanserdə həkimdir.
Anası Şəki şəhəri sanitar epidemioloji şöbədə sanitardır.

*1. Texniki fənlərə böyük marağım olduğuna görə bu ixtisası seçdim.*
*2. İmtahana aşağı siniflərdən hazırlaşmağa başlasınlar.*




## QURBANOVA SEVİNC RAMİZ QIZI

648.286 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 107 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri 107 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavinidir.
Anası sanitar epidemioloji stansiyada laborantdır.

*1. Mən riyaziyyat fənnini çox sevirəm və onunla əlaqədar olan ixtisasa yiyələnməyi arzulayıram. Mən gələcəkdə çox savadlı kadr olmaq, öz sahəmdə uğurlar qazanmaq, əməllərimlə xalqa xeyir gətirmək və Azərbaycanın layiqli bir vətəndaşı olmaq istəyirəm.*
*2. Dərslərinə həmişə ciddi hazırlaşsınlar və müəllimlərin tapşırıqlarına əməl etsinlər. Ən əsası isə biliklərini daha da möhkəmləndirmək və dərinləşdirmək üçün dərs materiallarını tez-tez təkrar etsinlər. Yaxşı deyiblər: "Təkrar biliyin anasıdır". Gələcəyin bütün abituriyentlərinə uğurlar arzulayıram.*



## SÜLEYMANOV TURAL TELMAN OĞLU

647.858 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Azərbaycan Milli Elmlər Akademiyasında aparıcı elmi işçidir.
Anası Bakı şəhəri 16 saylı musiqi məktəbində müəllimdir.

*1. Bu ixtisas birinci qrupun ən yaxşı ixtisaslarındandır və zənnimcə, onun böyük perspektivi vardır. Həyatda layiqli yer tutmaq üçün hər kəs ciddi çalışmalıdır. Mən də çalışıb yaxşı bir ixtisas sahibi olacağam.*
*2. Abituriyentlərə özləri üçün bir sistemli çalışma proqramı tərtib etməyi məsləhət görərdim. Bununla da onlar qəbula hərtərəfli hazırlıqlarını təmin etmiş olarlar.*



## HƏSƏNOV RÜFƏT YAŞAR OĞLU

646.358 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 221 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Ali Hərbi məktəbdə yeməkpaylayan işləyir.

*1. Bu ixtisası ən perspektivli sahə hesab edirəm və gələcəkdə yaxşı proqramçı olmaq istəyirəm.*
*2. Oxusunlar, heç kəsə yox, yalnız öz biliklərinə güvənsinlər.*



## DƏRVİŞOV RAMİN ŞADƏT OĞLU

645.375 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 258 saylı orta məktəbin məzunudur.
Atası "Yeni gün" istehsalat firmasında baş memardır.
Anası Bakı Dövlət Rabitə və Nəqliyyat kollecində mühəndisdir.

*1. Əvvəla, bu ixtisasa mənim böyük marağım var. İkincisi, yaşadığımız əsr texniki tərəqqi, kompüter əsridir. Mən gələcəkdə hər hansı yerli və ya xarici şirkətdə proqramist olmaq istərdim. Yəqin ki, Allahın köməkliyi və öz biliyimlə mən buna nail olacağam.*
*2. Orta məktəb illərini elm öyrənməyə sərf edin. Boş, mənasız həyat keçirməkdən əl çəkib yalnız elmlə, oxumaqla məşğul olun. Çünki insanı, bütövlükdə, xalqı, milləti irəli aparan məhz elmdir.*



## HÜSEYNOVA LƏMAN SƏRDAR QIZI

644.536 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Tərtər rayonu Xoruzlu kənd orta məktəbinin məzunudur.
Atası Bərdə rayonu 1 saylı orta məktəbdə müəllimdir.
Anası Bərdə rayonu 2 saylı orta məktəbdə müəllimdir.

*1. Mən riyaziyyatı uşaqlıqdan çox sevirəm.*
*2. Öz ürəyinizin səsinə qulaq asın. Mənim valideynlərim istəyirdilər ki, mən həkim olum, mənsə öz şəxsi qərarımı dəyişmədim. Səbirli olun, zəhmətdən qorxmayın.*



## PAŞAYEV VÜQAR BEYBALA OĞLU

643.875 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Şəki şəhəri 10 saylı orta məktəbin məzunudur.
Atası Şəki şəhəri vərəm əleyhinə dispanserdə həkimdir.
Anası Şəki şəhəri sanitar epidimioloji şöbədə sanitardır.

*1. Texniki fənlərə böyük marağım olduğuna görə bu ixtisası seçdim.*
*2. İmtahana aşağı siniflərdən hazırlaşmağa başlasınlar.*



## VƏLİYEV SAMİR BƏHRAM OĞLU

637.000 balla Milli Aviasiya Akademiyasının aviasiya təhlükəsizliyinin təşkili ixtisasına qəbul olub.
Qazax rayonu Yuxarı Əskipara kənd orta məktəbinin məzunudur.
Atası Qazax rayonu Yuxarı Əskipara kənd orta məktəbində müəllimdir.
Anası Qazax rayonu Yuxarı Əskipara kənd orta məktəbində müəllimdir.

*1. Mənim, ümumiyyətlə, təhlükəsizlik işindən xoşum gəlir. Odur ki, Milli Aviasiya Akademiyasının bu ixtisasını seçmək qərarına gəldim.*
*2. İlk növbədə özlərinə inansınlar, yalnız biliklərinə güvənsinlər.Test imtahanlarında hər şeyi bilik və testin texnologiyasına düzgün bələd olmaq həll edir. Bunu möhkəm yadda saxlasınlar.*



## NURUZADƏ NİGAR NƏSRƏDDİN QIZI

636.804 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Lənkəran şəhəri 10 saylı orta məktəbin məzunudur.
Atası Lənkəran rayonlararası psixonevroloji dispanserdə şöbə müdiridir.
Anası Lənkəran şəhəri 1 saylı orta məktəbdə müəllimdir.

*1. Elmi-texniki tərəqqi əsrinin bugünkü səviyyəsi məni bu seçim üzərində dayanmağa sövq etdi.*
*2. Zehni qabiliyyətlərinin səviyyəsinə uyğun ixtisas seçsinlər və imtahana ciddi hazırlaşsınlar.*



## MÜSLÜMOVA KÖNÜL ƏLİSAHİB QIZI

634.661 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Ucar rayonu Nizami adına 3 saylı orta məktəbin məzunudur.
Atası BUS Bankda baş mühasibdir.
Anası Ucar şəhəri Nizami Gəncəvi adına orta məktəbdə müəllimdir.

*1. Riyaziyyat fənninə olan marağıma görə bu sahəyə üstünlük vermişəm. Məqsədim gələcəkdə neft-kimya üzrə ixtisaslaşmaqdır.*
*2. Hansı sənəti sevirlərsə, onu da seçsinlər və buna nail olmaq üçün bütün imkanlarını səfərbər etsinlər.*



## HÜSEYNOVA KÖNÜL MUSA QIZI

634.643 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu kimya-biologiya təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası 2 saylı Baza Tibb məktəbində müəllimdir.

*1. Mən ixtisaslarla qəbul imtahanlarından xeyli əvvəl maraqlanırdım. Ən çox ürəyimə yatanı bu ixtisas oldu. Gələcəkdə öz üzərimdə çalışmağı və Vətənimə layiqli xidmət etməyi arzulayıram.*
*2. Proqram materiallarını zamanında oxusunlar və "Abituriyent" jurnalındakı testlərlə biliklərini möhkəmləndirsinlər. Onları əmin etmək istərdim ki, hazırda ölkəmizdə təhsilə olan diqqət nəticəsində istədikləri nəticəyə nail ola bilərlər.*



## GÖZƏLOV TURAN FİZULİ OĞLU

632.768 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 276 saylı orta məktəbin məzunudur.
Atası Milli Elmlər Akademiyasında böyük elmi işçidir. .
Anası Bakı Xoreoqrafiya Məktəbində müəllimdir.

*1. Müasir dövrdə süni zəka, informatika və kompüter texnologiyalarının sürətlə inkişaf etməsində riyaziyyatın əvəzedilməz rolu vardır. Məni də bu ixtisası seçməyə sövq edən məhz bu amildir.*
*2. Seçdikləri ixtisas qrupuna aid fənləri daha dərindən öyrənsinlər.*



## BƏŞİROV ELNUR ZƏKİ OĞLU

632.518 balla Milli Aviasiya Akademiyasının aviasiya elektrosistemlərinin və pilotaj naviqasiya komplekslərinin texniki istismarı ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 14 saylı orta məktəbin məzunudur.
Atası "Consolidated Contractors Company" şirkətində sürücüdür.
Anası işləmir.

*1. Bu ixtisası sadəcə olaraq öz arzuma əsasən seçmişəm. Təkcə mən yox, bütün tələbələr öz ixtisaslarına mükəmməl yiyələnib xalqımızın gələcəyi naminə çalışmalıdırlar. Hələlik ən yaxın planlarıma ali məktəbi əla qiymətlərlə qurtarmaq daxildir.*
*2. Hər bir dəqiqələrinin qiymətini bilsinlər. Əgər gələcəkdə yüksək nəticə əldə etmək istəyirlərsə, bütün vaxtlarını oxumağa, öyrənməyə sərf etsinlər.*



## HƏSƏNOVA NİGAR XANLAR QIZI

630.643 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 169 saylı orta məktəbin məzunudur.
Atası Balaxanı neft mədənində maşinistdir.
Anası evdar qadındır.

*1. Mənim bu ixtisası seçməyimdə riyaziyyat müəllimimin çox rolu olub. Mən onun şagirdlərlə davranışını, dərs keçmə metodunu müşahidə etmişəm və bunlar mənim riyaziyyat elminə marağımı daha da artırıb. Mən gələcəyimi riyaziyyat müəllimi kimi görürəm.*
*2. Onlara məsləhətim budur ki, imtahanlara hazırlıq zamanı "Abituriyent" jurnalından çox istifadə etsinlər.*

---



## İMANOV NƏRİMAN ELMAN OĞLU

630.536 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Masallı rayonu Hişkədərə kənd orta məktəbinin məzunudur.
Atası Masallı rayonu Boradigah qəsəbə 1 saylı orta məktəbində müəllimdir.
Anası Masallı rayonu Hiskədərə kənd məktəbində müəllimdir.

*1. Neft sənayesi ölkəmizin çiçəklənən sahəsidir. Azərbaycanı iqtisadi cəhətdən qüdrətli dövlət, özümü də bu dövlətin yüksək iqtisadçı kadrı kimi görürəm.*
*2. Dərsliklərlə ciddi məşğul olmaq, "Abituriyent" jurnalını müntəzəm izləmək, test bankındakı suallarla özünü yoxlamaq.*

---



## HACIYEV SEYMUR AĞAMURAD OĞLU

630.446 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Sumqayıt Özəl türk liseyinin məzunudur.
Atası işləmir.
Anası evdar qadındır.

*1. XXI əsr kompüter əsridir. Müasir texnologiyalar sahəsində kompüterin aparıcı rolu məni bu ixtisası seçməyə vadar etdi. Mən bu ixtisasın gələcək perspektivini yüksək qiymətləndirirəm.*
*2. "Abituriyent" jurnalının faydalılığını layiqincə dəyərləndirsinlər. Qəbula hazırlığın bütün yükünü 11-ci sinfə saxlamasınlar. 5-ci sinifdən başlayaraq müntəzəm hazırlaşsınlar. 11-ci sinifdə isə hazırlıqlarını daha da artırsınlar. Bir də ki, bacardıqları qədər sınaq imtahanına çox getsinlər.*

---



## SEYİDOV MURAD MİRYASİN OĞLU

630.358 balla Azərbaycan Dövlət Neft Akademiyasının faydalı qazıntı yataqlarının işlənməsi ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası "Baku Steel Company"-də Əmək Təhlükəsizliyi şöbəsinin rəisidir.
Anası Bakı şəhəri 158 saylı orta məktəbdə müəllimdir.

*1. Dövlət rəhbərlərimizin neft-qaz sənayesi sektorunun inkişafına qayğısı bu sahədə böyük perspektivlər yaradır və bu da məndə həmin sahəyə böyük maraq yaradıb.*
*2. Dərslərə böyük məsuliyyətlə yanaşmaq lazımdır. Müvəffəqiyyətin ən böyük amili odur.*

---



## İMANOVA ŞƏFA MEHDİ QIZI

628.750 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 199 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri, Baş İstehsalat Qaz İdarəsində texniki şöbənin rəisidir.
Anası Barmek Elektrik şəbəkəsi MMC-də texnikdir.

*1. İqtisadiyyata olan marağım məni bu ixtisası seçməyə sövq etdi. Hələlik gələcək planlarım haqqında qəti qərara gəlməmişəm.*
*2. Dərslərinə diqqətli olsunlar.Həvəslə çalışsınlar. Arzu etdikləri ixtisasa sənəd versinlər. Onda qəbula hazırlaşmaq daha asan və maraqlı olar.*

---



## İMANOV NİCAT ŞÜKÜR OĞLU

627.233 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 147 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 4 saylı uşaq poliklinikasında tibb bacısıdır.

*1. Mən bu ixtisası seçdim ki, həyatda öz arzu və istəyimə uyğun yer tuta bilim. Gələcəkdə özümü biznes sahəsində lazımlı bir insan kimi görmək istərdim.*
*2. Dərs materiallarını dərindən dərk etməklə mənimsəmək lazımdır.*

---



## ABİYEV ELMAN FƏTƏLİ OĞLU

626.929 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 249 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası evdar qadındır.

*1. Gələcəyimi yalnız bu ixtisas sahəsində işləməkdə görürəm.*
*2. Qəbul imtahanlarına dərslikləri ciddi oxumaqla və "Abituriyent" jurnalından istifadə etməklə hazırlaşmaq lazımdır. Nəzəri-məntiqi məsələlərə daha çox üstünlük vemək gərəkdir.*



## ABDULLAYEV ELVİN ÇİNGİZ OĞLU

626.250 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 289 saylı orta məktəb- "Zəngi" liseyinin məzunudur.
Atası Dövlət Gömrük Komitəsinin statistika şöbəsində inspektordur.
Anası Bakı şəhəri 238 saylı orta məktəbdə müəllimdir.

*1. Proqramist olmaq istəyirəm. Riyaziyyat elmindən müasir həyatın hər bir sahəsində istifadə olunur. Bu səbəbdən də tətbiqi riyaziyyata üstünlük verdim.*
*2. Sakit otaq və kitablar. Qəbula hazırlaşanlar üçün ən ümdə, ən vacib vasitələr bunlar olmalıdır.*



## ASLANOV CEYHUN YUSİF OĞLU

626.179 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 135 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 135 saylı orta məktəbdə müəllimdir.

*1. Texniki fənlərə çox böyük marağım var.*
*2. İmtahanlara yorulmadan, səylə, əzmlə hazırlaşmaq lazımdır.*



## DAŞDƏMİRLİ FƏRİD SƏMİD OĞLU

626.161 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Qobustan rayonu A.O.Çernyayevski adına Mərəzə qəsəbə orta məktəbinin məzunudur.
Atası Qobustan rayonu A. O. Şernyayevksi adına mərkəzi qəsəbə orta məktəbində müəllimdir.
Anası Qobustan rayonu A. O. Şernyayevksi adına mərkəzi qəsəbə orta məktəbində müəllimdir.

*1. Müasir dövrdə elmi-texniki tərəqqinin belə yüksək səviyyəsi riyaziyyat elminin və onun tətbiqinin nəticəsində mümkün olmuşdur.*
*2. Yüksək nəticə əldə etmək üçün vaxt itirmədən çalışmaq, dərsliklərdən, "Abituriyent" jurnalının buraxılışlarından istifadə etmək lazımdır.*



## ƏLİYEV SAKİT AKİF OĞLU

624.571 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 297 saylı orta məktəbin məzunudur.
Atası Biləcəri lokomotiv deposunda maşinistdir.
Anası Bakı şəhəri 2 saylı dəmiryol xəstəxanasında tibb bacısıdır.

*1. Bu ixtisası özüm də istəyirdim, valideynlərim də məsləhət görürdülər.*
*2. Hər şey onların özlərindən asılıdır.*



## ƏLİYEV ALİK ELFAİL OĞLU

623.768 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Gəncə şəhəri Kəpəz rayonu İ.Nəsimi adına 44 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Çoxsahəli və düşündürücü olduğu üçün həyatımı riyaziyyat elmi ilə bağlamağı qərara aldım. Mən bu sahədə xalqımıza gərəkli bir mütəxəssis olmaq istəyirəm.*
*2. "Abituriyent" jurnalının bələdçiliyi ilə gələcək imtahanlara daha yaxşı hazırlaşsınlar.*



## ƏLİYEV ANAR RAFİQ OĞLU

622.464 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 8 saylı orta məktəbin məzunudur.
Atası Sumqayıt şəhəri Azer Boru zavodunda mühəndisdir.
Anası Sumqayıt şəhəri 8 saylı orta məktəbdə müəllimdir.

*1. Tətbiqi riyaziyyat indiki zamanda çox perspektivli bir ixtisasdır. İnanıram ki, ona mükəmməl yiyələnib Vətənə layiqli bir peşə sahibi olacağam.*
*2. İnamla, həvəslə çalışsınlar, heç vaxt ümidsizliyə qapılmasınlar. Materialı dərindən, xırdalıqlarına qədər qavrasınlar. Müəllimlərlə məsləhətləşsinlər. Onlara böyük uğurlar arzulayıram.*



## ƏLİLİ AZƏR MƏHƏMMƏD OĞLU

621.608 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
İsmayıllı rayonu Lahıc qəsəbə orta məktəbinin məzunudur.
Atası İsmayıllı rayonu Lahic qəsəbə orta məktəbində müəllimdir.
Anası İsmayıllı rayonu Lahic xalça istehsalat müəssisəsində işləyir.

*1. Müasir dövrümüzü informatika və kompüter texnologiyaları olmadan təsəvvür etmək olmaz. Məhz ona görə də bu ixtisası seçdim.*
*2. Bütün fənlərə ciddi hazırlaşmaq, "Abituriyent"in xüsusi buraxılışlarından istifadə etmək lazımdır.*



## MƏMMƏDOV AQİL RAFİQ OĞLU

621.196 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Şəki şəhəri 7 saylı orta məktəbin məzunudur.
Atası Bakı Geofizika İnstitutunun Şəki filialında mühəndisdir.
Anası Şəki mərkəzi uşaq poliklinikasında həkimdir.



## SƏFƏROV RƏŞİD ASLAN OĞLU

620.446 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.
Atası Dəmiryol rabitə idarəsində elektrik mühəndisidir.
Anası işləmir.

*1. İqtisadiyyata böyük marağım var. Yaxşı iqtisadçı olub Vətənimə xidmət göstərmək istəyirəm.*
*2. Təkcə yuxarı siniflərdə yox, aşağı siniflərdə də yaxşı oxusunlar.*



## ƏSGƏROV ANAR GÜLMƏMMƏD OĞLU

620.446 balla Sumqayıt Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 17 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt Dövlət Universitetində kitabxanaçıdır.

*1. Bu ixtisasa uşaqlıqdan böyük marağım var.*
*2. Qəbula hazırlaşarkən "Abituriyent" jurnalının buraxılışları olan test toplularından istifadə etsinlər. Çünki onlar imtahana hazırlaşmağa çox kömək edir.*



## ABBASZADƏ TALIB ALLAHVERDİ OĞLU

619.643 balla Azərbaycan Dövlət Neft Akademiyasının kompüter riyaziyyatı ixtisasına qəbul olub.
Lənkəran şəhəri Liman şəhər 1 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Mən bu ixtisası kompüterə həvəs göstərdiyimə görə seçmişəm. Əsas məqsədim bu ixtisası əla qiymətlərlə bitirib, magistraturaya qəbul olmaqdır. Mən gələcəkdə ali təhsilli kompüter mütəxəssisi olmaq istəyirəm və buna nail olmaq üçün var gücümlə çalışacağam.*
*2. Məktəb proqramları səviyyəsindəki dərsləri mükəmməl mənimsəsinlər və "Abituriyent" jurnalındakı materiallardan səmərəli faydalansınlar. Əldə etdikləri bilikləri sınaq imtahanlarında yoxlasınlar.*



## ƏLİYEV FƏRİD RUSLAN OĞLU

618.875 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 245 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası Bakı şəhəri 245 saylı orta məktəbdə müəllimdir.

*1. Neft sənayesi ölkəmizin aparıcı və inkişafda olan sahələrindən biridir və mən də gələcəkdə bu sahədə öz sözümü demək istərdim.*
*2. Səbirli, təmkinli olsunlar, çox oxumaqdan, öyrənməkdən yorulmasınlar. İnadla hazırlaşan abituriyent öz məqsədinə mütləq çatacaq.*



## ƏSGƏRZADƏ ELNUR ARZUMAN OĞLU

618.625 balla Azərbaycan Dövlət Neft Akademiyasının faydalı qazıntı yataqlarının işlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Qaradağ rayonu 273 saylı orta məktəbin məzunudur.
Atası Qaradağ rayonu Bos-şelf istehsalat birliyində qaynaqçıdır.
Anası Qaradağ rayonu Tamponaj idarəsində işləyir.

*1. Mənim babam, nənəm, anam Dövlət Neft Akademiyasını bitiriblər. Bu ixtisası seçməyimdə onların məndə oyatdığı maraq böyük rol oynayıb. Gələcəkdə kamil bir mühəndis olmaq və işlərimlə özümdən sonra bir iz qoymaq istəyirəm.*
*2. İşlərini düzgün planlaşdıra bilsələr, o zaman onların başlarında qatışıqlıq olmayacaq və onlar məqsədlərinə daha tez yaxınlaşacaqlar.*



## RZAYEV ŞƏHRİYAR BABƏK OĞLU

618.571 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Şəki şəhəri 18 saylı orta məktəbin məzunudur.
Atası Şəki şəhəri 18 saylı orta məktəbdə mebel texnoloqudur.
Anası Şəki mərkəzi rayon xəstəxanasında tibb bacısıdır.

*1. Bu gün Azərbaycanda hansı ixtisaslara daha çox ehtiyac varsa, onlara yiyələnmək lazımdır. Həyatda özümü ixtisasını yaxşı bilən, peşəsinə sadiq bir mütəxəssis kimi görmək istərdim. Vətənimə layiqli övlad olmaq üçün əlimdən gələn hər şeyi edəcəyəm.*
*2. Heç bir zaman ümudsizliyə qapılmasınlar, məqsədlərini düzgün müəyyənləşdirsinlər və qarşılarına çıxan çətinliklərdən qorxmasınlar. Məktəbdə oxuduqları müddətdə müəllimlərin tapşırıqlarını qulaqardına vurmasalar, hər şey yaxşı olar. Öz təcrübəmdən bilirəm ki, yalnız repititorların köməyi kifayət deyil.*



## RAMAZANOV FUAD HƏBİB OĞLU

617.858 balla Azərbaycan Dövlət Neft Akademiyasının faydalı qazıntı yataqlarının işlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 104 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 11 saylı poliklinikada tibb bacısıdır.

*1. Uşaqlıqdan arzum neftçi olmaqdır. Bu ixtisasa yiyələnməklə özümü təcrübəli neft mühəndisi kimi təsəvvür edirəm. Gələcək həyat planlarım ancaq təcrübəli kadr kimi formalaşmağa yönələcək.*
*2. Hesab edirəm ki, gərək hər bir abituriyent ilk növbədə özü-özündə məsuliyyət hiss etsin. Hər bir mövzunu öyrənəndə əzbərçilik qabiliyyətini deyil, yaradıcılıq qabiliyyətini işə salsın. Abituriyent özünü imtahana psixoloji cəhətdən də hazırlamağa diqqət yetirməlidir.*



## ALIYEVA LEYLA NİZAMİ QIZI

615.643 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 70 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Sabunçu rayonu DÜTX-nın baş inspektorudur.
Anası A.Heydərov adına hospitalda tibb bacısıdır.

*1. Uşaqlıqdan riyaziyyat və fizikaya olan marağım məni bu ixtisası seçməyə sövq etdi.*
*2. Məktəb proqramını mükəmməl mənimsəsinlər, müəllim və keçmiş abituriyentlərin tövsiyə və məsləhətlərindən istifadə etsinlər, "Abituriyent" jurnalını mütəmadi olaraq izləsinlər.*



## HACIYEV ANAR NAMİQ OĞLU

615.304 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 164 saylı orta məktəbin məzunudur.
Atası ADİU-də müəllimdir.
Anası ADPU-də müəllimdir.

*1. Hansı ixtisası seçmək əsas deyil, əsas o ixtisas üzrə proffesional kadr olmaqdır. Mən ixtisas seçimini məhz bu mülahizə ilə etmişəm. Bu ixtisasa yiyələnməklə mən cəmiyyətdə layiqli yer tutmaq arzusundayam.*
*2. Əziyyət çəksəniz, bəhrəsini mütləq görəcəksiniz. Dərslərinizə məsuliyyətlə yanaşın.*



## QASIMOVA RƏQSANƏ ƏZİM QIZI

615.250 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 257 saylı orta məktəbin məzunudur.
Atası fəhlədir.
Anası işləmir.

*1. Riyaziyyat mənim ən çox sevdiyim fənn olduğuna görə bu ixtisası seçmişəm. Gələcəkdə riyaziyyatın bütün dərinliklərini öyrənib biliklərimi tətbiq etməyə çalışacağam.*
*2. Gələcək abituriyentlərə öz dərslərinə ciddi yanaşmağı, biliklərini daim artırmağı məsləhət görürəm. Onlar dərslikləri yaxşı öyrənməklə yanaşı, "Abituriyent" jurnalının ayrı-ayrı saylarından istifadə edib gələcəkdə gözəl nəticələr əldə edə bilərlər.*



## PAŞAYEVA BAHAR ƏDALƏT QIZI

615.179 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 291 saylı orta məktəbin (ekoloji lisey) məzunudur.
Atası Elmlər Akademiyası Kibernetika İnstitutunda laboratoriya müdiridir.
Anası Azərbaycan Tibb Universitetinin nevrologiya kafedrasının assistentidir.

*1. Uşaqlıqdan bu ixtisasa həvəsim var. İstəyirəm gələcəkdə əhəmiyyətli proqramlar tərtib edim, yaxşı bir mütəxəssis olum.*
*2. Yalnız "Abituriyent" jurnalında verilən testləri həll etmək kifayət deyil. İldən ilə proqramlar dəyişir. Ümumiyyətlə, bal "dalınca qaçmaq" lazım deyil. Əsas məsələ bilik əldə etməkdir, onda bal öz-özünə yüksək olacaq.*



## MƏMMƏDOV SAHİL SAHİB OĞLU

614.733 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Ucar rayonu Qazıqumlaq kənd 2 saylı orta məktəbinin məzunudur.
Atası Ucar RİHB-nın Qazıqumlaq və Məlikballı kəndləri üzrə nümayəndənin müavinidir.
Anası Ucar rayonu Qazıqumlaq kənd 2 saylı orta məktəbində müəllimdir.

*1. Ölkədə aparılan neft strategiyasını tamamilə bəyənir və gələcəkdə bu strategiyanın həyata keçirilməsində yaxından iştirak etmək istəyirəm.*
*2. Fənlər arasında heç bir fərq qoymadan orta məktəb proqramını tam mənimsəsinlər.*



## HÜSEYNOVA İNARƏ ALİK QIZI

614.733 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 132 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Gələcək həyat planları haqqında danışmaq, məncə, hələ tezdir. Bu ixtisası isə çox perspektivli olduğu üçün seçmişəm. İqtisadiyyat çox maraqlı və lazımlı sahədir və burada yaxşı mütəxəssislərə həmişə ehtiyac var. Ümid edirəm ki, mən də yaxşı mütəxəssis ola biləcəm.*
*2. İmtahanlara yalnız imtahan xatirinə son 1-2 ildə deyil, bilik və savad naminə 11 il ərzində hazırlaşsınlar və özlərinə inansınlar.*



## BƏKİROVA AYTƏN ŞAMİL QIZI

613.339 balla Bakı Dövlət Universitetinin mexanika ixtisasına qəbul olub.
Oğuz rayonu 1 saylı orta məktəbin məzunudur.
Atası Oğuz şəhəri 1 saylı orta məktəbdə müəllimdir.
Anası Oğuz şəhəri 2 saylı orta məktəbdə müəllimdir.

*1. Riyaziyyata olan marağım mənim anamın seçdiyi yolla getməyimə səbəb oldu.*
*2. Orta məktəb dərslərinə ciddi surətdə hazırlaşmağı, müəllimlərə diqqətlə qulaq asmağı tövsiyə edirəm.*



## ƏLİYEV ELNUR ZEYNAL OĞLU

613.233 balla "Qafqaz" Universitetinin avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Quba filialının məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisasa qəbul olmaq mənim ən yüksək arzumdur. Ona yiyələnməklə inanıram ki, gələcəkdə ürəyim istəyən həyat tərzi yaşayacağam. Universiteti bitirdikdən sonra elmi işlə məşğul olmaq istəyirəm.*
*2. "Abituriyent" jurnalının buraxılışları üzrə hazırlığa xüsusi fikir versinlər. TQDK-nın keçirdiyi sınaq imtahanlarında iştirak etsinlər ki, imtahanın nə olduğunu görsünlər.*



## ƏHƏDOVA ZƏRİFƏ MƏMMƏDAĞA QIZI

612.858 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Salyan rayonu 4 saylı orta məktəbin məzunudur.
Atası Salyan şəhəri 4 saylı orta məktəbdə müəllimdir.
Anası Salyan şəhəri 4 saylı orta məktəbdə müəllimdir.

*1. Aşağı siniflərdən riyaziyyata olan böyük həvəsim məni riyaziyyat müəllimi olmaq qərarına gətirib çıxardı. Gələcəkdə özümü yeni nəslə təlim-tərbiyə verən və onlara bu gözəl fənni sevdirən ideal bir müəllim kimi görmək istərdim.*
*2. Aşağı siniflərdən bütün fənlərə yaxşı hazırlaşsalar, dörd əsas fənnə isə xüsusi diqqət yetirsələr, yaxşı nəticələr əldə edə bilərlər.*



## BƏHRƏMOV YUSİF MƏHƏRRƏM OĞLU

612.411 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.
Atası işləmir.
Anası Naxçıvan şəhəri14 saylı orta məktəbdə müəllimdir.

*1. Ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsində müəyyən rol oynamaq istəyirəm.*
*2. Planlı və müntəzəm şəkildə çalışsınlar, sınaq imtahanlarında mütəmadi iştirak etsinlər, İnternetdən düzgün faydalansınlar.*



## İSRAFİLOV AZƏR NÜSRƏT OĞLU

612.321 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Şəki şəhəri 7 saylı orta məktəbin məzunudur.
Atası Şəki Su Təsərrüfatı və Kanalizasiya Qurğuları İdarəsində baş mühəndisdir.
Anası Şəki Su Təsərrüfatı və Kanalizasiya Qurğuları İdarəsində mühasibdir.

*1. Bu ixtisasa çox böyük marağım var. Çünki indiki əsr neft əsridir. Gələcəkdə yüksək ixtisaslı mühəndis-iqtisadçı olub xalqıma xidmət etmək istəyirəm.*
*2. "Abituriyent" jurnalının bütün sayları ilə tanış olsunlar. Qəbula dərsliklərlə bərabər, bu jurnallarda çap olunan materiallar əsasında hazırlaşsınlar.*



## SƏFXANOVA MEHRİ GÜNDÜZ QIZI

611.536 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Ucar rayonu Nizami adına 3 saylı orta məktəbin məzunudur.
Atası Ucar rayon Dəmiryolu stansiyasında mexanikdir.
Anası Ucar rayon xəstəxanasında tibb bacısıdır.

*1. Riyaziyyat fənnini və müəllimliyi çox sevirəm. Təhsilimi davam etdirmək və magistraturaya qəbul olmaq fikrindəyəm.*
*2. İxtisas seçimlərini əvvəlcədən dəqiqləşdirsinlər və öyrənəcəkləri hər bir fənni mükəmməl və sistemli şəkildə mənimsəsinlər.*



## NEMƏTLİ KAMİL RAFİQ OĞLU

611.233 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Sumqayıt Özəl türk liseyinin məzunudur.
Atası Hacı Zeynalabdin qəsəbə işıq idarəsində növbətçi mühəndisdir.
Anası Sumqayıt şəhəri 19 saylı orta məktəbdə müəllimdir.

*1. Etiraf edim ki, mən əvvəlcə Türkiyə universitetlərinə imtahan vermiş və ora qəbul olmuşam. Ona görə gələcəyimi qəbul olduğum hər iki ixtisasla əlaqəli təsəvvür edirəm. Ancaq Azərbaycanda daxil olduğum fakültənin üstün cəhəti ondadır ki, gələcəkdə bütün texnologiyalar kompüter üzərində qurulacaq.*
*2. İmkan daxilində repititor - müəllim yanına gedin. Günə ən azı 4 saat çalışın. Sınaq imtahanlarında iştirak edin. Fasilələrlə oxuyun, bezməyəsiniz deyə.*



## SƏMƏDOVA KƏMALƏ SIRAC QIZI

611.108 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
İsmayıllı rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası İsmayıllı rayonu mərkəzi xəstəxanasında tibb bacısıdır.

*1. Aşağı siniflərdə oxuyan vaxtdan mənim riyaziyyata çox böyük marağım olub. Buna görə də ixtisas seçəndə tərəddüd etmədən riyaziyyatçı olacağıma qərar verdim. Mən riyaziyyatı daha dərindən öyrənmək, universiteti bitirdikdən sonra dərs dediyim hər bir kəsdə riyaziyyata maraq oyatmaq istərdim.*
*2. İmtahana səylə, ciddi hazırlaşsınlar. Çoxlu kitab oxusunlar və öyrəndiklərini test həll etməklə yoxlasınlar. Əzbərçiliyə yol verməsinlər. Belə olduqda, onlar qarşılarına qoyduqları məqsədə çatacaqlar.*



## İLYASOV RUSLAN ƏLİ OĞLU

610.983 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Yevlax şəhəri 3 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisası perspektivli olduğu üçün seçmişəm. Gələcək həyatda özümü ixtisasını sevən gərəkli bir mütəxəssis kimi təsəvvür edirəm.*
*2. Dərslərinə ciddi fikir versinlər, daha dərin biliyə malik olmağa çalışsınlar, əsas məşğuliyyətləri dərs oxumaq olsun.*



## NƏZƏRLİ ALİM SİRAC OĞLU

610.358 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyi Ağdaş filialının məzunudur.
Atası İsmayıllı rayonu Telekommunikasiya şöbəsində mühəndisdir.
Anası işləmir.



## XANMƏMMƏDOV RƏŞAD SABİR OĞLU

609.893 balla Azərbaycan Dövlət Neft Akademiyasının faydalı qazıntı yataqlarının geologiyası və kəşfiyyatı ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 144 saylı orta məktəbin məzunudur.
Atası Qarask əməliyyat şirkətində işləyir.
Anası Bakı şəhəri 21 saylı uşaq poliknikasında baş həkimin müalicə işləri üzrə müavinidir.

*1. Azərbaycanda neft sənayesinin böyük potensialı olduğu üçün bu ixtisası seçmişəm.*
*2. Keyfiyyətlə çalışmaq və məsuliyyətli olmaq.*



## HÜSEYNOVA XƏYALƏ FİRDOVSİ QIZI

609.858 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 289 saylı orta məktəb- "Zəngi" liseyinin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 32 saylı BSX-da həkimdir.

*1. Gələcək kompüter əsri olacaq . Özümü gələcəkdə elmə həsr etmək və təhsilimi xaricdə davam etdirmək istəyirəm.*
*2. Qəbula 1-2 il müddətində deyil, heç olmasa V sinifdən hazırlaşmağa başlasınlar.*



## İBRAHİMOV RAMİL MÜSLÜM OĞLU

609.661 balla Azərbaycan Dövlət Neft Akademiyasının avtomatika və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 275 saylı orta məktəbin məzunudur.
Atası "Bakı Poladtökmə" MMC-ində baş mühasibdir.
Anası "Bakı YGES" MMC-nin "Abşeron YGES" rayonunda aparıcı mühəndisdir.

*1. Ölkəmizin tərəqqisi naminə yuksək ixtisaslı mütəxəssis olmaq və gələcəkdə istehsalat proseslərinin modelləşdirilməsi sahəsində çalışmaq istərdim.*
*2. Özlərinə qarşı çox tələbkar olsunlar.*



## ƏLİYEV GÜNDÜZ ƏVƏZAĞA OĞLU

609.108 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Cəlilabad rayonu 8 saylı orta məktəbin məzunudur.
Atası Cəlilabad şəhəri 8 saylı orta məktəbdə müəllimdir.
Anası Cəlilabad şəhəri sosial təminat idarəsində texnoloq işləyir.

*1. Atamın riyaziyyat müəllimi, qardaşımın fizika-riyaziyyat elmləri namizədi olması məndə bu ixtisasa həvəs yaratdı.*
*2. İmtahanlara tam qüvvə ilə hazırlaşmaq, heç bir təsadüfə arxayın olmamaq.*



## MƏHƏRRƏMOV RAMAL AQİL OĞLU

609.054 balla Azərbaycan Dövlət Neft Akademiyasının avtomatika və idarəetmə ixtisasına qəbul olub.
Goranboy rayonu Səfıkürd kənd orta məktəbinin məzunudur.
Atası işləmir.
Anası Goranboy rayonu Səfıkürd kənd xəstəxanasında tibb bacısıdır.

*1. Azərbaycan neft ölkəsidir, bütün dünyada nefti ilə tanınır, neft sahəsində böyük uğurlar əldə edir. Bu ixtisasa yiyələnməklə bu sahədə bilikli kadr kimi yer tutmaq istəyirəm.*
*2. Məktəb proqramına dərindən yiyələnib, öyrəndiklərini testə tətbiq etsinlər.*



## DAVUDOV DAVUD SƏRRAF OĞLU

608.464 balla Azərbaycan Dövlət Neft Akademiyasının kompüter riyaziyyatı ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Ağdaş filialının məzunudur.
Atası Göyçay rayonu mərkəzi xəstəxanasında həkimdir.
Anası Göyçay rayonu mərkəzi xəstəxanasında həkimdir.

*1. Dəqiq elmlərə böyük həvəsim olduğundan bu ixtisası seçmişəm. Düşünürəm ki, bu ixtisasa yiyələnməklə gələcəkdə Vətənim üçün, xalqım üçün layiqli övlad ola bilərəm.*
*2. Ardıcıl surətdə proqram əsasında hazırlaşsınlar. Özü də yalnız imtahan üçün yox, əsl bilik sahibi olmaq üçün oxusunlar.*



## HƏSƏNOVA VÜSALƏ MİRHƏBİB QIZI

608.446 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 4 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Orta məktəbdə oxuduğum vaxtdan riyaziyyat fənninə çox böyük həvəsim olub və onu həmişə mükəmməl mənimsəməyə cəhd etmişəm. Gələcəkdə özümü peşəsini sevən bir müəllim kimi görmək istərdim. Şagirdlərimə yaxşı bilik verməyi və onlarda da bu sahəyə həvəs oyatmağı arzulayıram.*
*2. Orta məktəbdə oxuduqları vaxtdan seçdikləri ixtisas üzrə fənləri əla öyrənməklə yanaşı, digər fənləri də yaxşı oxumağı tövsiyə edirəm.*



## KAZIMLI ELÇİN TAHİR OĞLU

607.929 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Əli-Bayramlı şəhəri N.Quliyev adına 9 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Texniki, dəqiq fənləri çox sevirəm. Özümü yüksək biliyə malik neft mütəxəssisi kimi təsəvvür edirəm.*
*2. Qəbulda yeganə meyar bilik olduğu üçün onlara çox çalışmağı tövsiyə edirəm.*



## QƏDİROVA AYGÜN RƏCƏB QIZI

606.196 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Zaqatala rayonu 1 saylı orta məktəbin məzunudur.
Atası Zaqatala rayon polis şöbəsinin sahə inspektorudur.
Anası evdar qadındır.

*1. Arzum gələcəkdə əsil müəllim olmaq və bu sənətdə ucalmaqdır.*
*2. Yorulmadan oxusunlar, ən əsası isə özlərinə söz versinlər ki, mən tələbə adını mütləq qazanacağam.*



## AXUNDOV CƏFƏR RÜFƏT OĞLU

605.893 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 23 saylı orta məktəbin məzunudur.
Atası Respublika Nevroloji Dispanserində həkimdir.
Anası Respublika İncəsənət Gimnaziyasında müəllimdir.

*1. Proqramçı ixtisası bu gün bütün sahələrdə lazımdır. Gələcəkdə öz şəxsi kampaniyamı yaratmaq istəyirəm.*
*2. Qarşılarına məqsəd qoysunlar və bu məqsəd uğrunda heç bir çətinlikdən qorxmayaraq çalışsınlar.*



## BABAYEVA LALƏ HÜSEYN QIZI

605.750 balla Naxçıvan Dövlət Universitetinin riyaziyyat və informatika ixtisasına qəbul olub.
Naxçıvan şəhəri C.Naxçıvanski adına 11 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Əsrimiz kompüter əsri olduğu üçün bu ixtisası seçmişəm.*
*2. Proqram materiallarını yaxşı mənimsəsinlər və imtahanlara ciddi hazırlaşsınlar.*



## ƏLİYEVA NİGAR TAHİR QIZI

605.375 balla Azərbaycan Dövlət Neft Akademiyasının tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 276 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri 2 saylı ağciyər xəstəlikləri dispanserində həkimdir.
Anası Bakı şəhəri 39 saylı orta məktəbdə müəllimdir.

*1. Kompütere olan marağım mənim bu sənəti seçməyimə səbəb olub.*
*2. Səylə çalışmaq, "Abituriyent"in bütün saylarını oxumaq və sınaq imtahanlarında iştirak etmək.*



## RƏHİMOV RƏHİM ZAHİD OĞLU

605.250 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Gəncə şəhəri Nizami rayonu M.Qasımov adına 23 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Gəncə şəhər tibb məktəbində müəllimdir.

*1. Bu ixtisasa böyük həvəsim olduğuna və bu sahədə iş yeri tapmaq şansı daha çox olduğuna görə bu peşəni seçmişəm. Gələcəyimi öz ixtisasına yaxşı yiyələnmiş bir mütəxəssis kimi görürəm. Xaricdə və ya xarici firmaların birində ixtisasıma uyğun bir peşədə işləmək istərdim.*
*2. Hazırlıq kursuna və ya repititor yanına getsələr belə, məktəb dərsliklərinə ciddi yanaşsınlar. Bunların biri digərinə mane olmamalıdır.*



## NAĞIYEV QURBAN XOSROV OĞLU

604.911 balla Bakı Dövlət Universitetinin fizika ixtisasına qəbul olub.
Neftçala rayonu Xıllı qəsəbə 1 saylı orta məktəbin məzunudur.
Atası "Kalmaz" dərin quyu qazma idarəsində qazma köməkçisidir.
Anası işləmir.

*1. Məktəbdə oxuduğum vaxtdan məndə fizika fənninə böyük maraq oyanıb və mən bu elmi daha dərindən öyrənməyə çalışmışam. Mən gələcəkdə məşhur fizik olub Azərbaycanı bütün dünyada tanıtmaq istərdim.*
*2. Müəllimlərin bütün tapşırıqlarını yerinə yetirsinlər. "Abituriyent" jurnalının bütün saylarını alıb, orada olan bütün test tapşırıqlarını həll etsinlər.*



## NİFTƏLİYEV ZÖHRAB FAİZ OĞLU

*604.464 balla "Qafqaz" Universitetinin avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı ixtisasına qəbul olub.*
*Bakı şəhəri Nizami rayonu "Dədə Qorqud" Bakı özəl türk kompüter liseyinin məzunudur.*
*Atası işləmir.*
*Anası Sumqayıt şəhəri şəxsi dərzi sexində dərzidir.*

*1. Əvvəla, bu ixtisasa çox böyük həvəsim var. Bundan əlavə hazırkı dövrdə kompüter texnologiyaları üzrə mütəxəssislərə böyük tələbat var. Gələcəkdə özümü proqramist kimi görmək istəyirəm. Başqa ölkələrdə də təhsil almağı düşünürəm. Amma harda olursam-olum yenə də Vətənim üçün çalışacağam.*
*2. İlk əvvəl hər bir şagird belə fikirləşməməlidir ki, qəbula 11-ci sinifdən hazırlaşacam. Gündəlik dərslərini lazımı səviyyədə yerinə yetirən şagird üçün qəbula hazırlaşmaq bir o qədər də çətin olmur. Belə halda 11-ci sinifdə yalnız təkrara ehtiyac qalır. Əgər şagird gündəlik dərslərinə çalışmayıb hər şeyi 11-ci sinfə saxlayarsa, onun üçün 1 il vaxt yüksək nəticə əldə etmək üçün yetərli olmaya bilər.*



## QULİYEVA ŞƏFA FİRUDİN QIZI

603.839 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Əli Bayramlı şəhəri 13 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Respublikası Nazirlər Kabinetində böyük referentdir.
Anası Nizami rayon Əhalinin Sosial Müdafiə Mərkəzində müfəttişdir.

*1. Bu ixtisası seçməkdə əsas məqsədim gələcəkdə asanlıqla işə düzəlməkdir.*
*2. Qəbul imtahanlarına ciddi hazırlaşsınlar və tez-tez sınaq imtahanlarında iştirak etsinlər. Tədris proqramını tam bilsələr, qəbul imtahanında heç bir çətinlik çəkməyəcəklər.*



## MƏMMƏDOVA LEYLA ŞAHİN QIZI

602.071 balla "Qafqaz" Universitetinin avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı ixtisasına qəbul olub.
Ağdaş rayonu Nizami adına 2 saylı orta məktəbin məzunudur.
Atası dülgərdir.
Anası işləmir.

*1. Kompüterdə işləməyi çox sevdiyim üçün bu ixtisası seçmişəm.*
*2. Səbirli olsunlar, davamlı və diqqətli çalışsınlar. Bütün mövzuları mənimsəsinlər.*



## SAADOVA AYGÜN VƏLYƏDDİN QIZI

601.893 balla Bakı Dövlət Universitetinin informatika ixtisasına qəbul olub.
Mingəçevir şəhəri 16 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Mingəçevir şəhəri RTM zavodunda mühasibdir.

*1. Yeni əsr kompüter əsri olduğu üçün, üstəlik də bu sahəyə həvəsim olduğu üçün informatika ixtisasını seçmişəm. İnanıram ki, gələcəkdə mənim də həyatda layiqli yerim olacaq.*
*2. Həvəslə oxumaq, öyrənmək, olimpiadalara qatılmaq, sınaq imtahanlarında iştirak etmək, vaxtdan səmərəli istifadə etmək, müəllimlərin tapşırıqlarını tam yerinə yetirmək.*



## AXUNDOV ELXAN MAİS OĞLU

600.983 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Əli Bayramlı iqtisadiyyat filialının məzunudur.
Atası Azərbaycan Dövlət Milli Bankında kompüter mühəndisidir.
Anası işləmir.

*1. Bu ixtisas həm mənim, həm də valideynlərimin istəyinə uyğundur. Gələcəkdə bu ixtisas üzrə magistratura və aspiranturada oxumaq fikrindəyəm.*
*2. Cürbəcür əyləncə vasitələrindən uzaq olub, bilik qazanmağa, oxumağa üstünlük versinlər.*



## PADAROV MƏSUD XƏLİL OĞLU

600.804 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Azərbaycan Dövlət Pedaqoji Universitetində dosentdir.
Anası Bakı şəhəri 133 saylı orta məktəbdə müəllimdir. .

*1. Azərbaycan neft ölkəsi olduğu üçün və inkişaf edən iqtisadiyyata malik olduğuna görə bu ixtisası seçmişəm.*
*2. İmtahanlara ciddi şəkildə hazırlaşsalar, il boyu proqramlı şəkildə oxusalar, bu, onlara yüksək bal yığmağa kömək edər.*



## ŞƏFİYEV ORXAN FİKRƏT OĞLU

600.750 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 72 saylı orta məktəbin məzunudur.
Atası Balaxanı neft-qaz idarəsində mühəndisdir.
Anası işləmir.

*1. Bu ixtisası seçməyim ona olan böyük həvəsim və gələcək həyat planlarımla bağlıdır.*
*2. Öz vaxtlarından çox səmərəli istifadə etsinlər. Əlavə dərsliklərdən də faydalansınlar. Ən başlıcası isə, oxuduqlarını dərindən mənimsəsinlər.*



## RƏCƏBOV VÜSAL ALI OĞLU

600.571 balla Azərbaycan Dövlət Neft Akademiyasının faydalı qazıntı yataqlarının işlənməsi ixtisasına qəbul olub.
Qazax rayonu M.Hüseynov adına şəhər orta internat məktəbinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Mühəndislik mənim ən çox bəyəndiyim ixtisasdır. Baxmayaraq ki, topladığım bal "tətbiqi riyaziyyat", "mühəndis iqtisadiyyatı və idarəetmə" kimi ixtisaslara qəbul olmağa da kifayət edərdi, ancaq mən birinci bu ixtisasa üstünlük vermişəm. Bu ixtisas üzrə hazırlanan kadrlar müasir dövrdə neft ölkəsi kimi tanınan respublikamıza çox lazımdır.*
*2. Aşağı siniflərdən daha yaxşı oxusunlar. Müəllimlərdən daima öyrənsinlər. Əks halda yüksək nəticə əldə etmək çətin olar.*



### VƏLİYEV HÜSEYN ƏLİHƏSƏN OĞLU

600.429 balla Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 69 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası "Azərneftyanacaq"İstehsalat Birliyində mühəndisdir.

*1. Riyaziyyat fənninə uşaqlıqdan böyük marağım var.*
*2. Çalışıb savadı, biliyi aşağı siniflərdən öyrənsinlər.*



### AĞAYEV ELDAR AYDIN OĞLU

600.393 balla Azərbaycan Dövlət Neft Akademiyasının informatika və hesablama texnikası ixtisasına qəbul olub.
Bakı şəhəri Əzizbəyov rayonu 149 saylı orta məktəbin məzunudur.
Atası "Azal" aviaşirkətində inzibatçıdır.
Anası Bakı şəhəri 29 saylı birləşmiş şəhər xəstəxanasında həkimdir.

*1. Bu ixtisasa mənim böyük həvəsim var. Gələcək həyatda özümü yüksək vəzifədə təsəvvür edirəm. Planlarım ali məktəbi müvəffəqiyyətlə bitirib magistraturaya daxil olmaqdır.*
*2. "Abituriyent" jurnalının bütün saylarını izləsinlər və buradakı elmi-metodiki materiallardan maksimum səmərililiklə istifadə etsinlər.*

# II QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### HÜSEYNOV ELÇİN NƏBİ OĞLU

687.411 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 159 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Nəqliyyat Departamentində tornaçıdır.
Anası işləmir.

*1. Mənim şəxsi keyfiyyətlərim bu ixtisasın tələblərinə cavab verdiyi üçün onu seçmişəm. İnanıram ki, həmin ixtisasa yiyələnməklə çox şeyə nail olacağam.*
*2. Qəbula hazırlaşmağı məcburi hal kimi yaşamasınlar.*



### RÜSTƏMOV VÜSAL İBRAHİM OĞLU

678.661 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisası çoxdan seçmişəm. Dünyada iqtisadiyyatın rolu böyükdür. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Bu ixtisasa yiyələnməklə mən ölkəmizin qüdrətlənməsinə kömək etmək istəyirəm.*
*2. Səbirli olsunlar, dərsliklərdən və "Abituriyent" jurnalından səmərəli istifadə etsinlər.*



### ƏLƏSGƏROV KAMİL KAMAL OĞLU

674.108 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 265 saylı orta məktəbin məzunudur.
Atası Bakı avtomobil sənayesi açıq tipli səhmdar cəmiyyətində ustadır.
Anası işləmir.

*1. Azərbaycanın inkişaf etmiş ölkələr sırasına qatılması üçün onun iqtisadiyyatını gücləndirmək lazımdır. Məhz bu işdə ölkəmə kömək üçün iqtisadçı olmaq istəyirəm.*
*2. Ucalmaq istəsən, bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat.*



## SADİQ RZA İSMAYIL OĞLU

671.071 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Azərbaycan Respublikası Nazirlər Kabinetində şöbə müdiridir.
Anası təqaüdçüdür.

*1. Ölkəmizin xarici ölkələrlə inkişaf etməkdə olan münasibətlərində yaxından iştirak etmək istəyirəm.*
*2. Yalnız müəllimlə hazırlığa ümid etməyib, gündəlik dərslərini də müntəzəm olaraq müstəqil şəkildə oxusunlar.*



## BAĞIŞOV CƏLAL ƏJDƏR OĞLU

668.750 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Cəlilabad rayonu 8 saylı orta məktəbin məzunudur.
Atası Əhalinin Sosial Müdafiə Mərkəzində baş inspektordur.
Anası Əhalinin Sosial Müdafiə Mərkəzində mühasibdir.

*1. İqtisadçı olmaq istəyim təsadüfi deyil, bu arzu məndə uşaqlıqdan oyanıb. Müasir elmi-texniki inqilab dövründə ABŞ, Kanada, Yaponiya kimi ölkələr durmadan inkişaf edir. Bu isə ilk növbədə ölkə iqtisadiyyatının inkişaf etməsi hesabınadır. İstərdim bizim ölkəmiz də qabaqcıl ölkələr səviyyəsinə qalxsın. Mən bunun üçün bacarığımı əsirgəməyəcəyəm.*
*2. Öz biliklərinə uyğun ixtisaslara qəbul olsunlar. Dərsliklərdən və "Abituriyent" jurnalından istifadə etsinlər. Gündəlik dərs rejimi düzəldib, ona əməl etsinlər.*



## MUSTAFAYEV ÇİNGİZ VİDADİ OĞLU

668.214 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası Milli Elmlər Akademiyasında İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiridir.
Anası Sumqayıt şəhəri 22 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisası seçməkdə məqsədim ilk növbədə Azərbaycanın iqtisadiyyatının möhkəmlənməsi üçün əlimdən gələni etməkdir. Ona yiyələnməklə iqtisadiyyat sahəsində yaxşı mütəxəssis olmağa çalışacağam.*
*2. Dözümlü, iradəli olmağı tövsiyə edirəm. İxtisas qrupuna aid fənlər üzərində səylə çalışmağı, onları dərindən öyrənməyi və təkrarlamağı məsləhət görürəm.*



## ƏHMƏDOV TURAL FƏRHAD OĞLU

666.608 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Respublika xəstəxanasında həkimdir.
Anası 5 saylı doğum evində həkimdir

*1. Mən həm də Türkiyənin Boğaziçi Universitetinə qəbul olmuşam. Belə seçim etdim ki, gələcəkdə təhsilimi Boğaziçi Univesitetində davam etdirim. Möhtərəm H. Əliyevin cənablarının belə bir sözü var : "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" Mən də yaxşı mütəxəssis olub ölkəmizin iqtisadiyyatını gücləndirmək istəyirəm.*
*2. İmtahanlardan qətiyyən qorxmaq lazım deyil. Hər şey özünüzə inamdan və çox çalışmaqdan asılıdır. Gərək insan qarşısına böyük məqsəd qoysun və onun gerçəkləşməsi üçün ardıcıl çalışsın. Onda insan hər şeyə nail olur.*



## ZƏRBƏLİYEV RÜFƏT TELMAN OĞLU

662.858 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 46 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 46 saylı məktəbdə müəllimdir.

*1. Mən Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrinin yaxşılaşmasında əlimdən gələni etmək üçün bu ixtisasa üstünlük vermişəm.*
*2. Bütün tədris materialını axırıncı 1 ilə saxlamasınlar. Yeməklərinə, sağlamlıqlarına fikir versinlər. Sağlam bədən, yaxşı müəllim və möhkəm iradə abituriyent üçün zəruridir.*



## YUSİFOV YUSİF AVAZ OĞLU

662.411 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Azərbaycan Respublikası Təhsil Nazirliyində aparıcı mütəxəssisdir.
Anası Bakı şəhəri 135 saylı orta məktəbdə müəllimdir.

*1. Azərbaycanın gələcəyini iqtisadiyyatı güclü inkişaf etmiş dövlət kimi görürəm və onun dünya iqtisadiyyatına inteqrasiyasının idarə olunmasında iştirak etmək istəyirəm.*
*2. Qəbula hazırlıq böyük işgüzarlıq və zəhmət tələb edir. Gələcək abituriyentlərə təmkinlə əziyyətə qatlaşmağı və inadla biliklərə yiyələnməyi məsləhət görürəm.*



## ƏLİYEV MEHDİ ƏLƏSGƏR OĞLU

659.358 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Mingəçevir filialının məzunudur.
Atası Samux rayonu telekommunikasiya qovşağının rəisidir.
Anası Samux rayonu mərkəzi xəstəxanasında şöbə müdiridir.

*1. Uşaqlıqdan iqtisadçı olmaq arzusundayam. Azərbaycanın inkişafında görkəmli bir iqtisadçı kimi rol oynamaq istəyirəm.*
*2. Oxuyub öyrəndiklərinin mahiyyətini başa düşməyə və həmin mövzularla bağlı çoxlu test həll etməyə çalışsınlar.*



## VƏLİYEV NURLAN MAHAL OĞLU

659.018 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 55 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 55 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisasa maraq məndə dövrümüzün tələbi ilə yaranıb. Hər bir dövlətin gücü onun iqtisadi göstəriciləri ilə bağlı olduğu üçün mən də bu ixtisası seçmişəm ki, ölkəmizin qüdrətlənməsində iştirak edim.*
*2. Daim öz üzərlərində çalışsınlar, seçdikləri ixtisas üzrə təhsil alan tələbələrlə, mütəxəssislərlə görüşsüb, onlardan özləri üçün lazımi məlumatlar alsınlar.*



## BAYRAMOV TACƏDDİN BAYRAM OĞLU

658.661 balla "Qafqaz" Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Mingəçevir filialının məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Gələcək həyatda yerimi iqtisadiyyat sahəsində çalışan işgüzar bir mütəxəssis kimi görürəm.*
*2. "Abituriyent" jurnalını mütəmadi izləmək və oradakı məsləhət və göstərişlərə əməl etmək.*



## QOCAYEV İSTANBUL ELDAR OĞLU

658.214 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 279 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Bu peşəni seçdiyim qrupun ən yüksək, ən nüfuzlu ixtisası hesab edirəm. Ümumiyyətlə, hər bir ölkənin iqtisadi inkişafı onun başqa ölkələrlə iqtisadi əlaqələrindən də asılıdır. Mənim ixtisasımın mahiyyəti də bundan ibarətdir. Gələcəkdə özümü Azərbaycanımızın iqtisadi inkişafında mühüm rol oynayacaq bir mütəxəssis kimi görürəm.*
*2. Onlara uğurlar arzulayıram və "Abituriyent" jurrnalının tövsiyələrinə əməl etməyi məsləhət görürəm.*



## ŞAHBAZOV ELNUR BABAXAN OĞLU

657.500 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası Sumqayıt şəhəri polis idarəsində kapitandır.
Anası işləmir.

*1. Dövrün tələbatını nəzərə alaraq bu ixtisası seçmişəm. Bu ixtisasa yiyələnməklə gələcəkdə çox gərəkli bir mütəxəssis olmaq istəyirəm. Gələcək üçün planım təhsilimi xarici ölkədə davam etdirmək və Azərbaycan üçün layiqli bir şəxs olmaqdır.*
*2. Qəbula aşağı siniflərdən hazırlaşmağa başlasınlar . Vaxtlarını düzgün bölsünlər. Qış və yay tətillərindən faydalı istifadə etməyə çalışsınlar. Məncə, yüksək nəticə üçün əziyyət çəkməyə dəyər.*



## HÜSEYNOV QƏDİR LYUDVİQ OĞLU

655.983 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Müasir Təhsil Kompleksinin məzunudur.
Atası Baş Məşğulluq İdarəsində şöbə müdiridir.
Anası Bakı şəhəri 31 saylı orta məktəbdə müəllimdir.

*1. Dövlətin dirəyi olan iqtisadiyyatı kibernetik mütəxəssis kimi öyrənib, doğma Azərbaycanımızın inkişafına xidmət göstərmək istəyirəm.*
*2. Dərslərə aşağı siniflərdən fikir vermək lazımdır, son bir ilin hazırlığına arxayın olmaq olmaz.*



## MƏMMƏDOVA AYSEL SAMİR QIZI

655.358 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu Bakı Avropa liseyinin məzunudur.
Atası İqtisadi İnkişaf Nazirliyində şöbə rəisidir.
Anası işləmir.

*1. Ölkəmizin hazırkı iqtisadi vəziyyəti istədiyimiz səviyyədə deyil. Mən də bu sahənin yaxşı mütəxəssislərindən olub onun yaxşılaşması, inkişafı üçün bacardığımı etmək istəyirəm.*
*2. Yalnız "Abituriyent" jurnalının buraxılışı olan test bankındakı sualları həll etməklə kifayətlənməsinlər, bütün mövzuları əsaslı şəkildə mənimsəməyə çalışsınlar.*



## QASIMOV İLKİN VİLAYƏT OĞLU

653.483 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Naxçıvan Türk liseyinin məzunudur.
Atası sürücüdür..
Anası işləmir.

*1. İqtisadiyyata böyük marağım olduğu üçün bu ixtisası seçmişəm.*
*2. Planlı və sistemli hazırlaşsınlar.*



## ŞÜKÜROV ANAR ŞÜKÜR OĞLU

652.411 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 248 saylı orta məktəbin məzunudur.
Atası Təfəkkür Universitetində müəllimdir.
Anası TQDK-da şöbə müdiridir.

*1. Məndə bu ixtisasa maraq uşaqlıqdan yaranıb. İqtisadiyyat cəmiyyətin bünövrəsidir. Məncə, iqtisadiyyatı güclü olan dövlət basılmaz. Ölkəmizin qüdrətlənməsi, ordumuzun güclənməsi, ilk növbədə, iqtisadiyyatımızın möhkəmlənməsindən asılıdır. Bu, eyni zamanda, torpaqlarımızın düşmən tapdağından azad edilməsinin mühüm şərtidir. Mən arzu etdiyim bu ixtisasa mükəmməl yiyələnməklə həmin proseslərdə fəal iştirak etmək istəyirəm.*
*2. Qəbul imtahanları bilik, bacarıq, intellekt yarışıdır. Başqa yarışlarda olduğu kimi, burada da daha hazırlıqlılar, daha güclülər qalib gəlir. Bu reallığı dərk etmək və ondan nəticə çıxarmaq lazımdır. Ən doğru nəticə isə bu ola bilər: bütün səyini, gücünü səfərbər edib, ardıcıl, məqsədyönlü və sistemli şəkildə çalışmaq. İnamlı, iradəli və dəyanətli olmaq. Belə olan halda uğurlu nəticə özünü çox gözlətməz.*



## QASIMOV ELVİN ƏBİL OĞLU

652.054 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 100 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 6 saylı xəstəxanada işləyir.

*1. İqtisadçı olmaq mənim ən böyük arzumdur. Bu peşəyə yiyələnməklə mən həm öz həyatımı, həm də xalqımın həyat səviyyəsini yüksəltmək istəyirəm.*
*2. Aşağı siniflərdən qəbula hazırlaşsınlar. Çünki 1-2 il oxumaqla ən yüksək nəticə əldə etmək çətindir.*



## DALQLICLI HƏMİD RAFİQ OĞLU

651.536 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu Bakı Avropa liseyinin məzunudur.
Atası təqaüdçüdür.
Anası işləmir.

*1. Neçə illərdir ki, mən yeni kompüter texnologiyaları ilə maraqlanıram. Bu texnologiyaların iqtisadi proseslərin analizinə tətbiqi məni xüsusilə çox düşündürür. İqtisadi kibenetika ixtisasını da məhz buna görə seçmişəm.*
*2. Bütün fənləri eyni səviyyədə oxusunlar, son bir ilin hazırlığına ümid etməsinlər.*



## VERDİYEV ELDƏNİZ MƏTLƏB OĞLU

650.893 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 80 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Nəinki Azərbaycanın, hətta dünya ölkələrinin iqtisadiyyatını öyrənmək mənim ən yüksək məqsədimdir. Bu baxımdan ən uyğun ixtisas kimi məhz bu istiqaməti seçdim.*
*2. Mümkün qədər daha məqsədyönlü, daha sistemli şəkildə çalışmaq.*



### ƏLİYEV AZƏR ARİF OĞLU

650.446 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 252 saylı orta məktəbin məzunudur.
Atası Bakı Aqrar mənzil tikinti idarəsində mühəndisdir.
Anası işləmir.

*1. Gələcəkdə özümü Azərbaycanın tanınmış iş adamı kimi görmək, eyni zamanda təhsilimi davam etdirib iqtisad elmlər doktoru olmaq istəyirəm.*
*2. Qəbula hazırlaşarkən kənar fikirləri, hissləri özlərindən uzaqlaşdırsınlar, yalnız bilik əldə etmək haqqında fikirləşsinlər. Öz-özlərinə belə suallar versinlər: Bu gün nə öyrənmişəm? Nəyi bilirəm? Nəyi bilmirəm? Bu yolla özlərinə nəzarət etsinlər.*



### CƏBRAYILOV ŞAMXAL AZAD OĞLU

650.358 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 176 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Hazırkı şəraitdə bu ixtisasın imkanları, potensialı böyükdür. Ona görə bu ixtisasa üstünlük vermişəm.*
*2. İnam hissini itirməyin, amma eyni zamanda özünüzü başqalarından üstün tutmayın. Heç bir şəraitdə potensial rəqibinizi zəif sanmayın.*



### HÜMBƏTOV RUFAN LƏTİF OĞLU

649.733 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 46 saylı orta məktəbin məzunudur.
Atası Tibbi Sosial Ekspertiza Mərkəzində həkimdir.
Anası işləmir.

*1. Mənim arzum həmişə iqtisadçı olmaq olub. Mən bu ixtisası ona görə seçmişəm ki, dünya iqtisadiyyatı ilə maraqlanıram. Gələcəkdə bu sahənin yüksək ixtisaslı kadrı olmaq istəyirəm.*
*2. Bütün fənləri yaxşı oxusunlar və "Abituriyent" jurnalından istifadə etsinlər.*



### ƏSKƏRZADƏ FUAD ARİF OĞLU

648.750 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu Bakı Avropa liseyinin məzunudur.
Atası işləmir.
Anası Azərbaycan MEA-nın Zoologiya İnstitutunda elmi işçidir.

*1. Bu ixtisasa yiyələnməklə mən gələcəkdə özümü neft şirkətlərinin birində yüksək ixtisaslı işçi vəzifəsində görürəm.*
*2. Səylə çalışsanız, heç bir çətinlikdən çəkinməsəniz , Siz də mənim kimi yüksək nəticə əldə etmiş olacaqsınız.*



### XƏLİLOV ARTUR TEYMUR OĞLU

647.946 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Qusar rayonu 6 saylı orta məktəbin məzunudur.
Atası təqaüdçüdür.
Anası Qusar rayonu 6 saylı orta məktəbdə müəllimdir.

*1. Uşaqlıqdan mən riyaziyyat və coğrafiya ilə maraqlanmışam, müxtəlif olimpiada və müsabiqələrdə iştirak etmişəm. Buna görə bu ixtisası seçmişəm. Gələcəkdə yüksək ixtisaslı mütəxəssis olmaq istəyirəm.*
*2. Qəbula 10-11-ci siniflərdən yox, 5-6 siniflərdən hazırlaşmağa başlasınlar, aşağı siniflərdə yaxşı bünövrə qoyulmayanda sonradan hər hansı fənni qavramaq çətin olur.*



### RƏHİMOV ALTAY FİLMAN OĞLU

646.071 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 12 saylı orta məktəbin məzunudur.
Atası Sumqayıt şəhəri təcili tibbi yardım xəstəxanasında şöbə müdiridir.
Anası Sumqayıt şəhəri 2 saylı uşaq poliknikasında baş həkimdir.

*1. Respublikamızda bu sahədə yüksək ixtisaslı kadrlara böyük ehtiyac var və mən də özümdə bu ehtiyacı ödəyə biləcək gücü görürəm.*
*2. Qarşıya qoyulan məqsədə çatmaq üçün daim yorulmadan çalışsınlar və əmin olsunlar ki, yalnız dözüm və çalışqanlıq sayəsində istəklərinə çata bilərlər.*



## HƏMİDOV SƏRXAN ELXAN OĞLU

644.911 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası Etilen-Polietilen zavodunda iqtisadçıdır.

*1. Bu ixtisası həm xoşuma gəldiyinə görə, həm də bu sahəni seçən şəxslər üçün iş tapmaq çətin olmadığına görə seçmişəm.*
*2. Onlar oxuduqları materialı dərindən mənimsəsinlər və heç bir xırdalığı nəzərdən qaçırmasınlar.*



## MƏLİKOV NADİR RASİM OĞLU

644.750 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisası mən idealıma və arzularıma uyğun olduğuna görə seçmişəm. Ona yiyələnməklə mən Vətənimiz Azərbaycanın inkişafı uğrunda çalışan bir iqtisadçı olacağam. Hər bir dövlətin inkişaf səviyyəsinin əsas göstəricisi onun iqtisadiyyatıdır. Buna görə də gələcək planlarım iqtisadiyyatımızı gücləndirməklə bağlıdır.*
*2. İmtahanlara inamla hazırlaşmağı tövsiyə edirəm. Hazırlıq zamanı dərsliklərdəki materialı dərindən mənimsəsinlər və "Abituriyent" jurnalından istifadə etsinlər. İmtahanlara gərgin hazırlaşan hər bir abituriyent tələbə adı qazanmağa şanslıdır.*



## ASLANOVA NİGAR ALLAHVERDİ QIZI

644.018 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
İsmayıllı rayonu 1 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası İsmayıllı şəhəri 1 saylı orta məktəbdə müəllimdir.

*1. Azərbaycanın iqtisadiyyatı hələlik inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə müqayisədə zəifdir. Mən gələcəkdə bir iqtisadçı kimi ölkəmizin iqtisadiyyatının möhkəmləndirilməsində iştirak etmək istərdim.*
*2. Ali məktəb tələbəsi olmaq istəyən hər bir kəs məktəbdə bütün fənlərə yaxşı hazırlaşmalıdır. Bunu həyati təcrübə tələb edir. 9 il məktəbdə "3"-lə oxuyan şagird heç bir vaxt 2 il hazırlaqmaqla ali məktəbə yüksək balla qəbul ola bilməz.*



## SƏFƏRƏLİYEV KAMRAN RƏŞAD OĞLU

643.143 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 190 saylı orta məktəbin məzunudur.
Atası Vergilər Nazirliyinin daxili nəzarət baş idarəsində şöbə rəisidir.
Anası 2 saylı hövzə poliklinikasında həkimdir.

*1. Bacarıqlı iqtisadçı kimi respublikanın tərəqqisində iştirak etmək, inkişaf etmiş ölkələrdə təhsil almaq,təcrübə keçmək mənim arzumdur.*
*2. İnamlı və inadkar olsunlar, qarşılarına qoyduqları məqsədə çatmaq üçün inadla çalışsınlar.*



## ƏLƏKBƏROV ELNUR QƏZƏNFƏR OĞLU

642.304 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 297 saylı orta məktəbin məzunudur.
Atası Dövlət Hidrometerologiya Komitəsində mühəndisdir.
Anası işləmir.

*1. Məqsədim keçid dövründə olan Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsində və onun inkişaf etmiş dövlətlərin iqtsadiyyatı səviyyəsinə qaldırılmasında iştirak etməkdir*
*2. İmkan daxilində fərdi məşğul olsunlar və yalnız test və dərsliklərlə kifayətlənməsinlər. Əlavə ədəbiyyatlardan və atlaslardan da istifadə etsinlər.*



## MUSAYEVA RAMİYƏ EYNULLA QIZI

642.233 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası Bakı Plan İqtisad Kollecində müəllimdir.
Anası Məcburi köçkünlərə sosial yardım fondunda mühasibdr.

*1. İnkişaf edən Azərbaycanımızın iqtisadçılara böyük ehtiyacı vardır. Mənim əsas məqsədim Vətənimə və xalqıma layiqli insan olmaq, iqtisadiyyatımızın dirçəlməsi üçün əlimdən gələni etməkdir.*
*2. Dərslikləri və ayrı-ayrı mövzuları sadəcə oxumaq kifayət deyildir.Əsas məsələ oxudyğunu başa düşmək və yadda saxlamaqdır. Bu, ədəbiyyat və tarix fənlərinə daha çox aiddir. Bankdakı sualları əzbərləməyə çalışmayın, çünki suallar çox fərqli olur. Əgər proqramı yaxşı bilirsinizsə, onda heç bir probleminiz olmayacaq. Bir də imtahana bir gün qalmış heç nə oxumayın.*

II QRUP
ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



## HÜSEYNOV VÜQAR HÜSƏN OĞLU

641.339 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 290 saylı orta məktəbin məzunudur.
Atası 2 saylı Bakı şərab zavodunda aşpazdır.
Anası işləmir.

*1. Mənim riyaziyyata böyük marağım var, bu ixtisas da məhz riyaziyyatla bağlıdır. Gələcək həyat planım kompüter mütəxəssisi və iqtisadçı olmaqdır.*
*2. İxtisas seçərkən yaxşı fikirləşsinlər. İmtahana hazırlıq zamanı yalnız testlər bankından istifadə etməklə kifayətlənməsinlər, çünki imtahan sualları yalnız nəşr olunmuş testlər bankından düşmür.*



## İSMAYILOV ELXAN ŞAHMURAD OĞLU

641.071 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Bakı Türk Anadolu liseyinin məzunudur.
Atası Ağdam rayonu 33 saylı köçkün orta məktəbində müəllimdir.
Anası Ağdam rayonu 33 saylı köçkün orta məktəbində müəllimdir.

*1. Bu ixtisasa mənim çox böyük maraq və istəyim vardır. Ancaq gələcək haqda proqnoz verə bilmərəm: gələcək həyatdakı yerimi və planlarımı gələcək göstərər.*
*2. Aşağı siniflərdən bütün fənləri mükəmməl mənimsəsinlər.*



## ABDULLAZADƏ MƏHİŞ OKTAY OĞLU

640.625 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası təqaüdçüdür.
Anası Şuşa şəhəri 3 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisas qrupu üzrə fənlər mənə daha yaxındır. Həm də gələcəkdə xeyriyyəçi bir sahibkar olmaq arzusundayam. Bu sahədə lazımi qədər potensialım olduğu üçün xəyalı reala çevirəcəyimə inanıram.*
*2. Qəbul imtahanlarına bacardıqca tez–erkən hazırlaşmağa başlasınlar. Ciddi çalışqanlıq, səbir, özünə inam müvəffəqiyyətlə nəticələnəcək.*



## NOVRUZOV RÜFƏT ŞƏMSƏDDİN OĞLU

640.446 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu kimya-biologiya təmayüllü liseyin məzunudur.
Atası təqaüdçüdür.
Anası Bakı şəhəri humanitar fənlər gimnaziyasında müəllimdir.

*1. Bu ixtisası çox prestijli olduğuna görə seçmişəm. Bir də ki, uşaqlıqdan xarici əlaqələr, biznes mənim maraq dairəmə daxildir. Ölkədə elmə, elm adamlarına stabil, əlverişli şərait yaradıldığına görə, öz səviyyəmə və bacarığıma uyğun post tutmaq istərdim. Ölkənin iqtisadi inkişafının sürətlənməsində mənim də rolum olsa, çox sevinərdim.*
*2. Hazırda Azərbaycanda tələbə qəbulu sahəsində elə bir vəziyyət yaranıb ki, hər kəs istədiyi qrupun ən nüfuzlu ixtisasına qəbul ola bilər. Təbii ki, lazımi hazırlıq səviyyəsinə malikdirsə. Siz də çalışın öz səviyyənizə uyğun ixtisas seçin və onun səviyyəsində hazırlaşın. Bunun üçün isə ən birinci iradə, dözüm və çalışqanlıq lazımdır.*



## SÜLEYMANOVA SEVİNC BƏHRUZ QIZI

639.375 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası Milli Elmlər Akademiyasının baş elmi işçisidir.
Anası Milli Elmlər Akademiyasının elmi işçisidir.

*1. Liseydə oxuduğum illərdə Azərbaycanın iqtisadiyyatı məni həmişə maraqlandırıb. Bu ixtisasa yiyələnmək istəyimin əsas səbəbi Azərbaycan iqtisadiyyatının gələcəkdə çiçəklənməsinə böyük inamımdır. Və çox istərdim ki, bu prosesdə iştirak etmək mənə də nəsib olsun.*
*2. Hər şeyi sonuncu ilə saxlamasınlar. Ali məktəbə qəbul haqqında yalnız 11-ci sinifdə düşünməsinlər. Bütün oxuduqları materialları vaxtında mənimsəməyə çalışsınlar. Ən başlıca məsləhətim isə budur ki, həmişə öz güclərinə inansınlar, çünki zəhmət çəkən hər zaman müəvəffəqiyyət əldə edir.*



## MƏMMƏDOVA XƏYALƏ BİLAL QIZI

637.946 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Abşeron rayonu Xırdalan qəsəbə 2 saylı orta məktəbin məzunudur.
Atası Bakı metropolitenində polis baş serjantıdır.
Anası F. Əfəndiyev adına 4 saylı kliniki xəstəxanada tibb bacısıdır.

*1. Bu ixtisası müasir həyatın tələblərinə cavab verdiyi üçün seçmişəm. Gələcəkdə özümü xalqımın, millətimin qeydinə qalan əsl vətəndaş kimi təsəvvür edirəm. Bir mütəxəssis kimi isə biliyimi daim artırmağa səy edəcəyəm.*
*2. Əzbərçiliyə meyl etməsinlər. Elmləri yaradıcılıqla öyrənsinlər.*



## İBRAHİMOV CƏFƏR ƏHMƏD OĞLU

637.768 balla "Qafqaz" Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Bakı Özəl türk liseyinin məzunudur.
Atası işləmir.
Anası Montin qəsəbəsi ruhi-əsəbi xəstəliklər dispanserində həkimdir.

*1. Təbiətin qanunu belədir ki, güclülər hər zaman öndə, zəiflər isə güclülərdən asılı olur. Hər bir dövlətin gücünü bəlirləyən faktor isə onun iqtisadiyyatıdır. Və mənim də məqsədim Azərbaycanı güclü görmək və həmçinin güclülər sırasında özümə bir yer tapmaqdır. Əminəm ki, bir sıra güclü dövlətlərin təcrübəsindən faydalana bilərik. Ona görə də gələcək təhsilimi bu dövlətlərdə almaq niyyətindəyəm.*
*2. Üç keyfiyyət qazanmağı məsləhət görürəm: 1. Özünə inam 2. Çalışqanlıq 3. Səbir.*



## XUDAVERDİYEV ZEYDULLA BƏHRAM OĞLU

637.321 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 39 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Bu ixtisası seçməkdə məqsədim dövlət işçisi olmaq və dövlətin idarə edilməsində yaxından iştirak etməkdir. Bu ixtisasa yiyələnməklə gələcək həyatda özümü məsul bir dövlət işçisi kimi görürəm*
*2. Müəllimlərin istiqaməti ilə çalışmalıdırlar. "Abituriyent" jurnalından istifadə onlar üçün çox faydalı olar. Çünki orada çoxlu model testlər var. Yüksək nəticənin ən əsas şərti durmadan, yorulmadan çalışmaqdır.*



## ABBASOV SƏNAN ASƏF OĞLU

636.964 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Mingəçevir şəhəri 3 saylı orta məktəbin məzunudur.
Atası 11 saylı Ərazi Vergilər İdarəsində işləyir.
Anası Mingəçevir şəhəri Azərbaycan Dresində mühəndisdir.

*1. Hazırda Azərbaycanın iqtisadiyyatının xarici əlaqələrinin inkişaf etdirilməsinə çox ehtiyac var. Buna görə mən iqtisadiyyatımızın inkişafına qulluq edən bir mütəxəssis olmağı qərara aldım.*
*2. Qəbul imtahanları hər bir abituriyent üçün ciddi şans yaradır ki, gələcəyini öz arzularına uyğun qursun. Odur ki, abituriyent hazırlaşarkən qarşısına yüksək məqsəd qoymalıdır ki, uğurlu nəticəyə nail ola bilsin.*



## ŞƏKƏROV XALİD ŞƏMSƏDDİN OĞLU

635.571 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 30 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisasa böyük marağım var. Ona yiyələnməkdə məqsədim ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsində fəal iştirak etməkdir.*
*2. Qəbula hazırlığa əvvəldən - aşağı siniflərdən məsuliyyətlə yanaşsınlar. Məktəb dərsliklərini mükəmməl mənimsəsinlər, əlavə materiallara çox meyl etməsinlər. Yadda saxlasınlar ki, hər bir test sualı dərsliklərə əsaslanır.*



## QARAYEV VÜSAL GƏRAY OĞLU

635.446 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 282 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında baş müəllimdir.
Anası Bakı şəhəri 282 saylı orta məktəbdə müəllimdir.

*1. Mənim fərdi planlarım və bu ixtisasın tələbləri üst-üstə düşdüyünə görə bu sahəni gələcək fəaliyyət kimi seçmişəm. Bu ixtisasa yiyələnməklə Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsində iştirak etmək istəyirəm.*
*2. Çalışmaq, iradəli olmaq, bir də heç vaxt həyat stimulunu itirməmək.*



## YUSİFOV ELNUR FƏRRUX OĞLU

635.358 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 247 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası Bakı şəhəri 247 saylı orta məktəbin müəllimidir.

*1. Mənim bu ixtisasa böyük marağım var və elə fikirləşirəm ki, gələcəkdə yaxşı bir mütəxəssis ola biləcəyəm.*
*2. Məktəb proqramını yaxşı öyrənsinlər, dərslərinə ciddi yanaşsınlar və mətanətli olsunlar.*



## RƏHİMOV ƏLƏMDAR RƏHMAN OĞLU

634.821 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin məzunudur.
Atası "Hüquqşünas" qəzetinin müxbiridir.
Anası işləmir.

*1. Bu ixtisası və ixtisas qrupunu ona görə semişəm ki, ilk növbədə ona aid olan fənləri yaxşı biilrəm.*
*2. "Abituriyent" jurnalından istifadə etməklə keçilən mövzular üzrə çoxlu test sualları həll etsinlər və sınaq imtahanlarında iştirak etsinlər.*



## SÜLEYMANOVA QƏRİBƏ RƏHİM QIZI

634.196 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisası seçməklə və ona mükəmməl yiyələnməklə mən inanıram ki, xalqıma daha çox xeyir verə bilərəm. Mən gələcəkdə özümü xalqımız üçün lazımlı və layiqli bir mütəxəssis kimi təsəvvür edirəm.*
*2. İmtahanlara məsuliyyətlə hazırlaşsınlar. Nə qədər çox zəhmət çəksələr, sonda onun bəhrəsi bir o qədər yüksək olacaq.*



## KƏRİMOV NİCAT ƏLİMAN OĞLU

634.036 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Neftçala rayonu Qədimkənd kənd orta məktəbinin məzunudur.
Atası Neftçala rayonu Qədimkənd bələdiyyəsində sədr müavinidir.
Anası Neftçala rayonu Qədimkənd uşaq bağçasında tibb bacısıdır.

*1. Bazar iqtisadiyyatını, neft sənayesinin inkişafını və bu ixtisasa olan tələbatı nəzərə almışam. Yüksək səviyyəli mütəxəssis olmaq istəyirəm.*
*2. TQDK-nın məsləhətlərinə və tövsiyələrinə əməl etsinlər, imtahanlara ciddi hazırlaşsınlar. Dərs proqramlarında olan bütün mövzuları mükəmməl öyrənsinlər.*



## HÜMBƏTOV RUSLAN NAZİM OĞLU

633.411 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 96 saylı orta məktəbin məzunudur.
Atası "Azsudan" firmasının zavodunda nəqliyyat üzrə direktor müavinidir.
Anası Azərbaycan Dövlət Neft şirkətinin informatika hesablama mərkəzində müəllimdir.

*1. Məndə bu ixtisasa kiçik yaşlarımdan həvəs yaranıb. Ona yiyələnməkdə məqsədim ölkələr arasında iqtişadi əlaqələrin gücləndirilməsində, iqtisadiyyatımızın inkişaf etdirilməsində yaxından iştirak etməkdir.*
*2. Özünə müəyyən rejim düzəltməklə, səbirlə, səylə, istirahət etməklə və çoxlu mənbələrdən istifadə etməklə hazırlaşsınlar.*



## MƏMMƏDOV EMİN AĞAVERDİ OĞLU

632.679 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu kimya-biologiya təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası təqaüdçüdür.

*1. Bu ixtisası seçməklə mən gələcək həyatda layiqli yer tutmaq və arzularımı reallaşdırmaq istəyirəm.*
*2. "Qabaqda hələ vaxt çoxdur", – deyə vaxtınızı boş yerə itirməyin.*



## HƏSƏNOVA SONA BARİS QIZI

632.500 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Xanlar rayonu İ.Hüseynov adına şəhər 1 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Gəncə şəhəri dəmiryol xəstəxanasında rentgen şöbəsinin müdiridir.

*1. Respublikamızın iqtisadiyyatının çoxşaxəliliyi məni bu ixtisası seçməyə sövq etdi. İqtisadiyyatımızın inkişafında bir mütəxəssis kimi iştirak etmək, respublikamızla xarici ölkələr arasında iqtisadi əlaqələr sisteminin qurulmasında çalışmaq istərdim.*
*2. İlk öncə meylləri olan ixtisası seçsinlər. Hazırlıq dövründə dərslərinə məsuliyyətlə yanaşsınlar. "Abituriyent" jurnalını həmişə izləsinlər, qələbə çalacaqlarına inansınlar.*



## BAĞIROVA NİGAR ZAKİR QIZI

632.411 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 247 saylı orta məktəbin məzunudur.
Atası M M şirkətində nəqliyyat meneceridir.
Anası 12 saylı uşaq poliknikasında həkimdir.

*1. Cəmiyyətin bütün sahələri iqtisadiyyat əsasında qurulur. Mən bu sahəni daha dərindən mənimsəmək istəyirəm. Bu ixtisası da ona görə seçmişəm. İqtisadiyyatımızın inkişafında yaxşı bir mütəxəssis kimi iştirak etmək arzusundayam.*
*2. Mənim qardaşım da gələcək abituriyentdir. Qardaşıma da və bütün digər abituriyentlərə də məsləhətim budur ki, var gücləri ilə çalışsınlar.*



## MANAFOV ELMİR ƏYYUB OĞLU

632.143 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Əli-Bayramlı iqtisadiyyat filialının məzunudur.
Atası işləmir.
Anası Salyan rayonu 14 saylı internat məktəbində müəllimdir.

*1. Dövlət İdarəçilik Akademiyasında dərslər yüksək səviyyədə keçildiyinə və mən də bu təhsil ocağının tələbəsi olmaq istədiyimə görə bu ixtisası seçmişəm.*
*2. Dərslikləri diqqətlə oxumaq və təkrar etmək lazımdır. Təkrar zamanı isə daha çox tetslər həll etməyə üstünlük vermək gərəkdir.*



## ZEYNALOVA VƏFA TAPDIQ QIZI

631.964 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 54 saylı orta məktəbin məzunudur.
Atası AZFEN – TEKFEN alyasında mühəndisdir.
Anası işləmir.

*1. İqtisadiyyat vacib bir sahədir. Siyasət də iqtisadiyyat üzərində qurulur. Cənab Heydər Əliyev demişkən: "İqtisadiyyatı möhkəm olan bir dövlət hər şeyə qadirdir" Mən də gələcəkdə öz səyimi iqtisadiyyatımızın daha da möhkəmlənməsinə sərf edəcəyəm.*
*2. TQDK-nın nəşr etdiyi vəsaitlərdən səmərəli istifadə etməyi məsləhət görürəm.*



## QASIMOV VÜSAL YADİGAR OĞLU

630.983 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Sumqayıt şəhəri humanitar və təbiət-riyaziyyat təmayüllü "İstedad" liseyinin məzunudur.
Atası Dövlət Feldyeger Xidmətinin böyük feldrabitə zabitidir.
Anası işləmir.

*1. İcra orqanlarında işləmək və xalqa xidmət etmək mənim uşaqlıqdan arzumdur. Bu ixtisasa yiyələnməklə mənim amalım məmur bürokratiyasına qarşı mübarizə aparmaq, riyakarlığa, saxtakarlığa, rüşvətxorluğa, regionçuluğa qarşı sərt mövqe nümayiş etdirmək, cəmiyyət üzvləri arasında dövlətçilik hissinin artırılmasına nail olmaqdır.*
*2. İlk növbədə elmi biliklərimi artırmaq, gündəlik dərslərə səylə hazırlaşmaq, məşğələlərdə müntəzəm iştirak etmək, "Abituriyent" jurnalının hər bir sayını izləmək və tez-tez sınaq imtahanlarında iştirak etmək.*



## NAĞIYEVA FİDAN TELMAN QIZI

630.446 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 160 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası AZAL Dövlət Konsernində iqtisadçıdır.

*1. Seçdiyim ixtisas çox müasir sənətdir. Gələcəkdə yaxşı mütəxəssis olmağı qarşıma məqsəd qoymuşam. Biz bu il tələbə adını qazanmış gənclərlə çiyin-çiyinə verərək zəifləmiş iqtisadiyyatımızı ayağa qaldıracağıq. Vətənimə yararlı şəxsiyyət kimi formalaşmaq və iş adamı olmaq mənim ən əsas amalımdır.*
*2. Əlbəttə, ilk növbədə, yorulmadan çalışmalıdırlar. Necə deyərlər: "Niyyətin hara, mənzilin ora" Əgər insan hər hansı məqsədə çatmaq üçün çalışırsa, onda o, buna mütləq nail olacaq. Qoy gələcək abituriyentlər öz uğurları ilə onlara böyük ümidlər bəsləyən valideynlərini və müəllimlərini sevindirsinlər.*



## HAQVERDİYEV GÜNDÜZ İLQAR OĞLU

630.358 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat (türk fakultəsi) ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası Azərbaycan Tibb Universitetində uşaq cərrahiyəsi kafedrasının assistentidir.
Anası Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda azioloji uşaq şöbəsinin müdiridir.

*1. İqtisadiyyatla çox maraqlandığım üçün bu ixtisası seçmişəm. Gələcəkdə ölkələrarası iqtisadi əlaqələrin genişlənməsində, iqtisadi problemlərin həllində yaxından iştirak etmək istəyirəm.*
*2. Məncə, qəbula hazırlığı sonuncu ilə saxlamaq lazım deyil. Çalışsınlar ki, çoxlu test sualları həll edərək, biliklərini möhkəmləndirsinlər.*



## HAŞIMOV ELMİN RÖVŞƏN OĞLU

629.786 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 270 saylı orta məktəbin məzunudur.
Atası Bakı Peşə Liseyində müəllimdir.
Anası işləmir.

*1. Ümumiyyətlə, ixtisasın pisi yoxdur. Sadəcə olaraq hər kəsin üstünlük verdiyi, bəyəndiyi ixtisas var. Mən də sevdiyim ixtisasa qəbul olduğuma görə özümü çox xoşbəxt hiss edirəm. Yüksək nəticə əldə etdiyimə görə repititorlarıma, valideynlərimə, məktəbimizin bütün müəllimlərinə və mənə dəstək olan dostlarıma təşəkkürümü bildirirəm.*
*2. Oxuyan, səy göstərən ali məktəbə daxil olur.*



## SULTANOV RÜSTƏM ZAKİR OĞLU

629.375 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Bakı Türk Anadolu liseyinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Uşaqlıqdan arzum iqtisadçı olmaqdır. Bu ixtisasa yiyələnməklə mən dövlətin idarə edilməsində savadlı bir kadr kimi iştirak etmək istəyirəm.*
*2. "Abituriyent" jurnalının bütün sayları ilə və orada olan bütün testlər və tövsiyələrlə tanış olsunlar. Mövzuları əzbərləməyə deyil, dərk etməyə çalışsınlar.*



## ƏLİYEVA NİGAR RAMİZ QIZI

629.108 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu T.İsmayılov ad.riyaziyyat-informatika təmayüllü məktəb-liseyin məzunudur.
Atası Türk-Amerikan Medical Centre-də baş həkimdir.
Anası Bakı şəhəri 1 saylı musiqi məktəbində müəllimdir.

*1. Müstəqil Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri genişlənməkdədir. Özümü bu prosesin aktiv iştirakçısı kimi görmək istəyirəm. Xaricdə təhsilimi davam etdirib, ölkəmin iqtisadi inkişafına kömək etmək ən böyük arzumdur.*
*2. Onlara proqramlı şəkildə, öz güclərinə inanaraq çalışmağı məsləhət görürəm.*



## ƏLİYEV VÜQAR ŞAHİN OĞLU

628.839 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası sürücüdür.
Anası işləmir.

*1. 9-cu sinifdən başlayaraq bu ixtisasla maraqlanıram. Gələcəkdə güclü iqtisadçı olmaq və ixtisasıma uyğun dövlət işində çalışmaq istəyirəm.*
*2. Əzbərçiliyə yol verməməyi, dərsliklərdəki bütün materialları oxuyub dərk etməyi və öyrənməyi, "Abituriyent" jurnalının bütün sayları ilə maraqlanmağı məsləhət görürəm.*



## XUDAMLI ELXAN ƏLİMİRZƏ OĞLU

628.839 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 83 saylı orta məktəbin məzunudur.
Atası "Günün səsi" redaksiyasının iqtisadiyyat şöbəsinin müdiridir.
Anası Ağciyər xəstəlikləri dispanserində həkimdir.

*1. Mən 2-ci ixtisas qrupundakı fənləri daha yaxşı qavrayıram. Müstəqil Respublikamızın iqtisadiyyatının çiçəklənməsində yüksək ixtisaslı kadr kimi iştirak etmək istəyirəm.*
*2. Onlara ilk növbədə TQDK tərəfindən nəşr olunan fənlər üzrə testlər bankını almağı, onları başa düşə-düşə həll etməyi və ümumiyyətlə, bütün vaxtlarını elmə, biliyə həsr etməyi məsləhət görürəm.*



## SÜLEYMANOV CƏFƏR MƏCİD OĞLU

628.125 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 54 saylı orta məktəbin məzunudur.
Atası sahibkardır.
Anası "AMAKA" institutunda baş mühəndisdir.

*1. Bu fakültəyə daxil olmaq mənim çoxdankı arzum idi və çoz sevinirəm ki, arzumu reallaşdırdım. Çox istərdim ki, seçdiyim ixtisasa layiq bir mütəxəssis olum. Buna görə ali məktəbdə də yaxşı oxumağa səy göstərəcəyəm.*
*2. Hər şeyi son bir və ya iki ilə saxlamasınlar. Yüksək nəticə əldə etmək istəyirlərsə, bütün məktəb proqramını tam mənimsəsinlər.*



## QURBANƏLİYEV ƏHMƏD MUSA OĞLU

628.071 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 116 saylı orta məktəbin məzunudur.
Atası Respublika Dəmiryolu idarəsində dəmiryolçudur.
Anası işləmir.

*1. Bu ixtisasa böyük marağım var. Mənə elə gəlir ki, gələcəyin yaxşı mütəxəssislərindən biri olacağam.*
*2. İmtahana az müddət qalmış deyil, aşağı siniflərdən hazırlaşmağa başlasınlar. Ancaq bu yolla yüksək nəticə əldə etmək olar.*



## ƏLLƏZOV RAMİL İSMAYIL OĞLU

628.036 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 282 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası Bakı şəhəri 282 saylı orta məktəbdə müəllimdir.

*1. Hər bir ölkə dünyada öz iqtisadi inkişaf səviyyəsinə görə seçilir. Gərək biz ölkəmizin iqtisadiyyatını elə bir səviyyəyə qaldıraq ki, bütün dövlətlər bizimlə hesablaşsınlar.*
*2. Ən başlıcası məktəb dərslərinə ciddi fikir vermək lazımdır. Müəllimlə fərdi hazırlığın da şagirdə xüsusi faydası vardır. Repetitor şagirdə testlə işləməyin yollarını öyrədir.*



## HƏSƏNOV RƏŞAD BAYRAM OĞLU

627.500 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 18 saylı orta məktəbin məzunudur.
Atası təqaüdçüdür.
Anası işləmir.

*1. Ölkənin inkişafı ilk növbədə onun iqtisadiyyatının inkişaf göstəricilərindən asılıdır. Mən düşünürəm ki, məhz iqtisadiyyat sahəsində Vətənə daha çox xeyir vermək olar. Bazar iqtisadiyyatına qədəm qoymuş Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri getdikcə genişlənir. Bu sahədə isə savadlı kadrlara ehtiyac var. Mən də bu sırada olmaq istəyirəm.*
*2. Qəbula hazırlaşan hər bir abituriyent daha ciddi, daha məsuliyytlə çalışmalıdır. Proqram materiallarını ilk növbədə dərsliklərdən öyrənməlidir. Çox çalışmaq və əziyyət çəkmək lazımdır ki, onun bəhrəsini görəsən.*



## ASLANOVA ŞÖLƏ NİZAMİ QIZI

626.786 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat (türk fakultəsi) ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Bakı Türk Anadolu liseyinin məzunudur.
Atası AZNEFT proyekt-stroy layihə və tikinti təşkilatında mühəndisdir.
Anası AZ NSETLİ-də mühəndisdir.

*1. Mən türk liseyini bitirdiyim üçün bu fakültənin mənim üçün daha münasib olacağını düşündüm. Həm də obyektivlik baxımından. Gələcəkdə gözəl bir iqtisadiyyat mütəxəssisi olacağıma inanıram.*
*2. Məncə, hər bir abituriyentin ilk addımı öz arzusuna və bilik səviyyəsinə uyğun ixtisas seçməkdir. Bunun üçünsə ciddi düşünmək lazımdır. Əgər abituriyent bunu bacarmırsa, onda heç nəyə ümid etməsin.*



## ZƏRBƏLİYEV EMİL TELMAN OĞLU

626.786 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 46 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 46 saylı orta məktəbdə müəllimdir

*1. Bu ixtisası seçməyimin əsas səbəbi ona olan marağım və keçid dövründə olan Azərbaycana kömək etmək istəyimdir. Mən iqtisadçı olmaqla ölkənin iqtisadiyyatının yüksəlməsinə və xalqın rifahının yaxşılaşmasına kömək edəcəyimə ümid edirəm.*
*2. Məktəb dərsliklərini dönə-dönə oxusunlar. TQDK-nın məsləhətlərinə, məlumatlarına qulaq assınlar. "Abituriyent" jurnalından istifadə etsinlər, imkan olduqca sınaq imtahanlarında iştirak etsinlər.*



## BABAŞOVA YEGANƏ ƏDALƏT QIZI

626.733 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası Birləşmiş Universal Səhmdar Bankında inkassatordur.
Anası işləmir.

*1. İstərdim ki, Azərbaycan iqtisadi səviyyəsinə görə inkişaf etmiş ölkələrə, ABŞ-a, Yaponniyaya oxşasın və onlarla bir yerdə dursun. Azərbaycan iqtisadiyyatının sürətləndirilməsi və dövlətimizin yüksək səviyyədə idarə edilməsi üçün bu ixtisası seçdim və inanıram ki, gələcəkdə bu prosesdə mən də müsbət rol oynayacağam.*
*2. Siz elə bilməyin ki, qəbul imtahanına ancaq son bir-iki ildə hazırlaşmaqla yüksək nailiyyət əldə etmək olar. Bunun üçün hər bir gənc lap uşaqlıqdan çalışmalıdır. Və bütün fənləri eyni dərəcədə yüksək həvəslə oxumalı və öyrənməlidir.*



## ƏLİYEV KAMİL QABİL OĞLU

626.696 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Qəbələ rayonu Vəndam kənd 1 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi geoekoloji monitorinq şöbəsində mühəndisdir.
Anası Qəbələ rayonu Vəndam kənd 1 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisası ölkəmizin gələcək inkişafında iştirak etmək üçün seçdim.*
*2. Hazırlaşdıqları fənlər üzrə əlavə materiallardan istifadə etsələr, daha yaxşı olar, əsasən də, ədəbiyyat fənni üzrə.*



## RƏSULOV ZAUR QABİL OĞLU

626.518 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının menecment ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Bakı Türk Anadolu liseyinin məzunudur.
Atası İdarəeimə və texnologiya kollecində işləyir.
Anası 1 saylı uşaq poliknikasında həkimdir.

*1. Bu ixtisas mənim bilik və bacarığıma uyğun gəlir. Ona yiyələnməklə məqsədim Azərbaycan iqtisadiyyatının daha da qüvvətlənməsində iştirak etmək və ölkəmizi onun hüdudlarından kənarda layiqincə təmsil etməkdir.*
*2. Daha məsuliyyətlə və daha ciddi çalışmağı məsləhət görürəm.*



## CƏFƏRLİ HEYDƏR ƏMRAH OĞLU

626.339 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 291 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri trolleybus parkının müdiridir.
Anası işləmir.

*1. Ölkənin ürəyini iqtisadiyyat təşkil edir. Ona görə də bu ixtisası seçmişəm. Vətənimizə layiqli övlad olmaq istəyirəm.*
*2. Məktəbdə yaxşı oxusunlar. İmtahanlara ciddi və sistemli hazırlaşsınlar. "Abituriyent" jurnalındakı məlumatlarla maraqlansınlar.*



## HACIYEVA BƏSİRƏ ƏLİŞAH QIZI

625.983 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 244 saylı orta məktəbin məzunudur.
Atası Səbayil rayonu İcra Hakimiyyətində işləyir.
Anası Bakı şəhəri 115 saylı orta məktəbdə müəllimdir.

*1. Gələcəkdə arzularımın həyata keçməsi, Vətənimizin iqtisadi cəhətdən çiçəklənməsi naminə bu ixtisasa üstünlük vermişəm. Bu ixtisasın sirlərinə bələd olmaqla çalışacağam ki, Vətənimə və xalqıma layiqli övlad olum.*
*2. İmtahanlara hazırlıq prosesində inamlı, iradəli və qətiyyətli olsunlar, "Abituriyent" jurnalının hər bir sayını müntəzəm olaraq izləsinlər, məsləhət və tövsiyələrədən bəhrələnsinlər.*



## KƏLƏŞOV FUAD SÜLEYMAN OĞLU

625.714 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası "Aqrarkredit" səhmdar kredit təşkilatı xüsusi layihələr və konsaltinq xidməti idarəsinin rəisidir.
Anası 1 saylı kliniki xəstəxanada həkimdir.

*1. Müasir dövrdə respublikamız qarşısında yeni iqtsadı münasibətlərin qurulması, maliyyə sektorunun inkişaf etdirilməsi kimi bir sıra problemlər durur. Qeyd olunan vəzifələrin yerinə yetirilməsi ilə bağlı respublikamızın ixtisaslı iqtisadçılara, maliyyəçilərə ehtiyacı var. Məhz bu baxımdan mən bu ixtisası seçmişəm.*
*2. Gələcək abituriyentlərə seçdikləri ixtisas qrupları ilə bağlı fənləri daha dərindən öyrənməyi və əldə etdikləri bilikləri yoxlamaq məqsədilə mütəmadi olaraq test sınaq imtahanlarında iştirak etməyi tövsiyə edirəm. Çünki əvvəlcədən sınaq imtahanlarında iştirak abituriyentə imtahan zamanı yarana biləcək gərginliyin və çaşqınlığın aradan qaldırılmasına, onun özünü daha inamlı və psixoloji cəhətdən hazırlıqlı hiss etməsinə imkan yaradır.*



## ƏLİYEV NAMİQ HÜSEYN OĞLU

625.375 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 17 saylı orta məktəbin məzunudur.
Atası təqüdçüdür.
Anası işləmir.

*1. Hər kəsin həyatda öz yeri var. Sadəcə bu yeri tapmaq lazımdır. Düşünürəm ki, bu ixtisası seçməklə mən doğru yoldayam. Gələcəyimi bu ixtisasın, bu peşənin sahibi kimi görürəm.*
*2. Oxuduğunuz fənlərə həqiqi maraq göstərin, çünki maraq olmadan nəyəsə nail olmaq çətindir. Müəllimlərin məsləhəti, test tarşırıqlarının həlli, "Abituriyent" jurnalından istifadə sizin elmə olan marağınızı düzgün istiqamətləndirəcək.*

II QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



## KAZIMOV TURAL NAMİQ OĞLU

625.179 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 157 saylı orta məktəbin məzunudur.
Atası Dövlət Əmək Müfəttişliyində baş əmək müfəttişidir.
Anası Bülbül adına orta ixtisas musiqi məktəbində müəllimdir.

*1. İqtisadiyyatı güclü olan ölkə basılmaz, qüdrətli olar. Məhz ona görə də bu ixtisası seçmişəm. Dövlətimizi beynəlxalq sahədə təmsil etmək istəyirəm.*
*2. Öz üzərlərində çox çalışsınlar, dərsə həvəslə yanaşsınlar.*



## MÜRSƏLOV AFTANDİL İMAN OĞLU

625.000 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə ixtisasına qəbul olub.
Sumqayıt Özəl türk liseyinin məzunudur.
Atası qaynaqçıdır.
Anası işləmir.

*1. Azərbaycanın gələcəyinin yaxşı olması üçün güclü idarəetmə sistemi olmalıdır. Və bu sahədə istedadlı, ixtisaslı gənc kadrlara ehtiyac vardır. Mən özümü bu sahədə mübarizəyə həsr etmək üçün bu ixtisası seçdim.*
*2. Oxuduqları hər şeyi sisteml şəkildə öyrənsinlər, çoxlu test sualları həll etsinlər, çünki mövzuları yalnız bu yolla yadda saxlamaq olar. Yalnız davamlı oxumaqla yüksək nailiyyətlər əldə etmək olar.*



## TAĞIYEV CEYHUN ŞAKİR OĞLU

624.108 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu kimya-biologiya təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Gələcəyin ali savadlı, yüksək ixtisaslı iqtisadçılarından biri olmaq üçün bu ixtisası seçmişəm.*
*2. Səylə hazırlaşmaq, müəllimlərin tapşırıqlarına əməl etmək, imtahan vaxtı özünü ələ alıb suallara düzgün cavab vermək.*



## QOCAYEV RZA BƏŞİR OĞLU

623.929 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 157 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Riyaziyyatı yaxşı bildiyim və gələcəkdə iqtisadçı olmaq arzusunda olduğum üçün bu ixtisası seçmişəm. Gələcək həyat planlarım Azərbaycan iqtisadiyyatının yüksəldilməsində və dünya ölkələri sırasında öz güclü iqtisadiyyatı ilə tanınmasında yaxından iştirak etməkdir.*
*2. Test bankını əzbərləməklə yaxşı bal yığmaq mümkün deyil. Elmin özünü öyrənmək lazımdır.*



## HÜSEYNOV RUSLAN NAZİM OĞLU

623.214 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 55 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Hökumət evində polis işçisidir.
Anası işləmir.

*1. Bu ixtisas qrupundakı fənləri yaxşı bilirdim və imtahanı müvəffəqiyyətlə verəcəyimə əmin idim.*
*2. Dərsliklərdən əlavə başqa materiallardan da istifadə etsinlər. Xüsusən də ədəbiyyat fənni üzrə hazırlıq zamanı şair və yazıçıların əsərlərini tapıb tam oxusunlar.*



## ƏLİYEV NEMƏT ASƏF OĞLU

622.411 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 16 saylı texniki humanitar təmayüllü liseyin məzunudur.
Atası Azərbaycan Dövlət Yol Şirkətində işləyir.
Anası işləmir.

*1. Yeni müstəqillik əldə edən dövlət üçün onun iqtisadiyyatı daha önəmlidir. İqtisadiyyatı güclü olan dövlətin ordusu da, elmi səviyyəsi də , idmanı da güclü olar . Biz iqtisadiyytımızı gücləndirməklə problemlərimizi çox asanlıqla həll edə bilərik.*
*2. Əvvəla özləri üçün daha uyğun, əlverişli ixtisas seçsinlər və hazırlıq müddətində başqa əyləncələri yaddan çıxarıb ciddi çalışsınlar.*



## İSMAYILOV ORXAN VİLAYƏT OĞLU

621.964 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 247 saylı orta məktəbin məzunudur.
Atası Gənclər, İdman və Turizm Nazirliyində elmi araşdırmalar mərkəzinin direktorudur.
Anası Bakı şəhəri 247 saylı orta məktəbdə müəllimdir.

*1. Müasir dövrün tələblərinə uyğun olduğuna görə bu ixtisasa marağım var. Elə bilirəm ki, ona dərindən yiyələnməklə ölkəmizdə və dünyanın istənilən yerində uğurla işləyə biləcəyəm.*
*2. Həvəslə və ardıcıllıqla hazırlaşmağı məsləhət görürəm.*



## ZEYNALOV FƏRHAD NAMİQ OĞLU

621.786 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat (türk fakultəsi) ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 164 saylı orta məktəbin məzunudur.
Atası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işləyir.
Anası işləmir.

*1. İqtisadiyyat sahəsinə böyük marağım olduğu üçün bu ixtisası seçmişəm.*
*2. Mənə elə gəlir hər bir abituriyent imtahana necə hazırlaşmağı özü müəyyən etməlidir.*



## VƏLİYEV ELÇİN ZAMAN OĞLU

621.250 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.
Atası Birləşmiş Universal Səhmdar Bankında iqtisadçıdır.
Anası işləmir.

*1. Hər hansı bir ölkənin iqtisadi cəhətdən inkişafı o ölkənin bütün sahələrdə inişafına səbəb olur. Elə buna görə də iqtisadçı ixtisasını seçmişəm.*
*2. "Abituriyent" jurnalından istifadə edərək hazırlaşsınlar.*



## QULİYEVA XƏDİCƏ SAHİL QIZI

621.250 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 252 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Təhsil Nazirliyi Respublika Ekoloji Mərkəzində baş mühasibdir.

*1. Özümü bu sahədə daha qabiliyyətli hesab edirəm. Gələcəkdə isə özümü iş adamı kimi görürəm.*
*2. Qəbula hazırlaşarkən ilk növbədə özünüzə, öz biliyinizə arxalanın. Yaxşı bilik sahibi olmaqda Sizə dərs kitabları, "Abituriyent" jurnalındakı testlər, tövsiyələr və şərhlər kömək edə bilər.*



## ŞİRİNOV HƏMİD ELXAN OĞLU

620.536 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Sumqayıt Özəl türk liseyinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisası özüm seçməklə yanaşı, ailə üzvlərimizin də məsləhətini nəzərə almışam.*
*2. Qəbula hazırlaşarkən digər işlərini bir kənara qoyub, yalnız imtahana aid problemlərlə məşğul olsunlar. Hazırlıq zamanı onlara dərs kitabları ilə yanaşı, "Abituriyent" jurnallarından da istifadə etməyi məsləhət görürəm.*



## OSMANOV MÜŞFİQ MƏMMƏD OĞLU

620.268 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 285 saylı orta məktəbin məzunudur.
Atası Xəzər Dəniz Neft Sosial Tikinti Tresti xüsusi tikinti quraşdırma idarəsində tikinti ustasıdır.
Anası işləmir.

*1. İqtisadçı olmaq mənim uşaqlıq arzumdur. Bu ixtisasa yyələnməklə məqsədim irəliyə addımlayan Azərbaycan iqtisadiyyatında hansısa yeniliyə nail olmaq, xalq üçün yararlı bir mütəxəssis olmaq, həmişə axtarmaq, aramaqdır.*
*2. Arzu edərdim ki, kortəbii, kiminsə təsiri ilə həyat yolu seçməsinlər. Qarşılarına məqsəd qoyub onun uğrunda mübarizə aparsınlar, elmi biliklərə həvəslə yiyələnsinlər. İstəyirəm ki, yüksək bal toplayanların sayı gələn il birə beş artsın.*



## İBRAHİMOV AYDIN SƏRDAR OĞLU

620.196 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 281 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri H. Hacıyev adına mexaniki təmir zavodunda tornaçıdır.
Anası işləmir.

*1. Bu ixtisası çox sevdiyimə və bir də zamanın tələbinə görə seçmişəm, gələcəkdə maliyyə nazirliyi sistemində özümü hər hansı məsul vəzifəni icra edən mütəxəssis kimi təsəvvür edirəm.*
*2. Ciddi hazırlaşsınlar, ixtisas seçməkdə valideyn və müəllimləri ilə məsləhətləşsinlər.*



## QƏMBƏROVA ZƏHRA İSGƏNDƏR QIZI

619.911 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 246 saylı orta məktəbin məzunudur.
Atası Binəqədi 7 saylı ixtisaslaşdırılmış mexanizasiya idarəsində elektrik quraşdırıcısıdır.
Anası işləmir.

*1. Azərbaycan inkişaf etməkdə olan ölkədir. Belə bir zamanda ölkənin əsas dayağı onun iqtisadiyyatıdır. Mən də ölkəmizin iqtisadiyyatının çiçəklənməsində öz vəzifəmi yerinə yetirmək istəyirəm.*
*2. Çox səylə çalışmağı və öz imkanlarından bacardıqca səmərəli istifadə etməyi məsləhət görürəm.*



## CƏFƏROVA XƏYALƏ ƏLİ QIZI

619.768 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 147 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Mən bir vətəndaş kimi Azərbaycanımıza ürəkdən bağlı olduğumdan onun iqtisadiyyatının yüksək səviyyəyə qaldırılmasında yaxından iştirak etmək istəyirəm. Gələcəkdə özümü Azərbaycanıma lazımlı bir insan görmək istəyirəm.*
*2. Qəbula hazırlıqla bağlı Sizə ilk məsləhətim odur ki, tədris proqramını tam şəkildə mənimsəyin, qaranlıq qalan mövzuların üzərindən keçməyin. "Abituriyent" jurnalındakı məlumatları izləyin. Sınaq imtahanlarında iştirak edin.*



## İBRAHİMXƏLİLOV TURAL FƏXRƏDDİN OĞLU

619.554 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Şəki şəhəri 18 saylı orta məktəbin məzunudur.
Atası Şəki şəhər avtomobil məktəbində müəllimdir.
Anası Şəki şəhər mərkəzi xəstəxanasında tibb bacısıdır.

*1. Mən bu ixtisas sahəsində daha çox uğurlar qazanacağıma inanıram. Çalışacam ki, gələcəkdə peşəm üzrə ixtisaslı kadr olum, iqtisadiyyatımızın inkişafına xidmət göstərim.*
*2. Məktəb dərslərinə daha ciddi hazırlaşsınlar və "Abituriyent" jurnallarındakı testlərlə tanış olaraq imtahana daha yaxşı hazırlaşsınlar.*



## RƏCƏBOV CAMAL FƏRASƏTDİN OĞLU

618.393 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 83 saylı orta məktəbin məzunudur.
Atası Amerikanın "Mercy Corps" humanitar təşkilatında hökumət əlaqələri üzrə mütəxəssisdir.
Anası Bakı şəhəri 83 saylı oria məktəbdə müəllimdir.

*1. Müasir cəmiyyətin inkişafını izləyərkən hazırda respublikamızda biznes, bank-kredit, iqtisadi inkişaf sahələrində ixtisaslı kadrlara daha çox ehtiyac olduğunu görürük. Mən də gələcəkdə bankir olmaq arzuma uyğun olaraq bu ixtisası seçmişəm.*
*2. Öz üzərlərində ciddi çalışsınlar, yalnız öz biliklərinə arxayın olsunlar. Öz bilik səviyyələrini düzgün qiymətləndirməyi bacarsınlar və səviyyələrinə uyğun ixtisas seçsinlər. Savadsız olduğunu bilə-bilə yüksək müsabiqə vəziyyəti olan ixtisas qrupuna imtahan verməyə getmək ən azı ağılsızlıqdır.*



## ƏLİYEVA AYSEL MUSA QIZI

617.983 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat (türk fakultəsi) ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 171 saylı orta məktəbin məzunudur.
Atası Xətai rayonu nəqliyyat departamentində sürücüdür.
Anası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyində aparıcı mütəxəssisdir.

*1. Hazırda Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Ölkəmizin bir sıra Avropa ölkələri ilə ayaqlaşması üçün güclü iqtisadiyyatı olmalıdır. Buna nail olmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm.*
*2. Sadəcə bir il hazırlaşmaqla yüksək nəticə əldə etmək qeyri-mümkündür.Ən başlıca vəzifə odur ki, abituriyentlər dərslərinə gündəlik hazırlaşsınlar. Və təbii ki, qəbul imtahanlarına da ciddi yanaşsınlar. Çünki bu imtahanlar sözün əsl mənasında onların talelərini həll edəcək.*



## ÖVSƏTOV ŞAHMİR İLYAS OĞLU

617.946 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 153 saylı orta məktəbin məzunudur.
Atası XDNQİT-də defektoskopist-rentgenoloqdur.
Anası Bakı şəhəri 20 saylı orta məkiəbdə müəllimdir.

*1. Bu ixtisası seçməkdə məqsədim Azərbaycanın xarici iqtisadi əlaqələrində fəal iştirak etməkdir. Gələcəkdə özümü iqtisadiyyatı güclü olan bir ölkənin vətəndaşı kimi görürəm.*
*2. Hazırlığınızı axırıncı ilə saxlamayın. Bütün biliklərin bünövrəsi aşağı siniflərdə qoyulur.*



## HEYDƏROV KAMİL QAFAR OĞLU

617.911 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat (türk fakultəsi) ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 200 saylı orta məktəbin məzunudur.
Atası Xəzər dəniz gəmiçiliyi idarəsində inşaatçıdır.
Anası Rabitə Nazirliyində poçtalyondur.

*1. Bu ixtisası seçməyimə səbəb iqtisadi biliklərə yiyələnmək həvəsidir. Ona yiyələnməklə Azərbaycanın bir nömrəli iqtisadçısı olmaq istəyirəm.*
*2. Əzbərçilikdən uzaq olun və oxuduqlarınızı tam mənası ilə dərk edib öyrənin.*



## MƏMMƏDOV TƏRLAN FƏTULLAH OĞLU

617.339 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 114 saylı orta məktəbin məzunudur.
Atası AzNeft Birliyi Abşeron qazma işləri idarəsində buruq ustasıdır.
Anası işləmir.

*1. Mənim arzum iqtisadçı olmaqdır. Çalışacağam ki, öz ixtisasıma dərindən yiyələnim və gələcəkdə güclü iqtisadçı olum.*
*2. Ciddi hazırlaşsınlar və "Abituriyent" jurnalının bütün saylarını daim izləsinlər.*



## ŞIXƏLİYEV ELKİN ELDAR OĞLU

617.054 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 6 saylı poliklinikada həkimdir.

*1. Məncə, bu ixtisas daha perspektivli və gələcəyi olan ixtisasdır.*
*2. Qəbula ciddi və səylə hazırlaşsınlar. Yalnız belə halda onlar öz əziyyətlərinin bəhrəsini görüb yüksək nəticə əldə edə bilərlər.*



## QARALOV RUSLAN RAMİZ OĞLU

616.821 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 84 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri 84 saylı tikinti idarəsində bənnadır.
Anası işləmir.

*1. İqtisadiyyat mənim ən çox üstünlük verdiyim sahədir. Bu ixtisası seçməklə mən gələcəyimi parlaq görürəm.*
*2. Dərslərinə məsuliyyətlə yanaşsınlar, savad, bilik toplasınlar. Yalnız bu şərtləri yerinə yetirməklə yüksək nəticələr etmək olar.*



## VƏZİROVA LEYLA SÜLEYMAN QIZI

616.518 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 7 saylı orta məktəbin məzunudur.
Atası Yanacaq və Energetika Nazirliyində idarə rəisidir.
Anası işləmir.

*1. Hazırda bazar iqtisadiyyatına keçidin genişləndiyi bir vaxtda iqtisadçı peşəsinə böyük ehtiyac vardır. Bu peşəyə yiyələnməklə yaxşı iqtisadçı olmağa çalışacağam.*
*2. Nə qədər ki, ali məktəblərə qəbul imtahanları test üsulu ilə keçirilir, yalnız öz biliklərinə arxalansınlar.*



## ŞIXƏLİYEVA SƏİDƏ İLQAR QIZI

616.286 balla Sumqayıt Dövlət Universitetinin mühasibat uçotu və audit ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 14 saylı orta məktəbin məzunudur.
Atası Sumqayıt şəhəri musiqi texnikumunda müəllimdir.
Anası Sumqayıt şəhəri 2 saylı incəsənət məktəbində müəllimdir.

*1. Mühasib olmaq çoxdankı arzumdur. Çünki babam da mühasib olub. Və mən bu sənəti davam etdirmək istəyirəm. Müasir həyatımızda mühasiblərə böyük ehtiyac duyduğundan bu sənəti seçmişəm və gələcəkdə bu sənətə mükəmməl yiyələnməyi özümə borc bilirəm.*
*2. 10 illik dərs proqramının mənimsənilməsində mövcud olan hər hansı çatışmazlıqları dəf etməyə çalışsınlar, xüsusilə son bir il ərzində daha mükəmməl hazırlaşsınlar. Test bankının suallarını əzbərləməsinlər. Bunun əvəzinə mövzuları mükəmməl mənimsəsinlər.*



## QAFAROVA AYTƏN VİDADİ QIZI

616.054 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 167 saylı orta məktəbin məzunudur.
Atası ABB Xətai filialında inzibati işlər üzrə mütəxəssisdir.
Anası işləmir.

*1. İnkişaf etməkdə olan respublikamızın iqtisadçılara ehtiyacı daha çox olduğu üçün mən bu ixtisası seçmişəm.*
*2. Orta məktəb proqramını tam və hərtərəfli mənimsəməli, öz üzərlərində daim çalışmalıdırlar.*



## ŞABANOV SƏNAN ÇİNGİZ OĞLU

614.821 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Qaradağ rayonu 274 saylı orta məktəbin məzunudur.
Anası Bakı şəhəri 274 saylı orta məktəbdə müəllimdir.

*1. Ali məktəbdə yaxşı təhsil alıb öz ixtisasımla xalqıma xidmət etmək istəyirəm.*
*2. Əgər yüksək bal toplamaq istəyirlərsə, məktəb proqramını tam mənimsəsinlər. Çünki testlər bu proqram əsasında tərtib olunur.*



## ŞƏRİFOVA FƏRİDƏ ŞAKİR QIZI

614.768 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu T.İsmayılov ad.riyaziyyat-informatika təmayüllü məktəb-liseyin məzunudur.
Atası N saylı hərbi hissədə hərbiçidir.
Anası işləmir.

*1. Bu ixtisasa böyük həvəsim var. Gələcəkdə böyük bir müəssisənin sahibi olmaq istəyirəm.*
*2. Dərslərini var gücləri ilə oxumağı tövsiyə edirəm. Yalnız bu yolla istədiklərinə nail ola bilərlər.*



## İSMAYILOV SAMİR MƏHƏMMƏD OĞLU

614.733 balla Bakı Dövlət Universitetinin gömrük işinin təşkili ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 245 saylı orta məktəbin məzunudur.
Atası təqaüdçüdür.
Anası işləmir.

*1. Çalışacağam ki, qəbul olduğum fakültədə biliklərə mükəmməl yiyələnim. Univesiteti bitirdikdən sonra təhsilimi davam etdirmək istəyirəm.*
*2. Hövsələli, təmkinli, çalışqan, bacarıqlı olmaq gərəkdir.*



## XƏLİLOVA TELLİ NƏBİ QIZI

614.375 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Salyan rayonu 2 saylı orta məktəbin məzunudur.
Atası Salyan rayonu "Yer quruluşu" idarəsində mühəndisdir.
Anası işləmir.

*1. Yenicə çiçəklənən ölkəmizin iqtisadiyyatının qurulmasında, inkişaf etdirilməsində iştirak etmək mənim böyük istəyimdir. İnanıram ki, seçdiyim ixtisas mənə uğurlu gələcək vəd edir.*
*2. Səbirli, iradəli, məsuliyyətli olmağı, heç vaxt ruhdan düşməməyi arzu edirəm. İmtahanlara psixoloji cəhətdən hazır olmaq üçün sınaq imtahanlarında iştirak etməyi məsləhət görürəm.*



## ƏHMƏDOV MARAT RƏŞİD OĞLU

614.196 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının menecment ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 160 saylı orta məktəbin məzunudur.
Atası taun əleyhinə stansiyada laboratoriya müdiridir.
Anası işləmir.

*1. SSRİ-nin dağılmasından sonra ölkəmiz tədricən bazar iqtisadiyyatına keçdiyinə görə və bu yolda ixtisaslı kadrlara ciddi ehiyac olduğuna görə mən bu ixtisası seçdim.*
*2. Yalnız 1 il müddətində deyil, bütün məktəb illəri ərzində oxumaq, hazırlaşmaq lazımdır.*



## RÜSTƏMOV RUSLAN NİZAMİ OĞLU

613.929 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Bakı Türk Anadolu liseyinin məzunudur.
Atası işləmir
Anası işləmir.

*1. Respublikamızda iqtisadiyyat sürətlə inkişaf etməkdədir. Mən bu ixtisasa yiyələnməklə özümü bu prosesin içərisində görmək istəyirəm.*
*2. Orta məktəb proqramını öyrənməklə bərabər, əlavə ədəbiyyatlardan da geniş istifadə etməli və imtahana hazırlıq vaxtından səmərəli istifadə etməlidirlər.*



## HACILI SİMRAH AZƏR QIZI

613.250 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 52 saylı orta məktəbin məzunudur.
Atası Milli Elmlər Akademiyasında baş elmi işçidir.
Anası Bakı şəhəri 5 saylı doğum evində həkimdir.

*1. Riyaziyyat və kibernetika üzrə mütəxəssis olub öyrəndiklərimi iqtisadiyyatın tənzimlənməsinə tətbiq etmək istəyirəm.*
*2. İxtisası heç kimin təzyiqi olmadan seçsinlər və qəbula aşağı siniflərdən hazırlaşmağa başlasınlar.*



## ƏLİYEV AYDIN FİKRƏT OĞLU

613.214 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 35 saylı orta məktəbin məzunudur.
Atası Sumqayıt şəhəri Üzvi sintez zavodunda çilingərdir.
Anası işləmir.

*1. Seçdiyim ixtisas iqtisadiyyatla bağlıdır. Azərbaycan son illərdə bu sahədə böyük addımlar atır. Bu ixtisası seçməkdə əsas məqsədim Azərbaycanın iqtisadiyyatının daha da gücləndirilməsinə kömək etməkdir.*
*2. Səylə çalışmaq və bütün dərs materiallarını dərindən mənimsəmək lazımdır.*



## ALLAHVERDİYEVA AYGÜN HƏSƏN QIZI

613.125 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 46 saylı orta məktəbin məzunudur.
Atası Xəzər Dəniz Neft Donanmasında kapitandır.
Anası işləmir.

*1. Ölkəmizin iqtisadçılara böyük ehtiyacı olduğuna görə bu ixtisası seçmişəm.*
*2. Seçdikləri peşənin sahibi olmağa çalışsınlar. Əgər hər hansı bir ixtisasa yaxşı yiyələnmək istəyirlərsə, ali məktəb tələbəsi olmaq istəyirlərsə, əvvəlcədən yaxşı hazırlaşsınlar. Çünki bir illik savadla ali məktəbə qəbul olmaq olmaz.*



## MƏMMƏDOV ELÇİN ELXAN OĞLU

613.125 balla "Qafqaz" Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Seçdiyim ixtisasın iqtisadiyyatla bağlı olması heç də təsadüfi deyil. Hal-hazırda dünyadakı bütün proseslər iqtisadi prinsiplərə əsaslanır. Arzu edirəm ki, aldığım yüksək səviyyəli təhsillə gələcəkdə savadlı bir iqtisadçı kimi Azərbaycanımızın dünyada qüdrətli dövlətə çevrilməsinə kömək edim. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir ( H. Əliyev)*
*2. Qarşılarına qoyduqları məqsədə çatmaq üçün ciddi çalışsınlar. Öyrəndikləri bilikləri test bankları vasitəsilə praktiki şəkildə yoxlasınlar, möhkəmləndirsinlər. Bu, ən gözəl hazırlıq prosesidir. Bir də imtahanlara hazırlaşarkən sosial fəaliyyti dayandırmamağı məsləhət görürəm.*



## BAYRAMOV AQİL NAMİK OĞLU

612.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 21 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 20-ci sahə 15 saylı uşaq poliklinikasında həkimdir.

*1. Məqsədim xalqımızın rifahı naminə Azərbaycan iqtisadiyyatının daha da inkişaf etdirilməsinə əlimdən gələni köməyi etməkdir.*
*2. Onlardan bir böyük qardaş kimi xahiş edirəm ki, vaxtlarını boş-boş şeylərə sərf etməsinlər, çünki vaxt qılınc kimidir, biz onu kəsməsək, o bizi kəsər. Və bir də yaddan çıxarmasınlar ki, biz Tusilər, Nizamilər, Füzulilər yetirən xalqın nümayəndələriyik.*



## ƏKBƏRLİ ZAUR FƏXRƏDDİN OĞLU

612.768 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Yardımlı rayonu M.F.Axundov adına 1 saylı qəsəbə orta məktəbinin məzunudur.
Atası Yardımlı rayonu mərkəzi xəstəxanada baş həkimin müavinidir.
Anası Yardımlı qəsəbə 1 saylı orta məktəbində müəllimdir.

*1. İqtisadiyyata böyük marağım olduğu üçün bu ixtisası seçmişəm. Gələcəkdə iqtisadçı olmaq və respublikanın iqtisadi həyatında fəal iştirak etmək arzusundayam.*
*2. İmtahanlara ciddi hazırlaşın. Müəllimlərin savadından, bacarığından maksimum istifadə edin, bir müddət çətinliyə dözün, vaxtınızdan səmərəli istifadə edin, əlavə işlərlə özünüzü yormayın.*



## AĞAYEV SALMAN FİKRƏT OĞLU

612.714 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu "Dədə Qorqud" Bakı özəl türk kompüter liseyinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. İqtisadiyyatın və kompüterin heç vaxt dəbdən düşməyəcəyini düşünürəm. İqtisadi kibernetikaya da məhz bunların əlaqəsindən ibarət olduğuna görə üstünlük vermişəm. Gələcəkdə Azərbaycanı dünyada təmsil edib, müsəlmanların və türklərin nəyə qadir olduqlarını sübut etmək istəyirəm.*
*2. Çox oxumaq şərt deyil. Gecə yarısına qədər oxumağın da elə böyük mənası yoxdur. Əsas məsələ proqramlı və sistemli çalışmaqdır. Səbrin də rolu böyükdür.*



## ƏLİZADƏ İLQAR TAHİR OĞLU

612.500 balla "Qafqaz" Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Gəncə şəhəri Nizami rayonu M.Müşfiq adına 14 saylı orta məktəbin məzunudur.
Atası Gəncə hava limanında baş mühasibdir.
Anası Gəncə şəhəri 307 saylı hərbi hissədə normalayıcı mühəndisdir.

*1. Bu ixtisası seçməyim həyatımda yeni bir mərhələnin başlanğıcıdır. Hər şey mənə verilən imkandan və bacarığımdan asılı olacaqdır.*
*2. Vaxtlarını boş keçirməsinlər: müxtəlif filmlər, kompüter oyunları boş yerə vaxt israfıdır. Ancaq bununla belə bacardıqları qədər hərtərəfli inkişaf etsinlər, bunun imtahanda onlara köməyi ola bilər; geniş dünyagörüşü hələ heç kəsə mane olmayıb.*



## AĞAYEV ORXAN ZAKİR OĞLU

612.411 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 275 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Beynəlxalq Universitetində müəllimdir.
Anası Bakı şəhəri 275 saylı orta məktəbdə müəllimdir.

*1. Azərbaycan iqtisadiyyatının inkişafında yaxından iştirak etmək istəyirəm. Gələcək planım Azərbaycanın layiqli iqtisadçısı olmaqdır.*
*2. Yaxşı repititorların yanına getsinlər və dərslərinə ciddi yanaşsınlar.*



## CƏLİLOV FUAD ALİM OĞLU

612.054 balla Azərbaycan Dövlət İqtisad Universitetinin inzibati idarəetmə ixtisasına qəbul olub.
Salyan rayonu 7 saylı orta məktəbin məzunudur.
Atası Salyan şəhəri peşə liseyində müəllimdir.
Anası Salyan şəhəri uşaq poliknikasında həkimdir.

*1. Bu ixtisası seçməklə gələcəkdə xalqımıza xidmət edəcək, onun iqtisadiyyatının möhkəmləndirilməsinə kömək göstərəcəyəm.*
*2. Qəbula səylə hazırlaşsınlar və istədikləri ixtisasa yiyələnsinlər.*

II QRUP
ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



## KƏRİMLİ ELMİR BAYRAM OĞLU

611.964 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 143 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Nəsimi rayonu qaz idarəsində nəzarətçidir.
Anası Bakı şəhəri 143 saylı orta məktəbdə müəllimdir.

*1. Ən böyük arzum güclü proqramist olmaqdır. Əgər güclü mütəxəssis ola bilsəm, gələcəkdə Azərbaycan iqtisadiyyatının yüksək səviyyəyə çatdırılmasında fəal iştirak edəcəyəm.*
*2. Seçdiyiniz ixtisasa səylə və məqsədyönlü şəkildə hazırlaşın.*



## ALLAHVERDİYEV ELDAR ƏLİBABA OĞLU

611.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. İqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisası II qrupda ən çox bəyəndiyim ixtisasdır.*
*2. Öz ixtisas qruplarında olan əsas fənlərlə yanaşı, əlavə fənlərə də diqqət yetirsinlər. Onlara da yüksək səviyyədə hazırlaşsınlar. Məktəbdə verilən təhsilin səviyyəsi yüksəkdirsə, bu, imtahana hazırlıq üçün kifayətdir.*



## ZAİDOV NATİQ ŞADOĞLAN OĞLU

611.429 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Lerik rayonu Blaband orta məktəbinin məzunudur.
Atası Lerik rayonu mədəniyyət şöbəsində musiqi müəllimidir.
Anası işləmir.

*1. Bu ixtisası seçməklə gələcək həyatda öz yerimi Vətənə layiqli bir vətəndaş kimi təsəvvür edirəm.*
*2. "Abituriyent" jurnalından səmərəli istifadə edin.*



## CƏFƏROVA AYSEL RAUF QIZI

610.714 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının menecment ixtisasına qəbul olub.
Kürdəmir rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Kürdəmir rayonu 68 saylı aptekdə işləyir.

*1. Azərbaycan iqtisadiyyatının idarə olunmasında, onun dünya iqtisadiyyatına inteqrasiya olunmasında iştirak etmək istəyirəm. Arzum Azərbaycan iqtisadiyyatının idarə edilməsində fəaliyyət göstərməkdir.*
*2. Məqsədlərinə çatmaq üçün daim çalışmalı, biliklərini artırmalı, bütün fənlərə eyni dərəcədə münasibət bəsləməli, qabaqcadan sınaq imtahanlarında iştirak etməlidirlər.*



## İSMAYILOV RÖVŞƏN MİKAYIL OĞLU

610.446 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası AZFEN-də mühəndisdir.
Anası Bakı şəhəri 238 saylı orta məktəbdə müəllimdir.

*1. Gələcəkdə Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək üçün bu ixtisası seçmişəm.*
*2. Əzbərçiliyə yol verməsinlər.*



## XASƏDDİNOVA ÜLVİYYƏ RAMAZAN QIZI

609.858 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 292 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri hərbi nəşriyyatda baş mühəndisdir.
Anası işləmir.

*1. Azərbaycan iqtisadiyyatının inkişafında fəal rol oynamaq üçün bu ixtisasa üstünlük vermişəm.*
*2. Məktəbdə yaxşı oxusunlar. Çünki məktəb biliyinin rolu böyükdür. 10 il oxumayan 1 ilə proqramı tam mənimsəyə bilməz.*



## HÜSEYNZADƏ EMİL RAFAİL OĞLU

609.643 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının menecment ixtisasına qəbul olub.
Sumqayıt Özəl türk liseyinin məzunudur.
Atası işləmir.
Anası Mehdiabad həkim ambulatoriyasında həkimdir.

*1. Hər bir inkişaf etmiş dövlət öz güclü iqtisadiyyatı ilə fərqlənir. Azərbaycanı da bu dövlətlər sırasında görmək istəyiriksə, onun iqtisadiyyatını inkişaf etdirməliyik. Bunun üçün Azərbaycana gənc nəsli təmsil edən güclü iqtisadçılar lazımdır. Mən də bütün həyatım boyu Vətən üçün çalışmağa hazıram.*
*2. İlk tövsiyəm odur ki, əyləncələrlə bir illik əlaqəni qırsınlar. Proqram üzrə və sistemli şəkildə hazırlaşsınlar. Ancaq hərdən özlərinə dincəlməyi də hədiyyə etsinlər.*



## İSMAYILOVA XƏYALƏ ABDULƏZİZ QIZI

609.500 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Şəki şəhəri fizika-riyaziyyat və humanitar təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Həmişə hansısa yolla xalqıma, Vətənimə yararlı bir iş görmək istəmişəm. Mənə elə gəlir ki, bu ixtisasa yiyələnsəm, həmin istəyi gerçəkləşdirə biləcəyəm.*
*2. Dərslərini gündəlik oxuyub, tez-tez təkrar etsələr, bu, qəbul imtahanlarında onların köməyinə çatar və yüksək nəticə əldə edə bilərlər. Bunun üçün isə dərs zamanı müəllimlərin izahatlarına diqqətlə qulaq asmaq, lazım gəldikdə əsaslı qeydlər etmək lazımdır.*



## MƏMMƏDOV İLQAR QASIM OĞLU

609.018 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.
Atası Naxçıvan M. R. Culfa rayonu Qazançı kənd orta məktəbində müəllimdir.
Anası Naxçıvan M. R. Culfa rayonu Qazançı kənd xəstəxanasında tibb bacısıdır.

*1. Bu ixtisası seçməklə gələcəkdə Vətənimizə və millətimizə xeyirli bir insan olmaq istəyirəm.*
*2. Hər gün planlı və proqramlı çalışsınlar və lazım olan əsas fənlərə daha çox vaxt ayırsınlar.*



## GÜLMƏMMƏDOV NİCAT BAYRAMƏLİ OĞLU

609.018 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu Bakı Avropa liseyinin məzunudur.
Atası Bakı şəhəri "Azon" zavodunun direktorudur.
Anası Bakı Avropa liseyində müəllimdir.

*1. Bu ixtisası seçməyim iqtisadiyyata marağımla bağlıdır. Hal-hazırda ölkəmizin iqtisadçı mütəxəssislərə böyük ehtiyacı var. Bunu nəzərə alaraq mən ölkəmizin iqtisadiyyatının gücləndirilməsi üçün əlimdən gələni edəcəyəm.*
*2. TQDK-nın çap etdii tədris vəsaitlərindən istifadə etsinlər, keçirdiyi sınaq imtahanlarında iştirak etsinlər.*



## ƏLİYEVA SÜDABƏ HAFİZ QIZI

609.018 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 160 saylı orta məktəbin məzunudur.
Atası Aeroport avtodayanacağında rəis müavinidir.
Anası sürücülərin yoxlanılması tibbi mərkəzində həkimdir.

*1. Gələcəkdə bu sahə üzrə yaxşı bir mütəxəssis olmaq üçün bu ixtisası seçmişəm.*
*2. Öncə məsləhət görərdim ki, düzgün ixtisas seçimi etsinlər, çünki onların gələcək taleyi bununla bağlıdır. Həmçinin onlara tədris materialını qəbul poqramına əsaslanaraq diqqətlə öyrənməyi tövsiyə edirəm.*



## SADIXOV ÖMƏR FAZİL OĞLU

608.946 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 147 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri 23 saylı tikinti idarəsində mühəndisdir.
Anası işləmir.

*1. İndiki dövrdə Azərbaycan iqtisadiyyatında bank sisteminin rolu böyük olduğu üçün bu ixtisası seçmişəm. Hər hansı bankda işləməklə xalqa yüksək səviyyədə xidmət göstərmək istərdim.*
*2. Səbirli, iradəli və məqsədyönlü olsunlar.*



## HƏSƏNOVA AYTƏN ŞAHİN QIZI

608.661 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 247 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri "Mahmud Topçu K" şirkətində satış üzrə agentdir.
Anası Bakı şəhəri 247 saylı orta məktəbdə müəllimdir.

*1. Uşaqlıqdan bu ixtisasa marağım olub. Hesab edirəm ki, iqtisadiyyatımızın dirçəlməsi üçün savadlı kadrlara ehtiyac var. Mən də çalışacağam ki, gələcəkdə öz fəaliyyətimi Vətənimin dirçəlməsinə yönəldən şəxslərdən olum. Gələcəkdə öz yerimi millət, xalq üçün iş görən şəxslər arasında görürəm.*
*2. Şagirdlər bilməlidirlər ki, yalnız bir il hazırlaşmaqla yüksək nailiyyətlər əldə etmək olmaz. Bütün fənlərə eyni dərəcədə maraq və həvəslə yanaşsınlar. Əlavə materiallarla maraqlansınlar. "Abituriyent" jurnalının hər bir sayını izləsinlər və yeni testlərlə maraqlansınlar.*



## HƏSƏNOVA AYGÜL ZAKİR QIZI

607.983 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 289 saylı orta məktəb- "Zəngi" liseyinin məzunudur.
Atası Bakı şəhəri "Servis MK MMS"də işləyir.
Anası işləmir.

*1. Birincisi, riyaziyatı yaxşı bilirəm, ikincisi, bu ixtisas qrupu mənə daha prestijli görünür, üçüncüsü də, seçdiyim ixtisas xarakterimə uyğundur.*
*2. Yaxşı oxumaqla bərabər, yaxşı da dincəlsinlər və hazırlıq müddətində özlərini şər işlərdən yayındırıb dərslərini oxusunlar. Bu halda hər şey yaxşı olacaq.*



## QULİYEV TURAL RZA OĞLU

607.875 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 55 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Gələcəkdə iqtisadçı olmaq istəyirəm. Çünki mən ölkəmizin iqtisadiyyatının inkişaf edəcəyinə inanıram.*
*2. Dərslərə ciddi hazırlaşsınlar və məsuliyyət hiss etsinlər. Gələcək həyatda yaxşı mövqe tutmaq üçün yaxşı oxumaq lazımdır.*



## İMANLI RÖYAL QABİL OĞLU

607.858 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 283 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Mövcud iqtisadi vəziyyəti nəzərə alıb, bu ixtisası seçmişəm. Öz yerimi Azərbaycan iqtisadiyyatının yüksəlməsində böyük rolu olan bir şəxs kimi görürəm. Ali məktəbi bitirib savadlı kadr olmaq istəyirəm.*
*2. İmtahana hazırlaşdıqları müddətdə yalnız test banklarından istifadə etməklə kifayətlənməyib, əlavə materiallardan da istifadə etsinlər. Aşağı siniflərdə oxuduqları dərslikləri yenidən təkrarlasınlar.*



## KƏRİMOV RƏŞAD HAMLET OĞLU

607.768 balla Bakı Dövlət Universitetinin gömrük işinin təşkili ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl türk liseyinin məzunudur.
Atası vəfat edib.
Anası Bakı şəhəri 193 saylı orta məktəbdə müəllimdir.

*1. Açığı deməliyəm ki, bu ixtisas mənim seçdiyim ixtisaslar arasında birinci deyildi. Mən digər bir ixtisası daha çox istəyirdim. Ancaq deməliyəm ki, bu ixtisasın da çoxlu üstün cəhətləri var. Bu ixtisasa yiyələnməklə mən ölkəmizə xaricdən qeyri-qanuni yolla keçirilən malların, zərərli məhsulların, silahların qarşısını almağa çalışacağam.*
*2. Yalnız oxusunlar, bacardıqca çox öyrənsinlər, müəllimlərin tapşırıqlarını həmişə dəqiq yerinə yetirsinlər və ən əsası heç vaxt ruhdan düşməsinlər.*



## MƏMMƏDOV TURAL İLQAR OĞLU

607.608 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Gəncə şəhəri Nizami rayonu M.Mehdizadə adına 4 saylı orta məktəbin məzunudur.
Atası "Servis NKA" MMC-nin Gəncə nümayəndəliyinin rəhbəridir.
Anası Gəncə şəhəri 1 saylı tibbi sanitariya hissəsində həkimdir.



## MƏLİKOV BAXIŞ MƏMMƏDƏLİ OĞLU

606.714 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 248 saylı orta məktəbin məzunudur.
Atası təqaüdçüdür.
Anası işləmir.

*1. Azərbaycan dövlətçiliyinə kömək etmək və onu inkişaf etmiş ölkələr sırasında görmək məqsədilə bu ixtisası seçdim.*
*2. İmtahanlara ciddi hazırlaşsınlar. Qısa müddətdə də olsa lazımsız əyləncələrdən əl çəkib dərs tapşırıqlarının həlli ilə məşğul olsunlar. Hər halda universitetə qəbul olmaq sevinci əvvəllər boş keçirilmiş vaxtlara təəssüflənməkdən üstündür.*



## MƏMMƏDOVA LALƏ XALİK QIZI

606.518 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 291 saylı orta məktəbin (ekoloji lisey) məzunudur.
Atası Azərneftyanacaq neft emalı zavodunda direktor müavinidir.
Anası işləmir.

*1. İqtisadiyyatla maraqlandığım üçün bu ixtisası seçdim. Bu ixtisas həyatda bir çox planlarımı reallaşdırmağa yardım edəcək.*
*2. İmtahanlara ciddi hazırlaşsınlar.*



## MEHDİZADƏ ORXAN ELBRUS OĞLU

606.429 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri 38 saylı orta məktəbdə müəllimdir.

*1. İnkişaf edən Azərbaycanın iqtisadi həyatında mən də müəyyən müsbət rol oynamaq üçün bu ixtiasası seçmişəm. İstəyirəm ki, Azərbaycanda iqtisadiyyat və idarəetmə sahəsində mövcud olan problemlərin həllində iştirak edim və dövlətimizin daha da çiçəklənməsi üçün müəyyən işlər görüm. Həyatda isə Azərbaycana layiqli vətəndaş olmağa çalışacağam.*
*2. Çalışın qəbula 1-2 il müddətində yox, təhsil aldığınız 11 il ərzində hazırlaşasınız. Bir də elə edin ki, oxuduğunuz yeni-yeni məlumatların və qazandığınız biliklərin məntiqi sonluğuna, dərinliyinə baş vurasınız.*



## MƏHƏRRƏMOV RUSLAN SABİR OĞLU

606.429 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 210 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisası ona görə seçdim ki, riyaziyyat və ingilis dili fənlərindən güclüyəm.*
*2. Qəbul imtahanlarına hazırlıq işini hər kəs öz imkan və səviyyəsindən çıxış edərək qurmalıdır.*



## BAXŞƏLİYEV XALİD ƏLİ OĞLU

606.071 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Sumqayıt Özəl türk liseyinin məzunudur.
Atası Azərbaycan Dövlət Dəmiryol idarəsində müfəttişdir.
Anası işləmir.

*1. Müasir dövr kompüter əsri olduğu üçün və iqtisadiyyatın inkişafında informasiya texnologiyalarının rolu artdığına görə bu ixtisası seçdim.*
*2. Planlı və proqramlı şəkildə hazırlaşsınlar. Davamlı olaraq və günün daha çox bəhrə verə bilən saatlarında çalışsınlar. Son iki ayda bütün proqram materiallarını təkrar etmək çox mühüm əhəmiyyətə malikdir.*



## ƏHƏDOV RAMİL RAMİZ OĞLU

605.108 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 138 saylı orta məktəbin məzunudur.
Atası Azərenerji səhmdar cəmiyyətində işləyir.
Anası işləmir.

*1. Bu ixtisası seçməyim ona olan böyük marağım və həvəsimlə bağlıdır. Gələcəkdə bir iqtisadçı kimi xalqıma və dövlətimə xidmət etmək və müstəqil Azərbaycanın inkişafına kömək göstərmək istəyirəm.*
*2. İlboyu məktəbdə dərslərə səylə hazırlaşsınlar və bütün fənlərə eyni dərəcədə önəm versinlər.*

II QRUP
ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



## ƏLİYEV FƏRİD MEHMAN OĞLU

604.821 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 276 saylı orta məktəbin məzunudur.
Atası Vergilər Nazirliyində şöbə müdiridir.
Anası Bakı şəhəri 276 saylı orta məktəbdə müəllimdir.

*1. Atam da iqtisadçı olduğundan onun sənətini davam etdirmək istərdim.*
*2. Ali məktəbə daxil olmağın yeganə yolu gərgin və fasiləsiz çalışmaqdır.*



## ALLAHQULUYEVA NÜBAR RÖVŞƏN QIZI

604.804 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Xaçmaz rayonu M.Babayev adına Xaçmaz 1 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Gələcək həyatda məhz bu ixtisas sahəsində uğur qazanacağıma inanıram.*
*2. İmtahanlara ciddi və tam məsuliyyətlə hazırlaşsınlar.*



## QOCAMANLI SƏNAN NİCAT OĞLU

604.786 balla Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 132 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı Məktəbəqədər Pedaqoji Texnikumunda müəllimdir.

*1. İqtisadçı olmaq mənim çoxdankı arzumdur. Ona görə bu ixtiası seçmişəm.*
*2. Öz üzərlərində çoxlu çalışsınlar, imtahanlardan qorxmasınlar, 100 faiz öz biliklərinə arxalansınlar, maksimum dərəcədə bilik əldə etsinlər.*



## BABAŞOV İLKİN MƏHƏMMƏD OĞLU

604.750 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 169 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri "Tadgül" firmasının müdiridir.
Anası Bakı şəhəri 107 saylı orta məktəbdə müəllimdir.

*1. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, mən daha çox bu ixtisasa üstünlük verirəm. Gələcəyin ixtisaslı kadrı kimi ölkəmizin iqtisadiyyatının yüksəldilməsində əlimdən gələni etmək istəyirəm.*
*2. Əgər layiqincə çalışsalar, çox böyük nəticələr əldə edə bilərlər.*



## RÜSTƏMOVA RUSLANA YASİN QIZI

604.643 balla Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Şəmkir rayonu Cahangir Rüstəmov adına şəhər orta məktəbinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. 9-cu sinifdən məni iqtisadi ixtisaslar çox maraqlandırır. Elə buna görə də mən bu ixtisası seçdim. Gələcəkdə öz ixtisasıma dərindən yiyələnərək dövlətimizə layiqincə xidmət etmək istəyirəm.*
*2. Məktəbdə tədris olunan bütün fənlərlə maraqlansınlar. Çünki geniş, əhatəli biliyi ancaq məktəbdən almaq olar. Bu biliklər sonra qəbul imtahanlarında da lazım olur.*



## QULİYEVA ÜLVİYƏ SEVİNDİR QIZI

604.411 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 23 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseydə müəllimdir.

*1. Ölkəmizdə iqtisadiyyatın inkişaf səviyyəsinin artması göz qabağındadır. Gələcəkdə onun daha da irəliləməsi prosesində yaxından iştirak etmək üçün mən məhz bu sənətə üstünlük vermişəm. Özümü gələcəkdə böyük müəssisə sahibi kimi görürəm.*
*2. Qəbula hazırlaşarkən çox diqqətli olsunlar və kənar yayınmalara yol verməsinlər. Məqsədlərinə çatmaq üçün daha çox oxusunlar.*



## İSMAYILOV CƏMİL AKİF OĞLU

604.196 balla Bakı Dövlət Universitetinin gömrük işinin təşkili ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 24 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Araz kinoteatrında baş inzibatçıdır.
Anası Bakı şəhəri 263 saylı orta məktəbdə müəllimdir.

*1. İndiki dövrdə respublikamıza xarici ölkələrdən qeyri-qanuni yollarla müxtəlif malların keçirilməsi hallarına çox təsadüf edilir. Mən belə halların qarşısını almaq üçün, dövlətimizə müəyyən qədər kömək etmək məqsədilə bu ixtisası seçmişəm.*
*2. Ən birinci məsləhətim odur ki, əla oxusunlar. Lakin yaxşı oxumaqla bərabər öz istirahətlərinə də fikir versinlər. Çünki hər gün səhərdən axşama qədər oxumaqla yüksək nəticə əldə etmək olmaz və bu, adamın sağlamlığına da mənfi təsir edər.*



## QULİYEV AYAZ ARAZ OĞLU

604.143 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Mingəçevir şəhəri 15 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Heç bir dövləti iqtisadiyyatsız düşünmək mümkün deyil. Bu ixtisası seçməklə mən gələcəkdə dövlətim, xalqım üçün xeyirli işlər görmək istəyirəm. Azərbaycanın tamamilə bazar iqtisadiyyatına keçməsində kiçik də olsa rolum olmasını istəyirəm.*
*2. Dərslərə aşağı siniflərdən diqqətlə yanaşmaq, dərsi açıq beyinlə və həvəslə öyrənmək, oxuduqlarını əzbərləmək yox, qavramaq, başa düşmək.*



## XƏLİLOV SAMİR ƏLİÖVSƏT OĞLU

604.108 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri 36 saylı orta məktəbdə müəllimdir.

*1. İqtisadiyyatı güclü olan dövlət qüdrətli olar. İnanıram ki, mən dövlətimizə bir iqtisadçı kimi daha çox fayda verə bilərəm.*
*2. Ən azı 8-ci sinifdə gələcək ixtisası seçmək. Bu vaxtdan başlayaraq dərs zamanı ixtisasla bağlı əsas fənlərə xüsusi fikir vermək, sonuncu 6 ayda isə oxuduqlarını qəbul proqramları əsasında təkrarlamaq.*



## AĞALAROV ELÇİN DİLQƏM OĞLU

603.571 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Mingəçevir şəhəri təbiət-riyaz. və humanitar elmlər təmayüllü liseyin məzunudur.
Atası işləmir.
Anası Mingəçevir şəhəri 7 saylı orta məktəbdə müəllimdir.

*1. Yüksək sürətlə inkişaf edən Azərbaycanda mənim seçdiyim ixtisasın rolu getdikcə artır və məncə, bu sahədə ixtisaslı kadrlara da ehtiyac çoxalır.*
*2. İlk növbədə müəllimlərinin dediklərinə diqqətlə qulaq assınlar, özlərinə inansınlar və imtahana yalnız həqiqi biliklə getsinlər.*



## SEYİDOV ÜZEYİR FİRDOVSİ OĞLU

603.483 balla Bakı Dövlət Universitetinin iqtisadi kibernetika ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 115 saylı orta məktəbin məzunudur.
Atası Y. Məmmədəliyev adına elmi-tədqiqat institutunda işləyir.
Anası Bakı şəhəri 115 saylı orta məktəbdə müəllimdir

*1. İstədiyim məqsədə nail olmaq üçün məhz bu ixtisası seçdim.*
*2. Orta təhsil proqramını tam mənimsəməklə istədikləri ixtisasa maksimum əminliklə qəbul ola bilərlər.*



## BABAZADƏ PƏRVİZ ƏDALƏT OĞLU

603.304 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Bakı Türk Anadolu liseyinin məzunudur.
Atası 9 saylı təcili tibbi yardım stansiyasında həkimdir.
Anası işləmir.

*1. Riyaziyyat fənninə və iqtisadi biliklərə çox həvəsim olduğuna görə bu ixtisası seçdim.*
*2. "Abituriyent" jurnalından və sınaq imtahanlarından maksimum yararlanın.*



## İSMAYILOV AMİD RAQİF OĞLU

603.304 balla Bakı Dövlət Universitetinin gömrük işinin təşkili ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 249 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Sabunçu rayonu 12 saylı poliklinikada həkimdir.
Anası işləmir.

*1. Bu ixtisasa böyük marağım var. Kim olmağımdan asılı olmayaraq Azərbaycanın adını uca tutmağa çalışacağam.*
*2. Sadəcə bir tövsiyəm var: Oxumaq! Bunun üçün onlara ən yaxşı bələdçi "Abituriyent" jurnalı ola bilər.*



## ZEYNALOV YUSİF ƏLÖVSƏT OĞLU

602.768 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası Bakı şəhəri "Sə-Bİ" MMC-də inzibatçıdır.
Anası Bakı şəhəri "Sə-Bİ" MMC-in sədridir.

*1. Uşaqlıqdan bu sahəyə marağım var. Gələcəkdə özümü ən məşhur iqtisadçılardan biri kimi təsəvvür edirəm.*
*2. Dərslikləri ciddi öyrənməli, işlərini planlı şəkildə qurmalıdırlar. İstərdim hər zaman yadda saxlasınlar ki, hazırlıq müddəti müvəqqətidir. Ona görə əyləncə və digər əlavə məşğuliyyətlərdən bir müddət uzaq olsunlar.*



## ABDULLAYEV KAMAL TOFİQ OĞLU

602.589 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 39 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Texniki Universitetində müəllimdir.
Anası Bakı şəhəri 39 saylı orta məktəbdə müəllimdir.

*1. İqtisadçı olmaq ən böyük arzumdur.*
*2. Oxumaq və hazırlaşmaq!*



## XASƏNMƏDOV EMİL ƏHMƏD OĞLU

602.411 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 30 saylı orta məktəbin məzunudur.
Atası "BARMEK"də dispeçerdir.
Anası Bakı şəhəri 30 saylı orta məktəbdə müəllimdir.

*1. Ən böyük arzum gələcəkdə iqtisadçı olmaqdır. Ona görə də bu ixtisası seçmişəm. Azərbaycan inkişaf etməkdə olan ölkədir, ona görə də iqtisadçılara böyük ehtiyac var.*
*2. Elmlərə dərindən yiyələnmək üçün yorulmadan oxumaq, öyrənmək lazımdır.*



## SÜLEYMANOV MAHİR NAZİR OĞLU

602.143 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Siyəzən rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası Dəvəçi rayonu "Azərkəndtikinti" səhmdar cəmiyyətində mühəndisdir.
Anası Siyəzən şəhəri 3 saylı orta məktəbdə müəllimdir.

*1. Respublikamızın iqtisadçı kadrlara böyük ehtiyacı olduğunu nəzərə alaraq gələcək fəaliyyətimi məhz bu sahə ilə bağlamağı üstün tutdum. Düşünürəm ki, bu ixtisasa yiyələnməklə mən Vətənimə daha yaxşı xidmət edə bilərəm.*
*2. Orta məktəb proqramını əla mənimsəsinlər, əlavə materiallarla və "Abituriyent" jurnalının hər bir sayı ilə yaxından tanış olsunlar.*



## BABAYEV AQŞİN ZABİL OĞLU

602.054 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 36 saylı orta məktəbin məzunudur.
Atası Sumqayıt şəhəri Mülki Müdafiə Regional idarəsində rəis müavinidir.
Anası vəfat edib.

*1. Gələcəkdə fəaliyyətimi iqtisadiyyat sahəsində davam etdirmək istəyirəm. Ancaq bu yolda çox çalışmaq lazım gələcək.*
*2. Heç nədən qorxmayın, heç nədən çəkinməyin. Əmin olun ki, ciddi hazırlaşmaqla ali məktəbə qəbul ola bilərsiniz.*



## QURBANOV SƏRXAN VAHİD OĞLU

601.786 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 72 saylı orta məktəbin (lisey) məzunudur.
Atası Bakı şəhəri Sabunçu rayon təhsil şöbəsinin müdiridir.
Anası Bakı şəhəri 252 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisasa yiyələnməyi uşaqlıqdan arzu edirəm. Özümü iş adamı kimi görmək istəyirəm.*
*2. Heç nə bilmədən, yalnız 11-ci sinifdə hazırlaşıb yüksək nəticə göstərmək çox çətindir. Hər sinfin dərsini elə öz vaxtında öyrənmək lazımdır.*



## NƏZƏRİ ƏHMƏD ZUBAYR MƏHƏMMƏDEHSA OĞLU

601.679 balla Bakı Dövlət Universitetinin gömrük işinin təşkili ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 23 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Milli Elmlər Akademiyası Geologiya İnstitutunda mühəndisdir.

*1. Zənnimcə, bu ixtisas perspektivlidir.*
*2. Gərgin, səylə məşğul olsunlar. Keçid ballarına fikir verməsinlər. Çünki bu, abituriyentlərin səviyyəsi əsasında müəyyənləşir.*



## ƏLİYEV ELŞAD ŞİRZAD OĞLU

601.500 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 16 saylı texniki-humanitar liseyin məzunudur.
Atası Azərbaycan Hava Yolları idarəsində mühəndisdir.
Anası Bakı şəhəri 16 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisası seçməkdə məqsədim iqtisadiyyatımızın inkişaf prosesinin intensivləşdirilməsinə yaxından kömək etməkdir.*
*2. "Abituriyent" jurnalının sayları ilə yaxından tanış olun və sınaq imtahanlarında müntəzəm iştirak edin.*



## NƏHMƏTOV ZAUR ŞİRƏLİ OĞLU

601.250 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının menecment ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 282 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Bu ixtisasa yiyələnməklə öz bilik və bacarığımı təsdiq edəcəyimə əminəm.*
*2. Bütün fənlərə dərindən yiyələnsinlər, ancaq öz bilik və bacarıqlarına güvənsinlər.*



## ƏLİYEV NİCAT AYDIN OĞLU

601.071 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 238 saylı orta məktəbin məzunudur.
Atası "Bakıhidrolayihə" axtarış institutunda bölmə rəisidir.
Anası Bakı şəhəri 291 saylı "Araz" Ekologiya liseyində müəllimdir.

*1. İqtisadiyyatla maraqlandığım üçün bu ixtisasa üstünlük vermişəm.*
*2. Sınaq imtahanlarında müntəzəm iştirak etsinlər, imtahanın məzmunu və texnologiyası barədə geniş təsəvvür əldə etsinlər.*



## NURİYEV NİZAMİ RASİM OĞLU

600.750 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat (türk fakultəsi) ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası Tekfen-Azfen Alyansında briqadirdir.
Anası işləmir.

*1. Bu ixtisası öz istəyimlə seçmişəm. İnanıram ki, ona yiyələnməklə gələcək həyatda özümə layiqli yer tutacağam.*
*2. Səylə hazırlaşsınlar, öz qüvvələrinə inansınlar və heç vaxt ruhdan düşməsinlər.*



## ƏHMƏDOV CAVİD SƏRDAR OĞLU

600.625 balla Bakı Dövlət Universitetinin gömrük işinin təşkili ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 283 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anas işləmir.

*1. Bu ixtisas ilk vaxtlar planımda yox idi. Lakin tale elə gətirdi ki, mən bu ixtisasa üstünlük verdim. İnanıram ki, bu sahədə özümü göstərə biləcəm.*
*2. Bəzi şagirdlər elə düşünürlər ki, axırıncı bir –iki ili müəllim yanında hazırlaşmaqla hər şey həll olunacaq. Məsləhət görürəm ki, məktəbdə keçilən fənlərə ciddi yanaşasınız. Aşağı siniflərdə uşağın bilik bünövrəsi necə qoyulursa, gələcək nailiyyətləri də ona uyğun olur.*



## ƏSƏDOV AĞABƏY NOVRUZ OĞLU

600.464 balla "Qafqaz" Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Mingəçevir filialıının məzunudur.
Atası Tovuz rayonu "Azərkitab" kitab mağazasının müdiridir.
Anası Tovuz rayonu Qaraxanlı kənd orta məktəbində müəllimdir.



## AĞAYAROVA SEVİL VALEH QIZI

600.393 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 157 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 9 saylı poliklinikada tibb bacısıdır.

*1. Bu ixtisasa böyük marağım var.*
*2. Hər bir mövzunu oxuyanda diqqətli olun, heç bir sözü gözdən yayındırmayın və ən əsası, imtahan vaxtı həyəcanlanmayın.*



## SADIQOV CAMAL İLHAM OĞLU

600.179 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi ixtisasına qəbul olub.
Tovuz rayonu İ.Mürşüdov adına Aşağı Quşçu kənd orta məktəbinin məzunudur.
Atası Tovuz şərab II Azad Səhmdar Cəmiyyətinin idarə heyətinin sədridir.
Anası Tovuz rayonu Aşağı Quşçu kənd xəstəxanasında həkimdir.

*1. Həyatda yararlı bir vətəndaş olmaq istəyirəm.*
*2. Müəllimlərin verdiyi tapşırıqları yerinə yetirsinlər, fərqlənməyi və fərqləndirməyi bacarsınlar.*



## BAĞIROV ELVİN ELMAN OĞLU

600.179 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 43 saylı orta məktəb-liseyin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 200 saylı orta məktəbdə müəllimdir.

*1. Mən ölkəmizin rəhbər qurumlarında təmsil olunmaq və iqtisadiyyatın idarə olunmasında yaxından iştirak etmək istəyirəm.*
*2. Məsuliyyətli olsunlar, biliklərə dərindən yiyələnsinlər.*



## SƏLİMOV TALEH MƏMMƏDRZA OĞLU

600.179 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.
Gəncə şəhəri Kəpəz raylonu Aşıq Ələsgər adına 36 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib..
Anası Gəncə şəhəri Aşıq Ələsgər adına 36 saylı orta məktəbdə müəllimdir.

*1. İqtisadiyyat hər bir dövlətin gücünü təcəssüm etdirir. Azərbaycan iqtisadiyyatı yenidən qurulmaqdadır və indi ixtisaslı kadrlara böyük ehtiyac duyulur.*
*2. Orta məktəbdə tədris edilən proqram materiallarını ciddi mənmsəsinlər. Bir də yadda saxlasınlar ki, "Abituriyent" jurnallarından istifadə etmək qəbul imtahanlarında müvəffəqiyyət əldə etməkdə onlara çox kömək edər.*

# III QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### QULİYEV TURAL AĞABALA OĞLU

688.750 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Füzuli rayonu 30 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Respublikası Baş Prokurorluğu Təşkilat–Nəzarət idarəsində böyük prokurordur.
Anası işləmir.

*1. Bu ixtisası seçməyimin ən böyük səbəbkarı atamdır. Çünki o, mənim həyat idealımdır. Mən gələcəkdə atam kimi namuslu, ədalətli bir hüquqşünas olmağı arzulayıram. Həm də mən Azərbaycan xalqı üçün layiqli bir şəxs olmaq istəyirəm.*
*2. Gələcək abituriyentlərə tövsiyə edirəm ki, qarşılarına konkret məqsəd qoyub bu məqsədə çatmaq üçün çalışsınlar. Bunun üçün də, təbii ki, çox oxumaq, əziyyət çəkmək lazımdır. Onlar başa düşsün ki, 2-3 il əziyyət çəkməklə, öz gələcəklərini qururlar. Mən bu yolda onlara uğurlar arzulayıram.*



### İSGƏNDƏROV RƏŞAD ÇİNGİZ OĞLU

662.678 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 63 saylı orta məktəbin məzunudur.
Atası Tərtər rayon hərbi məhkəməsində hakimdir.
Anası işləmir.

*1. Gələcəkdə dövlətimizə yararlı, faydalı, ədalətli hüquqşunas olmaq istəyirəm. Azərbaycanın ədalətli hakimliyinin inkişafı üçün əlimdən gələni əsirgəməyəcəm.*
*2. İlk növbədə tam və mükəmməl biliyə yiyələnin. İnsan heç bir şey qarşısında aciz deyil.*



### AĞAYEV YUSİF AĞAƏSGƏR OĞLU

656.000 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 20 saylı orta məktəb-liseyin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Məni bu ixtisası seçməyə babamın çoxillik fəaliyyətində qazandığı uğurlar sövq edib. Universiteti bitirdikdən sonra özümü müstəqil Azərbaycan dövlətinə layiqli vətəndaş kimi təsəvvür edirəm.*
*2. Səylə çalışaraq öyrəndikləri fənlərin incəliklərinə dərindən yiyələnsinlər, keçilən mövzuları təkrarlamağa xüsusi diqqət yetirsinlər.*



### ƏYYUBOV FƏRİD İLHAM OĞLU

653.965 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 21 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri 14 saylı tibbi sanitariya şöbəsində baş həkimin müavinidir.
Anası Bakı şəhəri 10 saylı uşaq poliklinikasında həkimdir.

*1. Bu ixtisasa çox böyük həvəsim var. Ona yiyələnməklə dövlətimizə xidmət etmək istəyirəm. Gələcəkdə xaricdə təhsil almaqla öz biliyimi daha da zənginləşdirməyi arzulayıram.*
*2. Gələcək abituriyentlərə tövsiyəm ondan ibarətdir ki, bütün dərslikləri dərindən oxusunlar, ən azı 2 dəfə sınaq imtahanlarında iştirak etsinlər və qəbul proqramlarında göstərilən dərsliklərdən əlavə heç bir şey oxumasınlar. Çünki bəzən eyni mövzular müxtəlif vəsaitlərdə fərqli şəkildə şərh edilir. Bu da çaşqınlığa səbəb olur. Əgər gələcək abituriyentlər bütün bunlara əməl etsələr, imtahanlarla bağlı heç bir problemləri olmayacaq.*



### MUSAYEVA SAMİRƏ FƏXRƏDDİN QIZI

643.875 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 207 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Vergilər Departamentində böyük vergi müfəttişidir.
Anası işləmir.

*1. Hal-hazırda ölkəmizdə demokratik dövlət qurulur. Bir gənc kimi bu dövlət quruculuğu prosesində iştirak etmək arzusundayam. Hesab edirəm ki, hüquqi biliklərə yiyələnmədən, qanunları dərindən öyrənmədən istədiyimə nail ola bilmərəm. Məhz buna görə də bu ixtisası seçmişəm. İxtisasıma yüksək səviyyədə yiyələnməklə xalqıma xidmət etmək istəyirəm.*
*2. Gələcək abituriyentlərə tövsiyəm budur ki, öz üzərlərində daim çalışsınlar və bütün fənlərə dərindən yiyələnsinlər. Arzu edirəm ki, onlar öz biliklərinə güvənərək imtahana inamla getsinlər.*



## ABBASOV AZƏR RASİM OĞLU

641.340 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 263 saylı orta məktəbin məzunudur.
Atası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işəlyir.
Anası Bakı şəhəri 263 saylı orta məktəbdə müəllimdir.

*1. Hər bir Azərbaycan vətəndaşı öz xalqına xidmət etməlidir. Mən də öyrənəcəyim hüquq elmlərindən istifadə edib Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını qorumaq istərdim, sadə və eyni zamanda mübariz insan olmaq istərdim. Gələcək planlarım: inkişaf edən Azərbaycanı daha da inkişaf etdirmək və bu yolda öz köməyimi əsirgəməmək.*
*2. Əziz abituriyentlər, əgər Siz inadkar olsanız, daha əzmlə çalışsanız, ən çətin suallar belə Sizə asan görünəcək. Hər şeyi öyrənməyə çalışın. Hətta ən adi görünən sualları belə. Sizlərə uğurlar.*



## MEHDİYEVA VÜSALƏ AZƏR QIZI

640.876 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 19 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Füzuli rayonu uşaq və gənclər təşkilatında müəllimdir.

*1. Hər bir ixtisas və peşə Vətənə xidmət üçün kadr ehtiyatı mənbəyidir. Hər bir kadr isə ölkənin istər daxili, istərsə də xarici həyatında müəyyən bir mövqe tutmaqla öz gələcəyini də müəyyənləşdirmiş olur. Mənim də həyat yolum və planlarım seçdiyim ixtisasa aid sahədə çalışmaqla xalqa xidmət etməkdir.*
*2. Çəkilən zəhmət hədər getmir. Lazımi bilikləri əldə etmək üçün məqsədyönlülük, dözüm və inadkarlıq mütləq müvəffəqiyyətə gətirib çıxarır. Bu yolda hamıya uğurlar diləyirəm!*



## POLADOV İLQAR İLHAM OĞLU

637.875 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 258 saylı orta məktəbin məzunudur.
Atası Mak Dermott şirkətində sürücüdür.
Anası işləmir.

*1. Bu ixtisasa daxil olmaq mənim çoxdankı arzum idi. İnşallah bir mütəxəssis kimi dövlətimə və xalqıma layaqətlə xidmət edəcəyəm.*
*2. Həmişə yaxşı oxusunlar. Əsl biliyin qarşısını heç bir şey kəsə biləmz. Həmişə müəllimlərinizə və dərslərinizə qarşı məsuliyyətli olun.*



## VƏLİYEVA TOMRİS XANLAR QIZI

637.750 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 7 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 3 saylı uşaq poliklinikasında baş həkimdir.

*1. Bu ixtisasa böyük marağım var və ümid edirəm ki, gələcəkdə bu sahənin yaxşı bir mütəxəssisi olacam.*
*2. Gələcək abituriyentlərə hazırlıq müddətində möhkəm çalışmağı, dərslikləri dərindən mənimsəməyi, "Abituriyent" jurnalından səmərəli istifadə etməyi məsləhət görürəm.*



## QASIMLI ORXAN SAHİB OĞLU

632.232 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Uşaqlıq vaxtlarımdan hüquqşunaslığa böyük marağım olub. Babamın hüquqşunas olması məni daha da ruhlandırıb. Bu ixtisasa kamil şəkildə yiyələnməklə ədalətin bərqərar olmasında yorulmadan çalışacağam.*
*2. Gələcək abituriyentlərə biliklərə yiyələnmək üçün qüvvələrini əsirgəməməyi və vaxtı qiymətləndirməyi məsləhət görürəm.*



## NOVRUZOV ƏLİ SƏİDQULU OĞLU

630.626 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl Türk liseyinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Azərbaycan daim çarpışan böyük dövlətlərin maraqlarının kəsişdiyi ölkədir. Vətənimizin suverenliyi uğrunda mübarizə aparan diplomatlarımızın sırasında özümü də görmək istərdim.*
*2. "Ali məktəbə daxil olum" deyə kortəbii hazırlaşmaq əvəzinə qarşılarına dəqiq məqsəd qoyaraq ona uyğun hərəkət etsinlər. Çünki məqsədli insanı qarşısına çıxan bütün bağlı qapıları açan açara bənzətmək olar.*



## BECANOV SAMİR ARİF OĞLU

630.250 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 80 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Nəqliyyat Departamentində dispetçerdir.
Anası Bakı şəhəri Nərimanov rayon sosial xidmət şöbəsində işləyir.

*1. Mən hələ 5-ci, 6-cı sinifdə oxuyan zamandan bu ixtisasa qəbul olmaq arzusuna düşmüşəm. Ona yiyələnməklə gələcəkdə xalqımıza sədaqətlə xidmət edən bir vətəndaş olmaq istəyirəm.*
*2. Verilmiş materiallara səthi yanaşmasınlar, onları dərindən, məntiqi qanunauyğunluqları dərk edə-edə öyrənsinlər. "Abituriyent" jurnalının buraxılışlarını daim izləsinlər. Dərs materiallarından əlavə xəritələrdən, əyani vasitələrdən və digər mənbələrdən də istifadə etsinlər.*



## MUSTAFAYEV TALEH BALOĞLAN OĞLU

627.000 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 239 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisasa yiyələnməkdə əsas məqsədim respublikamızın inkişafı prosesində yaxından iştirak etmək, xalqımızın tarixində xüsusi xidmətləri olan şəxsiyyət kimi formalaşmaqdır.*
*2. Qəbula hazırlıq prosesində hərtərəfli həyat tərzi keçirsinlər və yaddan çıxarmasınlar ki, həyatda idman, istirahət və gözəllik kimi anlayışlar da var. Bir də ki, insanın ən böyük məqsədi ali məktəbə daxil olmaq deyil, onu müvəffəqiyyətlə bitirib xalqa xidmət etməkdir.*



## HÜSEYNOVA AYGÜN ZÜLFÜQAR QIZI

626.250 balla Bakı Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı ixtisasına qəbul olub.
Füzuli rayonu 59 saylı orta məktəbin məzunudur.
Atası Füzuli rayon hərbi komissarlığının 4-cü bölməsində xidmət edir.
Anası işləmir.

*1. Bu ixtisası seçməkdə məqsədim gələcəkdə məktəbdə müəllim işləyərkən şagirdlərimə ana dilimizi mükəmməl öyrətməkdən ibarətdir.*
*2. Respublikamızda qəbul imtahanında biliyə obyektiv qiymət verilir, odur ki, imtahanlara inamla hazırlaşsınlar.*



## MUSAYEV NİCAT ŞAKİR OĞLU

625.000 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 286 saylı orta məktəbin məzunudur.
Atası Səhiyyə Nazirliyi Məhkəmə Tibbi Ekspertizası və Patoloji Anatomiya birliyinin direktoru, Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiridir.
Anası Azərbaycan Dəmiryolu idarəsi Biləcəri mərkəzi xəstəxanasında həkimdir.

*1. Azərbaycanın xarici siyasətində onu uğurla təmsil edən bir diplomat olmaq, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsinə öz vətəndaş borcumu vermək istəyirəm.*
*2. TQDK-nın dərc etdiyi imtahan proqramlarından, "Abituriyent" jurnalının xüsusi buraxılışdarından və dərsliklərdən çox səmərəli istifadə etməyi tövsiyə edərdim.*



## NƏBİLİ FƏRİD NƏBİ OĞLU

624.553 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Mingəçevir şəhəri 2 saylı orta məktəbin məzunudur.
Atası Mingəçevir şəhəri "8 Market"in müdiridir.
Anası Mingəçevir şəhəri 10 saylı orta məktəbdə müəllimdir.

*1. Uşaqlıqdan hüquqa, qanunlara marağım olub. Universitetdə əla oxuyub, dövlətə yararlı bir hüquqşünas kimi yetişmək və fəaliyyət göstərmək istəyirəm.*
*2. İmtahanlara hazırlaşmağa bacardıqları qədər tez başlasınlar və "Abituriyent" jurnalından maksimum istifadə etsinlər.*



## İSMİXANOV ZAUR CƏLAL OĞLU

624.251 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Mən gələcək şəxsi arzularımı reallaşdırmaq üçün bu ixtisası seçmişəm. Zənnimcə, buna nail olacağam. Mən təhsilimi uğurla başa vurub, ixtisasım üzrə işləməyi planlaşdırıram.*
*2. Müəllimlərinin tapşırıq və tövsiyələrinə diqqətlə qulaq asmağı məsləhət görürəm.*



## İSGƏNDƏRZADƏ FƏRİD ANAR OĞLU

623.394 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Qubadlı rayonu Balakişi Hüseynov adına Dəmirçilər kənd orta məktəbinin məzunudur.
Atası BDU-nun tarix fakültəsində kafedra müdiridir.
Anası "Çinar" müəssisəsində hüquqşunasdır.

*1. Halal zəhmətlə dolanan bir ailənin övladı kimi, doğma Azərbaycanımızda qanunçuluğun keşiyində duracaq və rüşvətxorluğa qarşı həmişə mübarizə aparacağam.*
*2. Əzbərçilikdən uzaq olsunlar, məntiqi düşünsünlər, fənləri yaxşı mənimsəsinlər, suallara variantsız cavab verə bilsinlər. Belə olduqda onlar testləri çox asanlıqla aydınlaşdırarlar. Gələcək abituriyentlərə uğurlar arzulayıram.*



## CƏFƏRLİ ZAUR MƏSUD OĞLU

620.750 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 19 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri 19 saylı orta məktəbdə müəllimdir.

*1. Müstəqillik əldə etdikdən sonra hər bir dövlətin qarşısında duran ən böyük vəzifə beynəlxalq aləmdə tanınmaq və dəstək almaqdır. Mənim arzum dövlətimizi layiqincə təmsil etməkdir.*
*2. Orta məktəbi yaxşı oxusunlar, sınaq imtahanlarında yüksək nəticə əldə edib qürrələnməsinlər və, əlbəttə, onlara uğurlar arzulayıram.*



## MİRZƏYEV RUSLAN ALİM OĞLU

620.715 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası Azərbaycan Tibb Universitetində travmatologiya və ortopediya kafedrasında assistentdir.
Anası işləymir.

*1. Hüquqşünaslığın ən mühüm istiqamətlərindən biri insanların hüquq, azadlıq və vəzifələrini müəyyənləşdirməkdir. Bu ixtisası seçməklə mən cəmiyyətdəki hüquq pozuntularının qarşısını almağa, insanların hüquq və azadlıqlarını qorumağa çalışacağam.*
*2. Hər bir abituriyent öz gücünə və savadına inansın. Çünki o, inamla, səbrlə, davamlı olaraq çalışsa, istədiyi zirvəni fəth edə bilər.*



## ZEYNALOVA REYHANƏ RAMİZ QIZI

620.625 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Ucar rayonu Qazyan kənd 1 saylı orta məktəbinin məzunudur.
Atası Ucar rayonu Qazyan kənd 1 saylı orta məktəbinin direktorudur.
Anası Ucar rayonu Qazyan kənd 1 saylı orta məktəbində müəllimdir.

*1. Bu ixtisasa yiyələnmək mənim çoxdankı arzumdur. Mən Azərbaycanı beynəlxalq aləmdə təmsil eləmək və onun hüquqlarını müdafiə etmək istərdim. Bir Azərbaycan vətəndaşı kimi bütün həyatımı buna həsr etməyə hazıram. Gələcəkdə təhsilimi xarici ölkələrdə davam etdirmək fikrindəyəm.*
*2. Ali məktəbə qəbulda yüksək nəticə əldə etmək üçün möhkəm və etibarlı bünövrə olmalıdır. Buna görə də abituriyentlər proqram üzrə verilmiş materialları yaxşı mənimsəməli və "Abituriyent" jurnallarında çıxan test toplularını müntəzəm olaraq həll etməlidirlər.*



## ASLANOVA QUMRAL HÜSEYN QIZI

619.678 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 116 saylı orta məktəbin məzunudur.
Atası ADPU-nun mexanika və molekulyar fizika kafedrasının dosentidir.
Anası Bakı şəhəri 245 saylı orta məktəbdə müəllimdir.

*1. Tez-tez rastlaşdığım haqsızlıqların qarşısını hüquqi cəhətdən almaq iqtidarında olmaq üçün bu ixtisası seçmişəm. Gələcək həyat planlarımda özümü ədaləti və vətəndaşların hüquqlarını müdafiə edən bir hüquqşunas kimi təsəvvür edirəm.*
*2. Gələcək abituriyentlərə yalnız öz bilik və bacarıqlarına arxalanmağı, vaxtlarını və güclərini düzgün bölüşdürməyi, bacarıqlarını doğru istiqamətə yönəltməyi tövsiyə edirəm.*



## ASLANOVA GÜLŞƏN AĞA QIZI

617.750 balla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 39 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri 39 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisası seçməklə mən, nəinki hüquqşunaslığı, eyni zamanda beynəlxalq hüquq normalarını öyrənmiş olacağam. Mən gələcəkdə yaxşı hüquqşunas olmaq, insan hüquqlarının güclü müdafiəçisi olmaq istəyirəm.*
*2. Bütün səylərini qəbula hazırlığa yönəltsinlər və istədikləri ixtisasa daxil olmaq qabiliyyətlərini sınaq imtahanları vasitəsilə yoxlasınlar.*



## QULİYEV KƏNAN MİRZAĞA OĞLU

615.965 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 23 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri təsərrüfat hesablı respublika uroloji xəsəxanasında uroloqdur.
Anası Bakı şəhəri 1 saylı uşaq poliklinikasında həkimdir.

*1. Azərbaycan vətəndaşlarının hüquqlarının keşiyində olmaq, onların və müstəqil dövlətimizin maraqlarını mövcud qanunlar çərçivəsində müdafiə etmək arzusundayam. Düzgün, məntiqili qərarlar çıxaran, sənətini ürəkdən sevən, daim öz üzərində çalışan ədalətli hüquqşunas olmaq ən ümdə amalımdır. Vətənimə gərəkli bir şəxsiyyət kimi yetişmək həyatımın mənasını təşkil edir.*
*2. Orta məktəb dərsliklərini, müəllimlərin dəyərli tövsiyələrini dərindən mənimsəsinlər, seçdikləri ixtisasdan asılı olmayaraq bütün fənləri öyrənməyə çalışsınlar.*



## HACIYEVA LEYLA MƏCİD QIZI

615.375 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 43 saylı orta məktəb-liseyin məzunudur.
Atası Bakı şəhəri Nərimanov rayonu RTŞ-də mühasibdir.
Anası Bakı şəhəri 15 saylı uşaq poliklinikasında həkimdir.

*1. Mənim arzum respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərindən birində çalışmaqdır. Məhz ona görə bu ixtisası seçmişəm. Mən yaxın gələcəkdə əvvəlcə Azərbaycanda olan hər hansı bir səfirlikdə işləmək, sonra isə xarici ölkədə səfir olmaq və ölkəmizi layiqincə təmsil etmək istəyirəm.*
*2. Durmadan oxusunlar, çünki oxuyanın zəhməti heç zaman hədər getmir. Onlar ən azı 1 il səylə çalışsalar, bunun bəhrəsini bütün ömürləri boyu görəcəklər.*



## ŞABANOV MUSTAFA SABAHƏDDİN OĞLU

615.249 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Gəncə şəhəri Kəpəz rayonu 20 saylı dəmiryolu məktəbinin məzunudur.
Atası "Elnur" firmasının müdiridir.
Anası işləmir.

*1. Mən hələ uşaq yaşlarımdan diplomatiyaya, hüquqşunaslığa meylli olmuşam. Gələcək üçün məqsədim: Azərbaycanın Fransada səfiri olmaq və dövlətimizin xarici siyasətini davam etdirmək, orada Azərbaycan diasporu yaratmaqdır.*
*2. Yaxşı olardı ki, onlar imtahanlara 2 ay qalmış yox, ən azı bir il əvvəldən hazırlaşmağa başlasınlar, orta məktəb dərsliklərindən əlavə "Abituriyent" jurnalından və digər köməkçi vasitələrdən də yararlansınlar. Bir şeyi də unutmasınlar ki, yüksək bal toplamaq üçün qəbula aşağı siniflərdən hazırlaşmaq lazımdır. Bütün dərslərə hazırlıqlı getmək elə imtahanlara hazırlaşmaq deməkir.*



## MƏHƏRRƏMOVA KÖNÜL YOLÇU QIZI

613.126 balla Azərbaycan Dillər Universitetinin tərcümə (ingilis dili) ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 202 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri "Fərid" firmasında işləyir.
Anası Bakı şəhəri 202 saylı orta məktəbdə müəllimdir.

*1. Uşaqlıqdan ingilis dilinə böyük marağım var. Özümü gələcəkdə tam hazırlıqlı bir tərcüməçi kimi görmək istərdim.*
*2. Gündəlik dərslərə səmərəli hazırlaşmaq. "Abituriyent" jurnalının bütün nömrələrini əldə etmək, onlardan istifadə etmək. Bu jurnal onlara imtahanda gözəl nəticələr əldə etməyə böyük yardımçı olacaq.*



## MƏMMƏDOVA ANARA ETİBAR QIZI

611.251 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 194 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 245 saylı orta məktəbdə müəllimdir.

*1. Arzuladığım ixtisasdır. Düşünürəm ki, bu ixtisasa yiyələnməklə gələcək həyatda özüm üçün müəyyən bir karyera yarada biləcəyəm.*
*2. X və XI siniflərdən imtahan anlayışına ciddiyyətlə yanaşsınlar. Bacardıqları qədər müəllimlərdən çox şey öyrənsinlər və öz üzərlərində çox çalışsınlar.*



## CƏLİLOV ORXAN ZİRƏDDİN OĞLU

610.625 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 190 saylı orta məktəbin məzunudur.
Atası Mərkəzi Seçki Komissyasında şöbə müdiridir.
Anası Bakı şəhəri Yasamal rayon Gigiyena və Epidemologiya Mərkəzində işləyir.

*1. Bir diplomat kimi müstəqil dövlətimizi digər dövlətlər qarşısında şərəflə təmsil etmək mənim ən böyük arzumdur.*
*2. İmtahanlara sistemli və məqsədyönlü hazırlaşsınlar.*



## İSMAYILOVA AYSEL DİLQƏM QIZI

608.732 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Qubadlı rayonu Balakişi Hüseynov adına Dəmirçilər kənd orta məktəbinin məzunudur.
Atası Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-hüquqi Tədqiqatlar İnstitutunda sosial fəlsəfə şöbəsinin böyük elmi işçisidir.
Anası Bakı Dövlət Universitetində müəllimdir.

*1. Mən millətimi, Vətənimi çox sevirəm. Azərbaycan vətəndaşlarının hüquqlarının keşiyində duran ədalətli hüquqşunas olmaq istəyirəm.*
*2. Daim oxusunlar, biliklərə dərindən yiyələnsinlər.*



## MUSAYEV HÜSEYN ELXAN OĞLU

608.250 balla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub.
Şəki şəhəri Kiş kənd 1 saylı orta məktəbinin məzunudur.
Atası Şəki rayonu Kiş kənd 1 saylı orta məktəbində müəllimdir.
Anası Şəki rayonu Kiş kənd 1 saylı orta məktəbində işləyir.

*1. Bu ixtisası özüm sevib-seçmişəm. Azərbaycanımızın dünya şöhrətli bir ölkə olması, sivil bir məmləkət olması üçün biz gənclərin üzərinə düşən vəzifəni dərk edirəm. Gələcək həyat planım Vətənimin tərəqqisi naminə vicdanla çalışmaqdır.*
*2. 1) Orta məktəbdə, həqiqi mənada, səylə çalışmaq; 2) Müəllimlərin bilik və öyrətmə imkanlarından bacarıqla istifadə etmək; 3) "Abituriyent" jurnalında dərc olunan bütün materialları diqqətlə izləmək, test bankları ilə səbrlə işləmək; 4) Müasir həyatdan geri qalmamaq (kompüter, internet, televiziya və s. vasitələrdən də istifadə etməyə çalışmaq).*



## MƏMMƏDOV KAMRAN ABİD OĞLU

606.250 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 163 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri "Kontakt" firmasında müdir müavinidir.
Anası Bakı şəhəri 163 saylı orta məktəbdə müəllimdir.

*1. Arzum nüfuzlu diplomat olmaqdır.*
*2. Zəhmətsevər, inadkar və məqsədyönlü olmağı tövsiyə edirəm.*



## TAĞIYEVA LƏMAN ELBRUS QIZI

606.250 balla Azərbaycan Dillər Universitetinin ingilis dili və ədəbiyyatı ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 102 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Anamın arzusu ilə bu ixtisası seçmişəm.*
*2. Uğurlar arzulayıram.*



## ƏKBƏRLİ BƏHRUZ CAMAL OĞLU

605.000 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl Türk Liseyinin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Hər şeyin zamana ehtiyacı var. Bizim həyatda nə kimi mövge tutacağımızı zaman göstərəcək.*
*2. Hədər yerə vaxt itirməsinlər. Gələcəkdə "axı mən niyə o vaxt çox oxumadım" deməkdənsə, indidən səylə çalışsınlar. Axı, proqramı heç kim birdən-birə robot kimi tam mənimsəyə bilməz. Çalışmaq lazımdır ki, bacardığın qədər çox öyrənəsən.*



## BƏYLƏR ELGÜN NUĞAY OĞLU

604.644 balla Polis Akademiyasının hüquqşünaslıq ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu Bakı Özəl Türk Liseyinin məzunudur.
Atası təqaüdçüdür.
Anası Şuşa şəhər poliklinikasında sahə həkimidir.

*1. Bu ixtisası, əvvəla, Azərbaycana layiqincə xidmət etmək üçün, ikincisi də, iş təminatı olduğu üçün seçmişəm. Ən böyük arzum isə Azərbaycan Respublikasının Daxili İşlər Naziri olmaqdır.*
*2. Tarix kitablarını oxuyarkən kitabın kənarındakı qeyd və sualları da cavablandırın. Coğrafiya fənnində xəritədən geniş istifadə edin. Bütün əsas fənlər üzrə test bankının suallarını həll edin. TQDK-nın təşkil etdiyi bütün sınaq imtahanlarında iştirak edin. Bunlar Sizə uğur qazandıracaq.*



## VƏKİLOV KƏNAN ŞÖHRƏT OĞLU

604.375 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 7 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Azərbaycan Milli Elmlər Akademiyasında işləyir, elmlər doktorudur.

*1. Beynəlxalq münasibətlər dünənin, bu günün və sabahın ixtisasıdır.*
*2. Ürəklərindən gələn səsin çağırışı ilə hərəkət etsinlər.*



## SALMANOV FƏRİD ƏLİ OĞLU

603.482 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Salyan rayonu 8 saylı şəhər orta məktəbinin məzunudur.
Atası Salyan rayonu 8 saylı orta məktəbində müəllimdir.
Anası Salyan rayonu 8 saylı orta məktəbində müəllimdir.

*1. Hüquqşünas olmaq mənim ən böyük arzumdur.*
*2. Ciddi hazırlaşsınlar, TQDK-nın və "Abituriyent" jurnalının elmi-metodiki köməyindən maksimum səmərəli istifadə etsinlər.*



## HÜSEYNOV RUSLAN CƏMİL OĞLU

601.875 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası Bakı şəhəri "Dadlılar" makaron fabrikində baş direktordur.
Anası işləmir.

*1. Arzum səfir olmaq olduğundan bu peşəni seçmişəm. İnanıram ki, xalqıma xeyirli bir şəxs olacağam.*
*2. Vaxtlarını boş keçirmsinlər, bu günün işini sabaha qoymasınlar, bol-bol test sualları həll etsinlər.*



## ƏLİYEV HÜSEYN ATİN OĞLU

601.500 balla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub.
Gəncə şəhəri Nizami rayonu 11 saylı orta məktəbin məzunudur.
Atası Gəncə şəhəri ruhi əsəb dispanserində şöbə müdiridir.
Anası Gəncə şəhəri ruhi əsəb dispanserində həkimdir.

*1. Mən həmişə səfir olmaq istəmişəm. Gələcəkdə diplomat olub, ölkəmizin bayrağını bacardığım qədər yüksəklərə qaldırmağa çalışacağam.*
*2. İmtahana yeni dərs vəsaitlərindən istifadə etməklə hazırlaşmalıdırlar. Yaxşı hazırlıqlı şagird öz istədiyi ixtisasa qəbul ola bilir.*



## XUDAYEV KƏRİM BAHƏDDİN OĞLU

600.394 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.
Gürcüstan Respublikası Marneuli şəhəri orta internat məktəbinin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri 2 saylı qadın məsləhətxanasında həkimdir.

*1. Mən uşaqlıqdan prokuror və ya vəkil olmaq istəyirəm. Bu ixtisasa yiyələnməklə mən gələcək həyatda özümü ləyaqətli və peşəkar bir hüquqşünas kimi görürəm. Gələcəkdə vəzifəmi yüksək səviyyədə yerinə yetirməklə xalqımıza layiq bir hüquqşunas olmaq istəyirəm.*
*2. Ciddi hazırlaşmaq, kənar işlərdən və əyləncələrdən uzaqlaşmaq, müəllimlərin dediklərinə diqqətlə yanaşmaq, öyrəndikləri materialları dəfələrlə təkrar etməklə biliklərini möhkəmləndirmək. Bu məsləhətlərə əməl edən abituriyentlərin qəbul imtahanlarında yüksək nəticə göstərəcəklərinə inanıram.*

# IV QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### MƏMMƏDOVA AYTƏN SİRAC QIZI

675.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 83 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 246 saylı orta məktəbdə müəllimdir.

*1. Bu sualı mənə çox veriblər. Uşaqlıqdan məndən nəçi olacağımı soruşanda həmişə həkim olacağımı demişəm. Bəlkə də bu istəyi mənə yaxınlarım təlqin edib. Sonra da təhsil aldığım mühit (kimya-biologiya təmayüllü sinifdə oxuyurdum), müəllimələrimin və valideyinlərimin məsləhəti, təbiət və texniki fənlərə üstünlük verməyim və əlbəttə ki, öz şəxsi arzu və amalım mənim bu ixtisası seçməyimə səbəb olub. Mən artıq bu yolun başlanğıcındayam. Planlarım çoxdur. Yəgin ki, hər şeyi gələcək göstərəcək.*
*2. İstərdim ki, hər bir abituriyent öz xarakter və potensialını nəzərə alıb ixtisas seçsin və ona yiyələnmək uğrunda yorulmadan mübarizə aparsın. Bu yolda onlara tükənməz enerji arzulayıram. Məsləhət görürəm ki, imtahan qabağı yayılan şayiələrə inanıb özünüzü qorxutmadan, çəkinmədən, səylə, inadla, qətiyyətlə çalışın. İstirahətinizdən də qalmayın. İmtahanda hansı vəsaitdən necə istifadə etmək haqqında fikirləşib özünüzü yormayın. Yalnız özünüzə inanıb, Allaha, öz biliyinizə arxalanıb imtahan versəniz, nəticəniz ürəyinizcə olar. İnanın ki, əziyyətiniz də hədər getməz. Bu yolda sizə uğurlar arzulayıram.*



### HÜSEYNOV RADİL RAMİZ OĞLU

674.286 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Masallı rayonu Qızılavar kənd orta məktəbinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisası mən uşaqlıqdan seçmişəm. Ona mükəmməl yiyələnməklə həyatda layiqli yer tutacağıma və cəmiyyətin gərəkli üzvü olacağına inanıram.*
*2. Yüksək nəticə əldə etmiş abituriyent kimi onlara məsləhətim budur ki, qəbul imtahanına orta məktəb dərsliklərini mükəmməl mənimsəməklə, TQDK-nın "Abituriyent" jurnalında buraxdığı qəbul proqramları, metodiki tövsiyələr və test tapşırıqlarından istifadə etməklə sistemli şəkildə hazırlaşsınlar.*



### İBRAHİMOVA NƏRMİN ELKÖMƏK QIZI

674.286 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 83 saylı orta məktəbin məzunudur.
Atası Şuşa Rayon İstehlak Cəmiyyətinin sədridir.
Anası işləmir.

*1. Bu ixtisasa yiyələnmək mənim uşaqlıqdan böyük arzum olub. Mən tibb elminin dərinliklərinə yiyələnməklə çalışacağam ki, insanların sağlamlığının keşiyində durum. Ən böyük arzum isə doğma Şuşa şəhərində işləmək və insanlara əlimdən gələn köməkliyi etməkdir.*
*2. Gələcək abituriyentlərə məsləhətim budur ki, öz üzərlərində yorulmadan çalışsınlar. Əmin olsunlar ki, tələbə adını qazanmaq böyük səylə çalışmaq nəticəsində əldə edilir.*



### BAYRAMOV FƏRRUX TAHİR OĞLU

669.321 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Xızı rayonu Sitalçay Hərbi hissə kənd orta məktəbinin məzunudur.
Atası Hava Hücumundan Müdafiə Qoşunları və Hərbi Hava Qüvvələri poliklinikasında hərbi həkimdir.
Anası Xızı rayonu Sitalçay hərbi hissə orta məktəbində müəllimdir.

*1. Hazırki şəraitdə Vətənimizin yüksək ixtisaslı kadrlara böyük ehtiyacı var. Xüsusən də, savadlı həkimlərə daha çox ehtiyacı var. Bu ixtisasa yiyələnməklə gələcəkdə əlacsız xəstələrə şəfa vermək istərdim.*
*2. TQDK-nın Sizin üçün yaratdığı əlverişli şəraitdən düzgün və səmərəli istifadə etməyə çalışın.*



### QULİYEVA NƏRMİN RAHİB QIZI

664.018 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu kimya-biologiya təmayüllü liseyin məzunudur.
Atası DİN Bakı Yanğın Texniki Məktəbində tibb xidmətinin rəisidir.
Anası Bakı Hidrolayihə İnstitutunda mühəndisdir.

*1. Humanist bir peşə olduğuna görə bu ixtisası seçmişəm. Yüksək ixtisaslı həkim olaraq xalqımın sağlamlığının keşiyində durmağı arzu edirəm.*
*2. İbtidai siniflərdən başlayaraq 11-ci sinfə qədər bütün dərs proqramlarına tam yiyələnməyi məsləhət görürəm.*



### BABAŞOV FƏRİD VİDADİ OĞLU

661.608 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 34 saylı orta məktəbin məzunudur.
Atası "Klassik–Aİ" LTD şirkətində baş direktorun müavinidir.
Anası Bakı şəhəri 34 saylı orta məktəbdə müəllimdir.

*1. Bu mənim daxili aləmimdən gələn güclü bir istəkdir. Mən gələcəkdə Azərbaycanın məşhur həkimlərindən olmaq istəyirəm.*
*2. Əsas məsləhətim: səylə çalışmaq, sistemli oxumaq və düşünmək. Əlbəttdə, TQDK-nın nəşr etdiyi metodiki materialları ardıcıl şəkildə izləmək və bunlardan səmərəli istifadə etmək.*



### MƏMMƏDOVA NİGAR SAHİB QIZI

661.125 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bərdə rayonu 6 saylı orta məktəbin məzunudur.
Atası "Uşaqları qoruyun" təşkilatında menecerdir.
Anası Bakı şəhəri "Sağlamlıq sahəsi" poliklinikasında həkimdir.

*1. Birincisi, anam həkim olduğu üçün məndə bu ixtisasa hələ uşaqlıqdan meyl yaranıb, ikincisi də, 2000-ci ildə nənəmin üzərində göz əməliyyatı keçirildikdən sonra mənim bu istəyim daha da möhkəmləndi. Mən gələcəkdə yüksək ixtisaslı həkim olub öz şəxsi klinikamı açmaq istəyirəm.*
*2. Ancaq möhkəm oxumaq və biliklərə dərindən yiyələnmək. Çünki mən öz təcrübəmdən də əmin oldum ki, ali məktəbə qəbul olmağın yeganə amili dərin bilikdir.*



### QULUYEV ELMİR RASİM OĞLU

660.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Şuşa şəhər 5 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Şuşa şəhəri 5 saylı orta məktəbdə müəllimdir.

*1. Həkim olmaq mənim çoxdankı arzumdur. Özüm tez-tez xəstələndiyimdən bu ixtisası seçdim.*
*2. İmtahanlara qəbul proqramı əsasında hazırlaşsınlar, "Abituriyent" jurnalında verilən tövsiyələr və test sualları ilə yaxından tanış olsunlar.*



### ƏLİYEV ALTAY ƏLİ OĞLU

659.821 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin məzunudur.
Atası "Azərneftyağ" müəssisəsində büro rəisidir.
Anası Bakı şəhəri 287 saylı "Zəkalar" liseyində müəllimdir.

*1. Azərbaycan torpağı bəşəriyyətə neçə-neçə tanınmış həkimlər bəxş edib. Mən bu ənənələrin davamçısı olmaq, xalqın sağlamlığının keşiyində durmaq, neçə-neçə insanın ömrünü yarımçıq qoyan xəstəliklərin səbəbini tapmaq üçün bu ixtisası seçmişəm.*
*2. Dahi Nizaminin dediyi kimi, qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz – fikrini əsas tuturaq gələcək abituriyentlərə ciddi çalışmağı məsləhət görürəm.*



### KƏRİMOVA NƏZAKƏT QURBANƏLİ QIZI

658.483 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Şəki şəhəri 10 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Azərbaycan Beynəlxalq Bankının Şəki filialında kiçik mühasibdir.

*1. Bu peşəni uşaqlıqdan arzuladığıma və böyüklərim də mənə məhz onu məsləhət gördüyünə görə seçmişəm. Savadlı, insanların güvəndikləri və sevdikləri bir həkim olmaq istəyirəm.*
*2. Peşə seçdikdə ciddi düşünsünlər. Fikirləşsinlər ki, bu sənətin öhdəsindən həqiqətən gələ biləcəklərmi? Seçimlərini etdikdən sonra isə müvafiq fənlərə ciddi hazırlaşsınlar, təbii ki, digər fənlərə barmaqarası yanaşmamaq şərtilə. Və dərsi sabah müəllimə cavab vermək xatirinə yox, gələcəkdə böyük mütəxəssis olmaq üçün oxusunlar.*



### NƏCƏFALIYEVA AYNURƏ SƏFƏRALI QIZI

650.446 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 286 saylı orta məktəbin məzunudur.
Atası B.Ş.TTTYS-nın 7 saylı Y/S-də səyyar həkimdir.
Anası Bakı şəhəri 13 saylı uşaq poliklinikasında həkimdir.

*1. Mən çox kiçik yaşlarımdan həkim olmağı arzu etdiyimdən bu ixtisası seçmişəm. Ali təhsil aldıqdan sonra xalqımın sağlamlığı keşiyində durmaq, xəstə insanlara tibbi yardım göstərmək, bilikli və bacarıqlı həkim olmaq ən böyük arzumdur.*
*2. TQDK-nın "Abituriyent" jurnalında dərc etdiyi materiallarla yaxından tanış olmaq və qəbul imtahanlarına yaxşı hazırlaşmaq mənim abituriyentlərə tövsiyəmdir.*



## MUSTAFAYEVA CAHAN MALİK QIZI

646.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Masallı rayonu Qızılavar kənd orta məktəbinin məzunudur.
Atası Masallı rayonu Qızılavar kənd orta məktəbində müəllimdir.
Anası Masallı rayonu Qızılavar kəndindəki tibb məntəqəsində tibb bacısıdır.

*1. İnsan üçün həyatda ən vacib nemət cansağlığıdır. İnsanların sağlamlığını bərpa etməyi mən çox böyük xoşbəxtlik hesab etdiyimdən bu ixtisası seçmişəm. Gələcəkdə özümü tanınan bir kardioloq həkim kimi təsəvvür edirəm. Gələcək həyat planlarıma gəldikdə bu sahədə çox böyük uğurlar əldə etmək və Azərbaycanı bu sahədə dünyada təmsil etmək istəyirəm.*
*2. Yalnız oxumaq lazımdır. Əgər siz oxumağı, həqiqətən, sevirsinizsə və heç bir məlumatı diqqətinizdən qaçırmırsınızsa, onda mütləq ali məktəbə qəbul olacaqsınız.*



## HÜSEYNOV TOFİQ VAQİF OĞLU

644.571 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Qaradağ rayonu 273 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 16 saylı texniki peşə liseyində müəllimdir.

*1. İxtisaslar içərisində mənim üçün ən gözəli həkimlikdir. Çünki insanların sağlamlığı məhz həkimdən asılıdır və insan cəmiyyətini həkimsiz təsəvvür etmək olmaz. Mən gələcəkdə savadlı cərrah olmaq, tibb elminin inkişafında müəyyən işlər görmək istərdim.*
*2. İmtahana səbrlə, dözümlə və həmçinin həvəslə hazırlaşsınlar. Əgər seçdiyin qrupa aid fənləri həvəslə oxusan və hər bir dərsi dərinliyinə qədər bilsən, onda sən qəbul imtahanını müvəffəqiyyətlə verə bilərsən. İmtahan fənləri üzrə testləri həll etdikcə bu sənin həmin fənlərə marağını daha da artıracaq. Hər bir testə dəqiqliklə və dərin məntiqlə yanaşmaq lazımdır.*



## HACIYEVA AYTƏN SABİR QIZI

644.286 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 23 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Tibb Universitetinin cərrahi xəstəliklər kafedrasının dosentidir.
Anası Bakı şəhəri 3 saylı uşaq poliklinikasında həkimdir.

*1. Mən müalicə işi fakültəsinə qəbul olmağı ona görə qərar aldım ki, valideynlərim həkimdir və mən də onların yolunu davam etdirmək istəyirəm.*
*2. Qəbul imtahanlarına ciddi hazırlaşmaq lazımdır. Həmişə analoqları axtarın, ilk baxışda fərqli olan şeylər arasındakı uyğunluqu tapmağa çalışın. Test suallarını, onların şərtlərini özünüzçün diqqətlə aydınlaşdırmağa çalışın.*



## EYVAZOV KAMİL ELŞAD OĞLU

644.018 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Sumqayıt şəhəri texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.
Atası Sumqayıt şəhəri 37 saylı orta məktəbin direktorudur.
Anası Sumqayıt şəhəri 34 saylı məktəbdə müəllimdir.

*1. Gələcəkdə tanınmış və savadlı bir mütəxəssis olmaq istədiyim üçün bu ixtisası seçmişəm.*
*2. Müəllimlərin tapşırıqlarına diqqətlə qulaq assınlar, TQDK-nın məsləhət və tövsiyələrinə ciddi əməl etsinlər.*



## QASIMOVA RƏFİQƏ ÇİNGİZ QIZI

643.911 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Şamaxı rayonu Şirvan kənd orta məktəbinin məzunudur.
Atası "AzEvroTel"birgə müəssisəsində mühəndisdir.
Anası işləmir.

*1. Məncə, həkimlik ən lazımlı və ən şərəfli sənətlərdən biridir. Mən həmişə həkim olmağı arzulamışam. Çox istərdim ki, mən də xalqımın sayılıb-seçilən həkimlərindən biri olum.*
*2. Çox ciddi çalışmağı məsləhət görərdim. Mütləq ciddi zəhmət çəkmək lazımdır. Çünki zəhmətsiz heç nəyə nail olmaq mümkün deyil.*



## BAXŞƏLİYEV ƏLİ NİZAMİ OĞLU

642.946 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu 20 saylı orta məktəb-liseyin məzunudur.
Atası vəfat edib.
Anası Bakı şəhəri 17 saylı poliklinikada həkimdir.

*1. Bizim ailəmiz həkimlər ailəsidir. Babam Baxşəliyev Məmməd hərbi həkim – tibb xidməti mayoru, "Şöhrət" ordenli veteran olub (1941-1945), bibim, atam, anam və çoxlu sayda qohumlarım həkimdir. Mənim də bu sənətə böyük ehtiramım var. İnsana ömür bəxş etmək ən böyük arzumdur.*
*2. Yalnız bir məsləhətim var: yorulmadan oxumaq, öyrənmək. Bu istiqamətdə ən gözəl bələdçiniz TQDK-nın hazırlıq kursları ola bilər.*



## İBADOVA GÜLLÜ HAQVERDİ QIZI

642.036 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 47 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Tibb Universitetinin hərbi kafedrasının müəllimidir.
Anası Bakı şəhəri 47 saylı orta məktəbdə müəllimdir.

*1. Mən kiçik yaşlarımdan həkim olmaq istəmişəm. Çünki insanlara şəfa bəxş etməyi ən şərəfli iş sanmışam. Mən dərin savad, bilik qazanıb, dünyanın korifey tibb alimlərindən biri olmaq istəyirəm.*
*2. Ən başlıcası həvəs, daxili istək, yüksək iradə, dərslikləri yorulmadan oxumaq, "Abituriyent" jurnallarından istifadə etmək, müəllimlərin hər bir sözünü diqqətlə dinləmək – bunlardır mənim abituriyentlərə məsləhətim.*



## QƏRİBOV CAVİD QƏLƏNDƏR OĞLU

640.983 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bərdə rayonu N.Gəncəvi adına 2 saylı orta məktəbin məzunudur.
Atası Bərdə rayonu poliklinikasında diş həkimidir.
Anası Bərdə rayonu 2 saylı orta məktəbdə müəllimdir.

*1. Mən bu ixtisası ona böyük həvəsim olduğu üçün seçmişəm. Ona mükəmməl yiyələnməklə mən gələcəkdə məşhur bir cərrah olmaq istəyirəm.*
*2. Onlara demək istərdim ki, ciddi çalışsınlar və hər bir dərsi öyrənəndə əzbərçilikdən çəkinib, onu dərindən öyrənsinlər.*



## İSAYEVA ÜLVİYYƏ ELDAR QIZI

638.946 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 254 saylı orta məktəbin məzunudur.
Atası "Barmek" Azərbaycan elektrik şəbəkəsində mühəndisdir.
Anası Mirqasımov adına Respublika Kliniki Xəstəxanasında tibb bacısıdır.

*1. Mən daha çox insanlarla ünsiyyəti üstün olan peşələri xoşlayıram. Məncə, bu baxımdan həkimlik peşələrin ən birincisidir. Gələcək həyatda özümü insanlara lazım olan bir həkim kimi təsəvvür edirəm.*
*2. Hər şeydən əvvəl insanda özünə inam və özünü qiymətləndirmək qabiliyyəti olmalıdır. Yalnız bu halda hər şeyi planlı şəkildə qurmaq və qarşıya qoyulmuş məqsədə çatmaq olar. Məncə, yalnız müəllimin verdiyi tapşırıqlarla kifayətlənmək və kortəbii sürətdə hazırlaşmaq düzgün deyil, gərək dərs tapşırıqlarına şüurlu və yaradıcı yanaşasan.*



## BAXŞALIYEV NİCAD ƏFLATUN OĞLU

638.536 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 34 saylı orta məktəbin məzunudur.
Atası Bakı Dəmir Yolu Vağzalında baytar həkimidir.
Anası işləmir.

*1. Cəmiyyətin sağlamlığının qeydinə qalmaq üçün bu ixtisası seçmişəm. Var qüvvəmlə çalışaraq yüksək ixtisaslı həkim olacağam.*
*2. Hər bir şagird məktəbdə oxuduğu vaxtdan TQDK-nın dərc etdiyi metodiki materiallar əsasında hazırlaşmalı və test bankında olan hər bir sualı düzgün cavablandırmağı bacarmalıdır.*



## KƏRİMOV RAUF ADİL OĞLU

638.036 balla Azərbaycan Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 267 saylı orta məktəbin məzunudur.
Atası Səhiyyə Nazirliyində müalicə-profilaktika idarəsinin rəisidir.
Anası Bakı şəhəri 8 saylı musiqi məktəbində müəllimdir.

*1. Bu ixtisası seçməklə gələcəkdə gözəl mütəxəsis olub xalqıma xidmət etmək istəyirəm.*
*2. İmtahanlara vaxtında hazırlaşsınlar. Məktəb dərslərini yaxşı oxusunlar, əmin olsunlar ki, ciddi hazırlaşmaqla yüksək nəticə göstərmək mümkündür.*



## BABAYEV RUMİL GÜLOĞLAN OĞLU

636.071 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Sumqayıt şəhəri humanitar və təbiət-riyaziyyat təmayüllü "İstedad" liseyinin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri "Əfsan" gözəllik salonunda saç ustasıdır.

*1. Ümumiyyətlə, mənim bilikli, savadlı insanlara, xüsusilə də həkimlərə böyük hörmətim var. Bəlkə də buna görə mən bu ixtisası seçməli olmuşam. Mənim ən birinci məqsədim Almaniya Federativ Respublikasında təhsil almaqdır. Bundan ötrü mən ingilis dili üzrə mütaliəmi davam etdirirəm. Fikrim budur ki, ATU-da oxuyaraq imtahan verib xarici ölkədə təhsil alım.*
*2. Heç vaxt düşünməsinlər ki, son 2 il müddətində repititor-müəllim yanına getməklə hər şeyi öyrənəcəklər. Onları inandırıram ki, yüksək nəticə əldə etmək üçün 2 il və yaxud 1 il müddətində repititor-müəllim yanına getmək kifayət deyildir. Gərək müvafiq fənlər üzrə bütün proqram materialını mənimsəyəsən. Buna isə aşağı siniflərdən başlamaq lazımdır.*

IV QRUP
ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



## ƏHMƏDOVA PƏRVİN ELDAR QIZI

635.786 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 190 saylı orta məktəbin məzunudur.
Atası Bakı Dövlət Univesitetində müəllimdir.
Anası Bakı şəhəri 176 saylı orta məktəbdə müəllimdir.

*1. Həkim olmaq mənim ən böyük arzumdur. Gözəl həkim olmaq üçün əlimdən gələni edəcəyəm. Çalışacağam ki, xalqın inkişafında az da olsa mənim də əməyim olsun.*
*2. Dərslərini yaxşı oxumağı və "Abituriyent" jurnalından yaradıcılıqla istifadə etməyi məsləhət görürəm.*



## QOCAYEV ANAR QOCA OĞLU

635.518 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 116 saylı orta məktəbin məzunudur.
Atası Qaradağ rayonu Lökbatan qəsəbəsi 19 saylı BŞX-də cərrahdır.
Anası Bakı şəhəri 257 saylı orta məktəbdə müəllimdir.

*1. Bu ixtisasa marağım uşaqlıqdandır. Hər bir insanın həyatda layiqli yer tutması onun özündən asılıdır. İnsan nə qədər çox çalışarsa, bir o qədər yüksək uğur qazanar.*
*2. Hər bir gənc ixtisas seçərkən ilk öncə öz qabiliyyətini nəzərə almalıdır. Digər bir mühüm amil isə həmin sahəyə aid olan fənləri mənimsəmək qabiliyyətidir. İmtahana hazırlaşarkən gərək hər bir fənnə xüsusi diqqət yetirəsən, onu mükəmməl mənimsəyəsən. Belə olan halda insan öz əməyinin bəhrəsini mütləq görər.*



## FEYZULLAYEVA AYNA ZAHİR QIZI

634.446 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Abşeron rayonu Xırdalan qəsəbə 1 saylı orta məktəbinin məzunudur.
Atası Abşeron rayon mərkəzi poliklinikasında həkimdir.
Anası işləmir.

*1. Yüksək ixtisaslı, adlı-sanlı həkim olmaq istəyirəm.*
*2. Məktəb fənlərini yaxşı mənimsəsinlər, sınaq imtahanlarında iştirak etsinlər.*



## ŞIXIYEV EMİN ADİL OĞLU

632.036 balla Azərbaycan Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 248 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 248 saylı orta məktəbdə müəllimdir.

*1. Mən bu sənəti çox sevirəm. Gələcəkdə savadlı kadr kimi yetişib, xalqıma xidmət etmək istəyirəm.*
*2. Səylə çalışsalar və "Abituriyent" jurnalındakı materiallardan səmərəli istifadə etsələr, imtahanda onların heç bir problemi olmaz.*



## NƏCƏFOVA GÜNEL FARİZ QIZI

630.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası özəl şirkətdə firma direktorudur.
Anası işləmir.

*1. Bu ixtisası seçməkdə məqsədim xalqımın sağlamlığı uğrunda daim mübarizə aparmaqdır. Müstəqil Azərbaycan Respublikasının bir vətəndaşı kimi gələcəkdə Vətənimizin daha böyük nailiyyətlər əldə etməsi üçün əlimdən gələni edəcəyəm.*
*2. İlk növbədə məktəb dərslərində biliklərə dərindən yiyələnsinlər, müəllimlərin verdiyi tapşırıqları ardıcıl yerinə yetirsinlər.*



## VƏLİYEV MƏHƏMMƏD MÜSLÜM OĞLU

629.911 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Naxçıvan MR Babək rayonu E.İsmayılov adına Nehrəm 1 saylı kənd orta məktəbinin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Bu ixtisasa mənim uşaqlıqdan çox böyük marağım var. Mən həmişə insanlara kömək etmək istəyirəm. Bu ixtisası da ona görə seçmişəm. İstəyirəm ki, gələcəkdə savadlı, məşhur və xalqıma layiq bir həkim olüm və daha sonra biliyimi təkmilləşdirib professorluq səviyyəsinə yüksəlim.*
*2. İmtahanlara ciddi və sistemli hazırlaşsınlar, dərslik materiallarını diqqətlə oxusunlar, "Abituriyent" jurnalında dərc olunan test tapşırıqlarını və siniflər üzrə buraxılan test kitabçalarındakı sualları diqqətlə yerinə yetirsinlər. Əgər bunlara əməl etsələr, nəticə yaxşı olar.*



## NOVRUZLU ŞAHİN FƏRMAN OĞLU

629.643 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Naxçıvan şəhəri A.Cəlilov adına 12 saylı orta məktəbin məzunudur.
Atası Naxçıvan Respublika Xəstəxanasında şöbə müdiridir.
Anası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində baş mühasibdir.

*1. Həkimlik humanist və məsuliyyətli bir sənət olduğuna görə ona üstünlük vermişəm.*
*2. Oxumaq və oxuduqlarını tətbiq etmək!*



## POLADOVA FƏRİDƏ MEHMAN QIZI

628.733 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 34 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Baş departamentdə yoxlayıcıdır.
Anası 2 saylı tibb texnikumunda müəllimdir.

*1. Anam həkim olduğu üçün uşaqlıqdan məndə də bu sənətə həvəs yaranıb. Gələcəkdə təhsilimi xarici ölkələrin birində davam etdirib, yaxşı göz həkimi olmaq istəyirəm.*
*2. Onlara məsləhət görürəm ki, orta məktəb dərsliklərini yaxşı oxusunlar. Test imtahanlarının texnologiyasını öyrənmək üçün fənlər üzrə test banklarından istifadə etsinlər, ancaq sualları əzbərləməsinlər. Onları əzbərləməyin abituriyent üçün heç bir faydası yoxdur.*



## AHƏNGARİ NİLUFƏR NOEL QIZI

627.143 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Mingəçevir şəhəri təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyin məzunudur.
Atası vəfat edib.
Anası Mingəçevir şəhəri "Ana və uşaq" sağlamlıq mərkəzində həkimdir.

*1. Həkim olmaq və insanların sağlamlığı keşiyində durmaq mənim arzumdur.*
*2. "Abituriyent" jurnalından istifadə etməklə dərslərə müntəzəm və ciddi hazırlaşsınlar.*



## SOFİYEVA NİGAR SADIX QIZI

626.608 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 95 saylı orta məktəbin məzunudur.
Atası "Improtex" istehsalat kommersiya firmasında mühəndisdir.
Anası 9 saylı uşaq poliklinikasında sahə tibb bacısıdır.

*1. Məncə, qadın üçün həkimlik və müəllimlikdən gözəl sənət yoxdur. Bu ikisindən də mən həkimliyi çox sevirəm. Həm də valideyinlərimin ümumi rəyi, anamın tibb bacısı olması istəyimi daha da möhkəmlətdi. ATU-da təhsilin 12 illik olması məni nəinki qorxutmadı, hətta sevindirdi də.*
*2. Onlara daha iradəli və özlərinə qarşı daha tələbkar olmalağı arzu edirəm.*



## MƏMMƏDOV TAPDIQ ELDAR OĞLU

626.250 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 201 saylı orta məktəbin məzunudur.
Atası Azərenerjidə rəis müavinidir.
Anası işləmir.

*1. Bu ixtisası valideyinlərimin məsləhəti ilə seçmişəm. Hər bir vicdanlı vətəndaş kimi mən də Azərbaycanımıza layiqincə xidmət etmək istəyirəm.*
*2. Çox çalışsınlar, amma vaxtlı-vaxtında da istirahət etsinlər.*



## ƏLİYEVA ARZU HACIAĞA QIZI

625.804 balla Azərbaycan Tibb Universitetinin pediatriya ixtisasına qəbul olub.
Laçın rayonu 1 saylı orta məktəbin məzunudur.
Atası Respublika fizika riyaziyyat və informatika təmayullü liseydə müəllimdir.
Anası işləmir.

*1. Kiçik yaşlarımda xəstə olmuşam. Həyatım həkimlərin əlində olduğu vaxtdan uşaq həkimi olmaq və gələcəyimiz olan uşaqların sağlam həyat tərzi keçirməsinə yardımçı olmaq qərarına gəlmişəm.*
*2. Onlar öz qarşılarına konkret məqsəd qoymalı və imtahana hazırlaşmağı axırıncı 1-2 ilə saxlamamalıdırlar. Orta məktəb dərsləri və müəllimlərindən maksimum dərəcədə faydalanmalı və mütəmadi olaraq öz üzərlərində işləməlidirlər.*



## TƏHMƏZOV SƏNAN MƏHƏMMƏD OĞLU

624.964 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bərdə rayonu E.Kərimov adına 4 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bərdə şəhəri 4 saylı orta məktəbdə müəllimdir.

*1. Mən bu ixtisası ən şərəfli peşə hesab edirəm. İstəyirəm ki, gələcəkdə savadlı bir həkim kimi xalqıma xidmət edim.*
*2. İmtahanlara ciddi hazırlaşsınlar, "Abituriyent" jurnalının köməyindən istifadə etsinlər və TQDK-nın keçirdiyi sınaq imtahanlarında iştirak etsinlər.*



## HÜSEYNOVA ŞƏHLA YAŞAR QIZI

623.929 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu kimya-biologiya təmayüllü liseyin məzunudur.
Atası Xaçmaz rayonu Qımıl-qışlaq kənd həkim ambulatoriyasında həkimdir.
Anası Xaçmaz rayonu Qımıl-qışlaq kənd orta məktəbində müəllimdir.

*1. İnsanların sağlamlığına xidmət etmək üçün, səhiyyəmizi daha da inkişaf etdirmək və gücləndirmək üçün mən bu ixtisası seçdim. Özümü gələcəkdə təcrübəli bir cərrah kimi təsəvvür edirəm. Xarici ölkədə təhsil alıb öz Vətənimə qayıtmaq və xalqıma xidmət etmək mənim ən böyük həyat planlarımdan biridir.*
*2. Ən əsas məsləhətim odur ki, nə valideynlərin, nə də başqa şəxslərin müdaxilələrinə, məsləhətlərinə kor-koranə qulaq asmadan sevdikləri və öhdəsindən gələ biləcəkləri ixtisası seçsinlər və öz məqsədlərinə çatmaq üçün dönmədən, var qüvvələri ilə hazırlaşsınlar.*



## MEHDİYEVA FƏRƏH YAQUB QIZI

622.036 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Müasir Təhsil Kompleksinin məzunudur.
Atası Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında baş müəlllimdir.
Anası Respublika Gigiena və Epidemiologiya Mərkəzində aparıcı mütəxəssisdir.

*1. Hər kəs uşaqlıq yaşlarından özünü gələcəkdə müəyyən sənətin sahibi kimi təsəvvür edir. Mən də kiçik yaşlarımdan insanları sevindirmək, onların ən böyük nemətini - sağlamlıqlarını qorumaq istəyirəm. Arzum göz həkimi olmaqdır.*
*2. Qələbə davamlı və gərgin əmək sayəsində qazanılır. Bunun üçün də fənlər üzrə proqram materiallarını tam öyrənməyi tövsiyə edərdim. Bu yolda onlara doğru istiqamət verəcək "Abituriyent" jurnalındaki tövsiyələr, model testlər və ekspert şərhlərindən, internet səhifələrində olan məlumatlardan səmərəli istifadə etməyi məsləhət görürəm. Bunların sayəsində məqsədə nail olmaq xeyli asanlaşar.*



## ŞƏRİFOV NATİQ ƏDALƏT OĞLU

621.964 balla Azərbaycan Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olub.
Bakı şəhəri Qaradağ rayonu 253 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Hər bir gəncin özünəməxsus arzusu olduğu kimi, mənim də belə bir arzum var: həkim stomatoloq olmaq. Gələcək planlar barədə isə indidən heç bir şey deyə bilmərəm. Zaman göstərər.*
*2. Əgər yüksək nəticə əldə etmək istəyirsinizsə, qəbul imtahanlarına xüsusi sistemlər quraraq tam ciddi surətdə hazırlaşın. Hər hansı məlumatı qavrayıb yadda saxlamaq istəyirsinizsə, əzbərçilik qabiliyyətinizdən istifadə edin.*



## BAXŞƏLİYEVA TURAN TAHİR QIZI

618.929 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 267 saylı orta məktəbin məzunudur.
Atası Bakı Dövlət Universitetində müəllimdir.
Anası işləmir.

*1. Bu ixtisasa yiyələnməklə gələcəkdə xalqımın sağlamlığı keşiyində durmağı qarşıma məqsəd qoymuşam. Gələcəkdə özümü bu ixtisas üzrə yaxşı bir mütəxəssis kimi təsəvvür edirəm.*
*2. Məktəb dərslərinə yaxşı hazırlaşsınlar, öz üzərlərində daim səylə çalışaraq elmi biliklərini və dünyagörüşlərini təkmilləşdirsinlər.*



## HƏSƏNOV ZİYA POLAD OĞLU

617.768 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Samux rayonu Nizami adına Sərkar kənd orta məktəbinin məzunudur.
Atası Gəncə şəhəri 778 saylı aptekin müdiridir.
Anası işləmir.

*1. Savadlı həkim çoxlu sayda insana şəfa verir. Bu da onun cəmiyyətdə yüksək hörmət qazanmasına səbəb olur. Mən də məhz belə bir həkim olmaq istəyirəm. Universiteti bitirməklə kifayətlənməyib müəyyən sahəni daha mükəmməl öyrənmək və şəxsi klinika açmaq arzusundayam.*
*2. İlk növbədə çox oxumalıdırlar. Mənə elə gəlir ki, əzbərçilik faydasız bir işdir. Mövzuları yaradıcılıqla mənimsəməyə çalışmaq lazımdır. Bundan sonra isə onlara aid çoxlu test sualları həll etmək gərəkdir.*



## BAYRAMOV EMİN VAQİF OĞLU

617.250 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Zaqatala rayonu 3 saylı orta məktəbin məzunudur.
Atası Zaqatala rayonu Əlibayramlı kənd xəstəxanasında baş həkimdir.
Anası işləmir.

*1. Valideyinlərimin hər ikisi ali məktəbi fərqlənmə diplomu ilə bitirib. Zəngin ailə kitabxanamız var. Ana dilimizdə, rus və ingilis dillərində olan kitablar sırasında tibbi ədəbiyyat çoxluq təşkil edir. Atam həkimdir. Ailəmizin bu ənənəsini qorumağı qarşıma məqsəd qoymuşam. Ona görə ATU-nu fərqlənmə diplomu ilə bitirməyi, yüksək ixtisaslı həkim olmağı qət etmişəm.*
*2. "Abituriyent" jurnallarını ardıcıl izləmək, ixtisasını dərindən bilən fənn müəllimlərindən dərs almaq, gün ərzində ən azı 6-8 saat mütaliə etməyi bacarmaq.*



## MUSTAFAYEVA ÜLKƏR MİRBAĞIR QIZI

616.464 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Mingəçevir şəhər 10 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. İnsanların cansağlığı məni çox maraqlandırır. Gələcəkdə yüksək ixtisaslı həkim olmaq istəyirəm.*
*2. Dərs materiallarını yüksək səviyyədə mənimsəsinlər.*



## MƏMMƏDOVA ÜLKƏR ELXAN QIZI

616.108 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 279 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Beynəlxalq Universitetində baş müəllimdir.
Anası Bakı şəhəri 10 saylı tibb sahəsində həkimdir.

*1. Həmişə həkim olmaq arzusu ilə yaşamışam. Xalqımızı sağlam görmək ən böyük arzumdur. Bu arzumun gerçəkləşməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.*
*2. Birinci növbədə orta məktəb proqramını əla mənimsəməyi məsləhət görərdim. İmtahan zamanı isə həyəcan keçirməməyi tövsiyə edərdim.*



## PAŞAYEVA NƏRGİZ NAMİQ QIZI

615.483 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 157 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Milli Aerokosmik Agentliyi Aerokosmik İnformasiya İnstitutunda elmi işçidir.
Anası Azərbaycan Milli Aerokosmik Agentliyinin məxsusi konstruktor bürosunda işləyir.

*1. Mən gələcəkdə ən yaxşı həkimlərdən biri olmağı arzulayıram. İstərdim ki, gələcəkdə yanıma gələn bütün xəstələrə kömək edib, onları sağaldım. Mən öz peşəm barədə mümkün qədər çox bilik əldə etməyə çalışacağam.*
*2. Mümkün qədər çox oxumağı, "Abituriyent" jurnalının bütün saylarını diqqətlə nəzərdən keçirməyi, testlər bankında olan suallara anoloji suallar tərtib edib həll etməyi, dərsliklərdə olan bütün incəliklərə diqqət yetirməyi məsləhət görürəm.*



## MİRZƏYEVA NÜBAR RÖVŞƏN QIZI

614.321 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 27 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 27 saylı orta məktəbdə müəllimdir.

*1. Ən böyük arzum həkim olmaqdır. Yaxşı bir həkim olub, gələcəkdə xəstəxana tikdirmək və orada kasıb xəstələri pulsuz müayinə etmək istərdim.*
*2. Gecə-gündüz oxusunlar.*



## ƏLƏKBƏROVA GÜNEL ADIŞİRİN QIZI

614.286 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Qaradağ rayonu 106 saylı orta məktəbin məzunudur.
Atası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Hidrogeologiya və Mühəndis Geologiyası Ekspedisiyasının rəisidir.
Anası Meliorasiya və Su Təsərrüfatı Komitəsində iqtisadçıdır.

*1. Hələ uşaqlıqdan həm yaxınlarımın, həm də bütün insanların sağlam olmasını arzu etmişəm və bu işdə onlara yardımçı olmaq istəmişəm. Bu ixtisasa yiyələnməklə yüksək peşəkar həkim olmağa və ölkəmizdə tibbin yüksək nailiyyətlər əldə etməsinə çalışacağam.*
*2. Məsuliyyətlə çalışmaq. Qələbəyə inanmaq. Materialın çoxluğunu görüb ruhdan düşməmək.*



## ƏLİYEVA MƏHBUB ƏLİAĞA QIZI

614.018 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı Türk Liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.
Atası Azərbaycan Milli Elmlər Akademiyası Kibernetika İnstitutunda elmi işçidir.
Anası işləmir.

*1. Uşaqlıqdan hamıya kömək etmək ən böyük arzum olub. Bu ixtisasa yiyələnmək sayəsində məqsədimə çatacağımı düşünürəm.*
*2. Vitaminli qida, yaxşı istirahət və ciddi rejimli dərs hazırlığı.*



## HÜSEYNOVA RƏNA İLHAM QIZI

613.375 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 83 saylı orta məktəbin məzunudur.
Atası 311 saylı hərbi hissədə ambardardır.
Anası Laçın rayonu 2 saylı orta məktəbdə direktor müavinidir.

*1. Seçdiyim ixtisasın məsuliyyətli və çətin olduğunu bilirəm, amma eyni zamanda bu ixtisası sevirəm. Müalicə edəcəyim insanları yenidən həyata qaytarmaq mənə böyük bir xoşbəxtlik bəxş edəcək. Gələcək planımın əsasını əsl həkim olmaq və özümə gözəl bir xidməti kabinet düzəltmək təşkil edir.*
*2. Əziz abituriyentlər, məsuliyyətli olun, valideyinlərinizin təhriklərinə baxmayaraq, sevdiyiniz sənəti seçin. Çünki bu sənətin sahibi Siz olacaqsınız, onlar yox.*



## HƏSƏNOVA KÖNÜL MƏCİD QIZI

613.321 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Xətai rayonu 48 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 23 saylı poliklinikada həkimdir.

*1. Bu ixtisasa yiyələnmək uşaqlıqdan mənim ən böyük arzumdur. Gələcəkdə Vətənimə layiqli övlad olub, onun səhiyyəsini müvəffəqiyyətlə təmsil etmək istəyirəm.*
*2. İlk növbədə onlara səbr və dözüm diləyirəm. Öz biliklərinə arxalansınlar və inamlı olsunlar. Yadda saxlasınlar ki, imtahanda biliklə yanaşı, psixoloji hazırlıq da mühüm rol oynayır.*



## SƏFƏROVA ZÜLEYXA İSMAYIL QIZI

612.839 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu 15 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Bakı şəhəri 1 saylı xəstəxanada həkimdir.

*1. Bu ixtisasa yiylənməkdə məqsədim yaxşı bir həkim olmaqdır.*
*2. Dərslərinə daha ciddi hazırlaşsınlar.*



## NƏBİYEVA TURAY VƏLİ QIZI

612.483 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Laçın rayonu Binə qəsəbə orta məktəbinin məzunudur.
Atası vəfat edib.
Anası Bakı şəhəri V. Əzizov adına 30 saylı orta məktəbdə müəllimdir.

*1. Əgər həyatın məna və məqsədi insanların xeyri üçün çalışmaqdırsa, o zaman hansı ixtisası seçməyin o qədər də əhəmiyyəti yoxdur. Mən həm ailəmizin məsləhətilə, həm də öz istəyimlə məhz bu ixtisasa yiyələnməyi qərara aldım. Gələcəkdə göz cərrahı olmaq və dünya işığından məhrum insanlara şəfa verməyin mənə verəcəyi zövqü yaşamaq arzusundayam.*
*2. Cəsur olmağı, qarşılarına uca bir məqsəd qoymağı və bu məqsəd uğrunda manelərə baxmadan səylə çalışmağı məsləhət görürəm. Vaxtdan qənaətlə istifadə etmək vacib şərtdir. Hər bir abituriyent imtahana bir saat qalana kimi deməlidi: " Mən hər şeyi öyrənə bilərəm". İmtahan qapısından içəri girərkən isə: "Mən artıq hər şeyi bilirəm" deməlidir. Abituriyent öz gücünə inanmalıdır.*



## ƏLİYEV MƏRDAN HƏMİDAĞA OĞLU

612.446 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Salyan rayonu Yuxarı Xalac kənd 2 saylı orta məktəbinin məzunudur.
Atası Salyan Su idarəsində mühəndisdir.
Anası işləmir.

*1. Həkim olmaq mənim uşaqlıq arzumdur.*
*2. Çox çalışsınlar, əziyyətlərə dözsünlər, yaxşı oxusunlar.*



## HƏSƏNOVA GÜLXANIM İSMAYIL QIZI

612.411 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Gəncə şəhəri Kəpəz rayonu 17 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası işləmir.

*1. Həkim olmaq mənim ən böyük arzumdur. Bu sənətə yiyələnməklə Azərbaycan xalqına xidmət etmək, soydaşlarım qarşısında öz vətəndaşlıq borcumu yerinə yetirmək istəyirəm.*
*2. İmtahanlara səylə hazırlaşın. "Abituriyent" jurnalından istifadə edin. Öz məqsədinizə çatmaq üçün qarşınıza çıxan heç bir çətinlikdən çəkinməyin, onları qətiyyətlə dəf edin, iradəli olun, heç vaxt ruhdan düşməyin, özünüzə və qələbəyə inanın.*



## MƏMMƏDOVA LAMİYƏ RƏFAYIL QIZI

612.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Ağdam rayonu 71 saylı orta məktəbin məzunudur.
Atası vəfat edib.
Anası Bakı şəhəri 5 saylı T.T.Y.S-da tibb bacısıdır.

*1. Mən uşaqlıqdan həkim olmağı arzulayıram. Bu ixtisasa yiyələnməklə gələcəkdə özümü cəmiyyətə faydalı bir şəxsiyyət kimi görürəm.*
*2. İlk növbədə orta məktəb dərslərinə ciddi fikir vermək. Seçdiyi ixtisasa aid fənlərlə yanaşı, digər fənləri də dərindən mənimsəmək. Orta məktəb kursu ilə kifayətlənməyib əlavə kitabları mütaliə etmək.*



## ƏHMƏDOVA NİGAR ABDULLAH QIZI

611.375 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 267 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Texniki Universitetinin dosentidir.
Anası Azərbaycan Memarlıq və İnşaat Universitetində baş müəllimdir.

*1. Həkimlik hər bir şəraitdə insanlara lazım olan sənətdir. Gələcəkdə yüksək ixtisaslı mütəxəssis olmaq, təhsilimi xarici ölkələrdə davam etdirmək və "sərhədsiz həkimlər" qrupuna daxil olmaq istərdim.*
*2. Ciddi intizam və mütəmadi hazırlıq.*



## KƏRİMOV KƏRİM ƏBÜLFƏT OĞLU

609.304 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 35 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Milli Elmlər Akademiyasında kompüter şöbəsinin müdiridir.
Anası işləmir.

*1. Məndə özümü gələcəkdə həkim kimi təsdiqləməyə güclü inam hissi olduğuna görə bu ixtisası seçmişəm.*
*2. Aşağı siniflərdən tələbə olmağa planlı, sistemli şəkildə hazırlaşsınlar. Bu, onlara gələcəkdə daha inamlı olmağa və müvəffəqiyyət əldə etməyə kömək edəcək.*



## İSAYEVA AYNUR İBRAHİM QIZI

609.054 balla Azərbaycan Tibb Universitetinin pediatriya ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 99 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Tibb Universitetin professorudur.
Anası Azərbaycan Tibb Universitetində assistentdir.

*1. Uşaqları çox sevirəm və həmişə onların sağlamlıqları barədə düşünürəm. Ona görə də uşaq həkimi ixtisasını seçmişəm.*
*2. İmtahanlara səylə, həvəslə hazırlaşsınlar. Özlərinə daim inansınlar.*



## DƏMİROV FUAD MAŞALLAH OĞLU

608.608 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Mingəçevir şəhəri təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyin məzunudur.
Atası Mingəçevir şəhəri diaqnostika mərkəzində baş həkimdir.
Anası Mingəçevir şəhəri diaqnostika mərkəzində baş tibb bacısıdır.

*1. İstəyirəm ki, məni "həkim" çağırsınlar. Xüsusi kliniki mərkəz açmaq ən böyük arzumdur.*
*2. Dərslərə müntəzəm hazırlaşsınlar, özlərinə inansınlar. İmtahana 1-2 il ərzində deyil, 1-ci sinifdən hazırlaşmağa başlasınlar.*



## ABDULLAYEVA MEHRİBAN ƏLİZAMİN QIZI

608.411 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 47 saylı orta məktəbin məzunudur.
Atası Balakən rayon məhkəməsinin sədridir.
Anası işləmir.

*1. Bu ixtisası seçməyi mənə yaxınlarım məsləhət görüblər. Özümsə hüquqşünas olmaq istəmişəm. Lakin, inanıram ki, həkim kimi də həyatda uğur qazana bilərəm. Gələcəkdə isə neyrocərrah olmaq istəyirəm.*
*2. Ümidvaram ki, bu ilki kimi, gələcəkdə də ali məktəblərə yüksək balla qəbul olanların sayı çox olacaq. Gələcək abituriyentlərə indidən müvəffəqiyyət arzulayıram. Uğurlu nəticə əldə etmək üçün möhkəm iradə və çalışqanlıq tələb olunduğunu unutmasınlar. Hər şeydən əsas bilik və istedaddır.*



## QULİYEVA YAQUT ELXAN QIZI

608.108 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 196 saylı orta məktəbin məzunudur.
Atası Azərneftyanacaq neftayırma zavodunda cihazçıdır.
Anası işləmir.

*1. Həkim olmaq mənim uşaqlıq arzumdur. Savadlı, bacarıqlı həkim olmaq istəyirəm ki, xalqıma, millətimə layiqincə xidmət edim.*
*2. Məntiqi düşünmə bacarıqlarını inkişaf etdirsinlər ki, öz üzərlərində işləyə bilsinlər.*



## MƏMMƏDOV İLQAR TOFİQ OĞLU

607.768 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Neftçala rayonu 1 saylı orta məktəbin məzunudur.
Atası Bakı Dərin Özüllər zavodunda fəhlədir.
Anası Neftçala şəhəri 3 saylı orta məktəbdə müəllimdir.

*1. Həkimlik şərəfli peşədir. Vətəndaşlarımızın sağlamlığı keşiyində durmağı mən müqəddəs iş hesab edirəm. Xalqımıza yüksək keyfiyyətli tibbi xidmət göstərməyi mən hər şeydən üstün tuturam.*
*2. Müəllimlərin təcrübəsindən, biliyindən səmərəli faydalansındar. "Abituriyent" jurnalından müntəzəm istifadə etsinlər, öz biliklərini daim artırmaq qayğısına qalsınlar.*



## ƏLİYEVA LAMİƏ EYNULLA QIZI

607.179 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Əli Bayramlı şəhəri M.Osmanov adına 20 saylı orta məktəbin məzunudur.
Atası "Azpetrol" neft şirkətində elektrik-mexanikdir.
Anası Əli Bayramlı şəhəri 20 saylı orta məktəbdə müəllimdir.

*1. Həyatda ən böyük nemət cansağlığıdır. Mən də insanların sağlamlığını qorumaq və bərpa etmək üçün bu sənəti seçmişəm. Müstəqil Azərbaycanımızın savadlı kadrlara ehtiyacı var. Mən bu ixtisasa mükəmməl yiyələnməklə gələcəyin yüksək ixtisaslı kadrları sırasında olmaq istərdim. Tibbdə hələ indiyə qədər açılması çətin olan xəstəliklərin səbəblərini aşkar etməyə və həmin xəstəliklərin müalicə üsulunu tapmağa çalışacağam.*
*2. Dərslikləri diqqətlə, dərindən oxusunlar. Bununla yanaşı "Abituriyent" jurnalının bütün nömrələrini diqqətlə nəzərdən keçirsinlər.*



## MUSAYEVA GÜNEL MÜRVƏT QIZI

605.446 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Kürdəmir rayonu T.İsmayılov adına 1 saylı orta məktəbin məzunudur.
Atası işləmir.
Anası Kürdəmir rayon Mərkəzi Xəstaxanasının cərrahiyyə şöbəsində tibb bacısıdır.

*1. Belə bir müdrik kəlam var: "Sağlam bədəndə sağlam ruh olar". Xəstələrə şəfa vermək, ən gözəl nemət olan sağlamlığın keşiyində durmaq ən böyük arzum olmuş, bu arzu da məni yaxşı bir həkim olmaq məqsədinə doğru istiqamətləndirmişdir.*
*2. Əziz abituriyentlər! Sizə məsləhət görürəm ki, bütün hazırlığı son bir-iki aya saxlamayın. Bu ağır sınaqdan şərəflə çıxmaq üçün vaxtdan səmərəli istifadə edib ciddi hazırlaşın. İnanın ki, bu yolda "Abituriyent" jurnalı da Sizə ən yaxşı dost, əvəzsiz köməkçi olacaqdır. İmtahanlara bu jurnalın köməyi ilə hazırlaşsanız, zəhmətinizin hədər getmədiyinə şahid olacaqsınız.*



## ABDULOV ASİM TEHRAB OĞLU

605.233 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Şamaxı rayonu A.Alxanov adına Sabir qəsəbə orta məktəbinin məzunudur.
Atası vəfat edib.
Anası Şamaxı rayonu Sabir qəsəbəsindəki uşaq bağçasında işləyir.

*1. Həkim olmaq mənim uşaqlıq arzumdur.*
*2. Abituriyentlərə məsləhət görürəm ki, qəbula ciddi hazırlaşsınlar.*



## VƏZİROV SƏFƏRƏLİ ƏDALƏT OĞLU

604.429 balla Azərbaycan Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu Bülbül adına orta ixtisas musiqi məktəbinin məzunudur.
Atası vəfat edib.
Anası işləmir.

*1. Bu ixtisası seçməkdə əsas məqsədim Vətənimizin qarşısında öz vətəndaşlıq borcumu yerinə yetirmək və xalqımıza namusla xidmət etməkdir. Gələcəkdə gözəl həkim olub, insanlara şəfa vermək istərdim.*
*2. Dərslərinə məsuliyyətlə yanaşsınlar. İstədikləri məqsədə çatmaq üçün qətiyyətli olsunlar və peşə seçməkdə düzgün addım atsınlar. Layiqli vətəndaş olub Vətənə xidmət etsinlər.*



## ŞƏMŞİROVA ŞAHANƏ RƏŞİD QIZI

603.821 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 190 saylı orta məktəbin məzunudur.
Atası Azərbaycan Respublikası Prokurorluğunda prokurordur.
Anası işləmir.

*1. Bu ixtisası çox sevdiyim üçün seçmişəm. Gələcək planlarım yaxşı həkim olub insanların sağlamlığının keşiyində durmaqdır.*
*2. Onlara daha yüksək nəticələr əldə etmək üçün uzun müddət ərzində proqram üzrə hazırlaşmağı və "Abituriyent" jurnalından istifadə etməyi məsləhət görürəm.*



## ƏHMƏDOVA LEYLA ASLAN QIZI

603.286 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Abşeron rayonu Xırdalan qəsəbə 1 saylı orta məktəbinin məzunudur.
Atası işləmir.
Anası Sumqayıt şəhəri 3 saylı poliklinikasında həkimdir.

*1. Bu ixtisasa qəbul olmaq mənim uşaqlıq istəyimdir. Məqsədim Tibb Universitetini müvəffəqiyyətlə bitirib yüksək səviyyəli mütəxəssis olmaq və ölkəmizdə sağlam cəmiyyətin bərqərar olması üçün çalışmaqdır.*
*2. Gələcək abituriyentlərə qəbula hazırlıqda uğurlar arzulayır və öz məqsədlərinə çatmaq uğrunda böyük səylə çalışmağı tövsiyə edirəm. Onları əmin edirəm ki, "Abituriyent" jurnalından səmərəli istifadə etsələr və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi sınaq imtahanlarında iştirak etsələr, uğur qazana bilərlər.*



## BƏŞİROV FUAD QALİB OĞLU

602.858 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
İsmayıllı rayonu İsmayıllı kənd orta məktəbinin məzunudur.
Atası İsmayıllı rayonu İsmayıllı kənd orta məktəbində direktordur.
Anası İsmayıllı şəhəri 3 saylı orta məktəbində müəllimdir.

*1. Bu ixtisası yaxşı bir həkim olmaq üçün seçmişəm.*
*2. Dərs kitablarından və "Abituriyent" jurnalından müntəzəm və səmərəli istifadə etməklə, məncə, qəbulda uğur qazanmaq olar.*



## HÜSEYNOV MİRZAMAN ADGÖZƏL OĞLU

601.858 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 290 saylı orta məktəbin məzunudur.
Atası "Taleh – Çörək" istehsalat birliyində fəhlədir.
Anası Bakı şəhəri 290 saylı orta məktəbdə müəllimdir.

*1. Xəstə insanlara kömək edən, həyatdan əlini üzmüş insanlarda ümid çırağı yandıran həkimləri mən həmişə özümə ideal sanmışam və buna görə də bu ixtisası seçmişəm. Gələcək planlarıma gəldikdə isə, məqsədim yaxşı bir həkim olmaq və ölkəmizin şərəfini hər yerdə ucaltmaqdır.*
*2. Məsləhətim budur ki, imtahanlara çox ciddi, hər bir materialı dərindən mənimsəməklə hazırlaşsınlar. "Abituriyent" jurnalının hər bir nömrəsini izləyib düzgün istiqamət alsınlar.*



## PƏNAHOVA AYNUR MAHİR QIZI

601.036 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.
Bakı şəhəri Qaradağ rayonu 274 saylı orta məktəbin məzunudur.
Atası Bakı şəhəri Vergilər departamentində nəzarət yoxlama idarəsinin rəis müavinidir.
Anası işləmir.

*1. Daim öz biliyimi artırmaqla müasir dövrün ən çətin xəstəliklərinin müalicə yollarını tapmaqla insanların sağlamlığına xidmət etmək istəyirəm.*
*2. Daim öz üzərlərində çalışsınlar, öz bilik və savadlarını artırsınlar, özlərinin bacarıq və qabiliyyətlərinə uyğun peşə seçsinlər, xalqa vicdanla xidmət etsinlər.*

# V QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



**ƏSGƏROVA VALİDƏ YAŞAR QIZI**

623.428 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsilin pedaqogika və metodikası ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 146 saylı orta məktəbin məzunudur.
Atası "Bakı tələbat qabları" ATSC., istehsal-texniki şöbənin rəisidir.
Anası Bakı şəhəri 146 saylı orta məktəbdə müəllimdir.

*1. Uşaqlarla işləmək mənə daha xoş olduğu və müəllimlik sənətinə böyük hörmətim olduğu üçün bu ixtisası seçmişəm.*
*2. Bütün fikirlərini ancaq imtahanlara hazırlaşmağa yönəltsinlər. Yaxşı nəticə əldə etmək yalnız onların özündən asılıdır. TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında iştirak etsinlər və "Abituriyent" jurnalından səmərəli şəkildə faydalansınlar.*

**PS.**

***Hörmətli oxucular! Sizi qəbul imtahanlarında 600-dən yuxarı bal toplayan gənclər haqqında əldə etdiyimiz məlumatlarla tanış etdik. Ancaq belə gənclərdən bir neçəsi həm də Türkiyə ali məktəblərinə daxil olub orada təhsil aldıqlarından onlarla əlaqə yarada bilmədik. Buna görə də Sizə onların haqqında yalnız TQDK-nın bazasında olan məlumatları çatdıra bildik.***

# MƏKTUBLARDAN SƏTİRLƏR



Əziz oxucular!
Ali məktəblərə tələbə qəbulu müsabiqəsi xeyli vaxtdır ki, başa çatıb. Ancaq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına hələ də ictimaiyyətin ən müxtəlif təbəqələrindən imtahanların gedişi və nəticələri haqqında çoxlu məktub, teleqram və müraciətlər daxil olmaqdadır. Jurnalımızın bu sayında ictimai rəyin əks-sədası olan belə materiallara yer ayırırıq.

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə**

Hörmətli Məleykə xanım! Bu məktubu Sizə göndərən bu ilki tələbə qəbulunda 3-cü qrup üzrə ən çox bal toplayan Tural Quliyevin anasıdır.

Mən Sizə öz təşəkkürümü bildirirəm. Ona görə ki, birincisi, imtahan çox obyektiv keçdi və nəzarət güclü idi, ikincisi isə, oğlum "Abituriyent" jurnalının buraxlışlarını müntəzəm olaraq izləyirdi və imtahana orada verilən qəbul proqramları əsasında hazırlaşırdı. Bu da öz bəhrəsini verdi, oğlumun yüksək bal yığmasına səbəb oldu.



İmtahan ərəfsində sınaq testlərinin keçirilməsi də çox faydalı idi. Oğlum Tural 4 dəfə sınaq testində iştirak etmiş və yüksək nəticələrə nail olmuşdur.

Bir daha Sizə ürəkdən minnətdarlığımı bildirir, çətin, lakin şərəfli işinizdə Sizə yeni-yeni uğurlar diləyirəm.

***Hörmətlə, Quliyeva Təranə İdris qızı ,***
***Bakı şəhəri, 1-ci Yasamal, ev 12, mənzil 93,***
***13 avqust 2003-cü il .***

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına**

Azərbaycan Müəllimlər İnstitutunun Cəlilabad filialı 13 iyul 2000-ci il tarixdə möhtərəm Prezidentimiz cənab H. Əliyevin fərmanı ilə yaradılmışdır. Bu diqqət və qayğıya görə bütün cəlilabadlılar möhtərəm Prezidentimiz cənab H.Əliyevə minnətdardır.

Hörmətli Məleykə xanım, Azərbaycan qadını bütün dövrlərdə cəmiyyətimizin ictimai-siyasi həyatında fəal iştirak etmiş, ölkəmizin ağır və çətin günlərində həlledici rol oynamışdır.

Biz Sizin şəxsinizdə zəmanəmizin prinsipial, obyektiv, qətiyyətli, seçdiyi mövqeyini heç bir şeyə dəyişməyən Azərbaycan qadınını görürük.



10 ildən artıqdır ki, TQDK-nın fəaliyyət göstərməsinə baxmayaraq bu vaxta kimi nə iqtidar, nə müxalifət nümayəndələrinin və nə də valideyn və abituriyentlərin TQDK-nın qeyri-obyektiv mövqe tutması haqqında heç bir rəsmi və qeyri-rəsmi narazılığı olmamışdır.

Sizin obyektiv mövqeyinizin nəticəsidir ki, respublikamızın ən ucqar kəndlərindən belə son vaxtlara qədər ali məktəblərə qəbul oluna bilməyən gənclər indi öz biliyini sərbəst nümayiş etdirərək kütləvi şəkildə ali məktəblərə qəbul olunurlar.

Masallı rayon Sığdaş kəndindən bir adi kəndli ailəsindən (ata orta tibb işçisi, ana evdar qadın) 5 nəfər gəncin (4 bacı, 1 qardaş) eyni vaxtda bizim filialda təhsil almaları bu deyinlənlərin bariz nümunəsidir. Hazırda respublikamızın onlarla belə rayonunun nümayəndələri bizim filialda təhsil alır.

Biz Sizinlə fəxr edirik və gələcək fəaliyyətinizdə də həmin mövqedə olmağınızı arzu edirik.

***Hörmətlə, AMİ Cəlilabad***
***filialının direktoru: V. Məmmədov***

**Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə**



Hörmətli Məleykə xanım! Azərbaycanda təhsil almaq, işləmək və yaşamaq üçün normal şərait yaratdığına, xüsusilə Cəlilabad rayonunda Azərbaycan Müəllimlər İnstitutunun filialının yaranmasının təşəbbüskarı olduğuna görə möhtərəm Prezidentimiz cənab Heydər Əliyevə ailəmiz adından dərin minnətdarlığımızı bildiririk. Cənab Prezidentimizə uzun ömür, cansağlığı arzu edirik.

Hörmətli Məleykə xanım! Bir Azərbaycan qadını, TQDK-nın sədri kimi ağır və məsuliyyətli vəzifədə Sizin ədalətli mövqeyiniz diqqətəlayiqdir. Bizim ailədən 5 nəfər övladımızın eyni vaxtda Cəlilabad filialında təhsil alması Sizin prinsipiallığınız və qətiyyətiniz sayəsində mümkün olmuşdur. Əks halda bizim buna nə maddi, nə də fiziki imkanımız olmazdı.

Buna görə Sizə ailəmiz adından dərin təşəkkürümüzü bildiririk.

***İmza: N. Məmmədova,***
***S. Məmmədov.***

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri M.Abbaszadəyə, Ağdam rayonu, məcburi köçkün Məmmədova İsmət tərəfindən**



Mənim qızım Məmmədova Lamiyə 4-cü qrup üzrə test imtahanı vermiş və 612 bal toplayaraq Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olmuşdur. İmtahan zamanı yaradılmış obyektiv şərait qızımı və bir valideyn kimi məni çox qane etmişdir. Buna görə də Sizə və Sizin kollektivinizə öz minnətdarlığımı bildirirəm.

*İmza: Məmmədova,*
*23. 08. 2003.*

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri xanım Məleykə Abbaszadəyə**



Mənim oğlum Kərimov Nicat 2-ci qrup üzrə test imtahanı vermiş və Azərbaycan Dövlət Neft Akademiyasının beynəlxalq iqtisadi münasibətlər fakültəsinə qəbul olmuşdur. Oğlumun göstərdiyi nəticə də sevindiricidir: 634 bal. Əlbəttə, bu, həm də imtahan zamanı yaradılmış obyektiv şərait sayəsində mümkün olmuşdur. Bu, qızımı və bir valideyn kimi məni çox qane etmişdir. Biz Sizin bu fəaliyyətinizi yüksək qiymətləndirir və ailəmiz adından Sizə dərin minnətdarlığımızı bildirir və gələcək işlərinizdə Sizə uğurlar arzulayırıq.

*Hörmətlə, Neftçala rayonu, Qədimkənd kənd sakini*
*Kərimov Əliman Əlif oğlu ,*
*23. 08. 2003 .*

**Azərbaycan Respublikasının Prezidenti H.Əliyev cənablarına**

Hörmətli cənab Prezident! 2003-2004-cü tədris ilində Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ali məktəblərə tələbə qəbulu zamanı yaratdığı təmiz obyektiv mühitin nəticəsində oğlum Mirzəyev Elgiz Bakı Dövlət Universitetinə qəbul olmuşdur. Qəbulda obyektivliyin qarantı kimi Sizə minnətdarlığımı bildirirəm.



TELEQRAM

BAKI AZERBAYCAN RESPUBLIKASININ PREZIDENTI H.ƏLIYEV CƏNABLARINA

HÖRMƏTLI CƏNAB PREZIDENT 2003-2004-CÜ IL TƏDRIS ILINDƏ TƏLƏBƏ QƏBULU DÖVLƏT KOMISIYASI BU ILKI ALI MƏKTƏBLƏRƏ TƏLƏBƏ QƏBULU ZAMANI YARADILMIŞ TƏMIZ OBYEKTIV MÜHITIN NƏTICƏSINDƏ OĞLUM MIRZƏYEV ELGIZ BAKI DÖVLƏT UNIVERSITETINƏ QƏBUL OLUNMUŞDUR. QƏBULDA OBYEKTIVLIYIN QARANTI KIMI SIZƏ MINNƏTDARLIĞIMI BILDIRIRƏM.

LAÇIN RAYONUNDAN MƏCBURI KÖÇKÜN DOĞMUŞ HƏMZƏYEV ÇINGIZ İSMAYILLI RAYONUNUN QOŞAKƏND KƏNDI

*Hörmətlə, Həmzəyev Çingiz,*
*Laçın rayonundan məcburi köçkün,*
*6 avqust 2003-cü il.*

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə**

Çox hörmətli Məleykə xanım, mən əslən Cəbrayıl rayonundan olan məcburi köçkünəm. Mənim iki övladım bir neçə il bundan əvvəl test üsulu ilə ali məktəbə qəbul olub. Bu il isə kiçik oğlum Polis Akademiyasına qəbul oldu. Bu, gənclərdə əsl biliyə qiymət verilməsi deməkdir. Doğrudan da, Sizin rəhbərlik etdiyiniz Tələbə Qəbulu üzrə Dövlət Komissiyası çox şəffaf, obyektiv test imtahanları keçirir. Mən minlərlə valideynlərdən biri kimi bu cür gərgin, aydın və şəffaf xidmətinizə görə Sizə bütün ailəmiz adından ürəkdən çox sağ ol deyir və Azərbaycan təhsilinin gələcəyi naminə işinizdə Sizə böyük müvəffəqiyyətlər arzu edirəm.



*Hörmətlə, Vaqif Məhərrəmov,*
*Cəbrayıl rayonundan məcburi köçkün,*
*9 avqust 2003-cü il.*

MƏKTUBLARDAN SƏTİRLƏR

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, V.M.Bağırov, F.Ş.Bədəlbəyli, A.B.Cahangirov, A.Q.Əbiyev, M.N.Ələsgərov, Ə.T.Əmiraslanov, E.N.Əmirbəyov, N.M.Xudiyev, A.M.Məhərrəmov, M.C.Mərdanov.

**REDAKSİYA HEYƏTİ**
A.H.Bağırov (baş redaktor), R.H.Novruzov (baş redaktor müavini), H.H.Kazımov (məsul katib), F.A.Atamov, İ.A.Babayev, T.A.Bədəlov, R.H.Hüseynov, Ç.C.Xəlilov, Ə.Q.Quliyev, M.N.Qurbanov, V.R.Misirov, M.Ə.Nuriyev, Ç.İ.Rüstəmov.

**Üslubçu:** prof. İ.O.Məmmədov.

**Kompüter və dizayn:**
O.Y.Şelaginov, S.N.Hüseynov, R.Q.Qədirov.

**Redaksiyanın ünvanı:**
370078, Bakı şəhəri, akademik Həsən Əliyev küçəsi, 17.

**Telefon:**
40-30-09.

**E-mail:**
abit@tqdk.gov.az

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999)

© TQDK - «Abituriyent»

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması QADAĞANDIR!

Jurnal Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi materialları əsasında hazırlanmışdır.

Çapa imzalanmışdır 10.11.2003. Tiraj 350.

Jurnal "OSCAR" mətbəəsində çap edilmişdir.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.



# Mündəricat

2 REDAKSİYADAN

3 "TƏLƏBƏ ADIN MÜBARƏK" TELE GÖRÜŞÜ

YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏRİMİZ
5 I QRUP
22 II QRUP
51 III QRUP
58 IV QRUP
70 V QRUP

70 MƏKTUBLARDAN SƏTİRLƏR

"ABİTURİYENT"in növbəti sayında




№12